# KƏHF SURƏSİNDƏN DÖVRÜMÜZƏ İŞARƏLƏR

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT

**Giriş**

**Kəhf surəsində dövrümüzə işarələr**

**Nəticə**

**Təkamül yalanı**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq

romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Hökmü qiyamətə qədər keçərli olan, möminlərin bütün həyatını əhatə edən əmr və məlumatların yerləşdiyi Quranı Kərim, Allahın kitabıdır. Quranın ən böyük möcüzələrindən biri, ilk vəhyin enməsindən bəri, hər əsrdə yaşayan bütün insanlara xitab etməsidir. Allah Quranı, qiyamətə qədər insanlara yol göstərici və hidayət rəhbəri olaraq nazil etmişdir.

Quranda bəhs edilən keçmiş qövmlərə dair hekayələr də insanlara bir çox mövzuda yol göstəricidir. Peyğəmbərlərin həyatları, qövmlərinə etdikləri təbliğlər və əməlləri iman edənlər üçün nümunədir. Bununla yanaşı, Quranda gələcəyə dair işarələr və möminlərin üzərində düşünməli olduğu olan bəzi sirlər də vardır. Kəhf surəsi bunlardan biridir.

Kəhf surəsi Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in və bir çox İslam aliminin diqqət çəkdiyi bir surədir. Kəhf surəsində çatdırılan Kəhf və Rəqim əhlinə, hz. Musa və elm sahibi biri ilə əlaqədar hadisələrdə və hz. Zülqərneyn hekayəsində bir çox sirlər və Axırzamana işarə edən bir çox ifadələr var.

Kəhf surəsinin Axırzamanla əlaqəsi olduğuna dair Peyğəmbərimiz (s.ə.v)-in də bir çox hədisi mövcuddur. Bu hədislərdən bəziləri bu şəkildədir:

Nevvas ibn. Seman əl-Kilabi (r.ə)-dən rəvayət edilmişdir.

"Sizdən kim Dəccala yetişsə Kəhf surəsinin əvvəlini onun üzərinə oxusun. Bu surənin sonu Dəccalın fitnəsindən qurtuluşunuzdur.[1]

Əbu Ümamə əl-Bahilidən rəvayət edilmişdir.

... Kim onun (Dəccalın) cəhənnəminin bəlasına uğrasa, Allahdan kömək diləsin və Kəhf surəsinin ilk ayələrini oxusun ki, atəş İbrahim (ə.s)-a olduğu kimi bu atəş də o kimsəyə soyuq və salamat olsun.[2]

... Hər kim Dəccalın atəşi ilə sıxıntıya düşsə və imtahan edilsə, Allahdan kömək istəsin və Kəhf surəsinin baş tərəfindəki ayələri oxusun. Bu surətlə Dəccalın atəşi ona qarşı soyuq və salamat olar. [3]

Hz. Məhəmməd (s.ə.v)-in müsəlmanlara Kəhf surəsini mütləq oxumalarını tövsiyə etməsinin hikmətlərindən biri, Kəhf surəsinin Axırzamana aid çox əhəmiyyətli işarələr daşımasıdır. Kəhf surəsində, Axırzamanda çıxacaq olan Dəccaldan və onun yer üzünə yaymaq istədiyi dinsizlik axınlarından qorunmaq və insanlığa bəla gətirəcək olan bu fitnəyə qarşı mübarizə apara bilmək üçün lazımlı işarələr, həmçinin müsəlmanların istifadə edə biləcəyi hikmətlər var. Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda bu surəni diqqətlə oxumağı və yaddaşda saxlaması tövsiyə etməsi, bu vəziyyətə açıq bir işarədir. Həmçinin kitab boyunca görəcəyimiz kimi, Əshabi-Kəhfin inkarçı qövm içində yaşadıqları, sonra hz. Musanın Allahın rəhmət verdiyi bir insandan öyrəndiyi dərin elm və bunun davamında hz. Zülqərneynin

bütün dünyaya hakimiyyət quraraq İslam əxlaqını yayması üzərində düşünülməli olan mövzulardır.

Bu hadisələrin hikmətlərini kitab boyunca ətraflı olaraq izah edəcəyik. Çünki bu kitabın yazılmasındakı məqsəd; ayələrində zəmanəmizə dair əhəmiyyətli işarələr olan Kəhf surəsi üzərində diqqətlə düşünmək, dərin bir təfəkkürlə bu sirləri anlamaq üçün cəhd etmək və Peyğəmbərimiz (s.ə.v)-in tövsiyəsinə əməl etməkdir. Diqqətlə oxuyanlar görəcəklər ki, bu surədə qiyamətə yaxın bir dövr olan Axırzamana, Axırzamanda geniş vüsət alan inkarçı sistemlərin tətbiqlərinə və Allahın bu batil sistemləri, haqqı göndərərək darmadağın etməsinə istiqamətli çox əhəmiyyətli işarələr var.

Bəhs etdiyimiz bu dövr Allahın izni ilə çox yaxındır və insanların bu mövzu üzərində dərin-dərin düşünmələri çox daha böyük bir əhəmiyyət qazanmışdır. Bu səbəblə, bütün müsəlmanlar Kəhf surəsi üzərində diqqətlə düşünməli, hər bir ayəni digər Quran ayələri ilə tutuşdurulmalı və yaddaşda saxlamaları son dərəcə əhəmiyyətlidir.

## Kitabı Öz quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha həmd olsun! (Kəhf surəsi, 1)

Kəhf surəsinin ilk ayəsində Allah şükür etmənin əhəmiyyətinə diqqət çəkir. Allah insana sahib olduğu hər şeyi; mükəmməl işləyən vücudunu, dünyadakı yaşanan mühiti, səmadakı nizamı, yeməkləri, suyu və daha nələri verəndir. Allah sonsuz comərd olandır. Rəbbimiz insanlara dünya həyatında ümumiləşdirməylə belə sayıla bilməyəcək qədər çox nemətlər vermişdir. Bu həqiqət, bir ayədə belə xatırladılır:

**Əgər Allahın nemətlərini saymalı olsanız, ümumiləşdirmə edərək belə onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir. (Nəhl surəsi, 18)**

Allaha, verdiyi bütün nemətlərdən ötrü həmişə şükür etmək iman edənlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Unudulmamalıdır ki, Allah bütün bu nemətlərlə insanları sınayır. Allah, Nisa surəsinin 147-ci ayəsində "şükrün əvəzini verən" olduğunu xəbər verir. Buna baxmayaraq, insanların böyük bir hissəsi özlərinə verilən nemətlərə nankorluq edirlər. Hz. Süleymanın Nəml surəsindəki sözləri belədir:

**... "Bu, Rəbbimin fəzlindəndir, Ona şükür edəcəyəm, yoxsa nankor olacağam deyə məni sınadığı üçün (bu qeyri-adi hadisə reallaşdı). Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim Qani (heç bir şeyə və kimsəyə ehtiyacı olmayan) dır, Kərim olandır. " (Nəml surəsi, 40)**

Axırzaman isə insanların şükürdən tamamilə uzaqlaşdıqları bir dövrdür. Bu dövrdə insanlar bütün nemətləri verənin Allah olduğunu unudar, dünya həyatına böyük bir ehtirasla bağlanarlar. Sahib olduqları maddi-mənəvi hər cür zənginliyi özlərindən bilərlər. Bu nemətləri öz səyləriylə, zəkalarıyla və layiq olaraq əldə etdiklərinə inanarlar. Ancaq bu şəkildə düşünən kəslər, əslində Allaha qarşı çox böyük bir nankorluq içində olduqlarını qəti olaraq bilməlidirlər. Çünki insana sahib olduğu bütün nemətləri verən Allahdır. Necə ki, ayələrdə bu həqiqət belə bildirilir:

**Sizə hər istədiyiniz şeyi verdi. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqət budur ki, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

**Nemət olaraq sizə çatan nə varsa, Allahdandır, sonra sizə bir zərər toxunduğu zaman (yenə) ancaq Ona yalvarırsınız. Sonra sizdən zərəri aradan qaldırdığında, sizdən bir qrup (dərhal) Rəbbinə şərik qoşar; Özlərinə verdiyimiz nemətlərə nankorluq etmək üçün belə edirlər. Hələlik faydalanın! Tezliklə biləcəksiniz. (Nəhl surəsi, 53-55)**

Nəhl surəsinin yuxarıdakı ayələrində bildirildiyi kimi, insanlar Allahın verdiyi nemətləri unudur və Ona şərik qoşarlar. İnsanları Allahın nemətlərinə qarşı nankorluq etməyə məcbur etmək və şükürdən uzaqlaşdırmaq isə şeytanın bir taktikasıdır. Bu şəkildə onları inkara yaxınlaşdırır və Allahın yolundan azdırır. Şeytanın bu hiyləgər taktikası və əsil məqsədi Quranda belə bildirilir:

**"Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm. Onların əksəriyyətini şükür edən görməyəcəksən". (Allah) dedi: "Oradan mənfur və qovulmuş olaraq çıx. Onlardan kim sənin ardınca getsə, cəhənnəmi sizlərlə dolduracağam." (Əraf surəsi, 17-18)**

Allaha şükür etmənin əhəmiyyətinə ayələrdə diqqət çəkilməsinə baxmayaraq, insanların şükürdən uzaqlaşmalarının əlbəttə ki, dünyada da bir qarşılığı vardır. Dünya üzərindəki yoxluq, qıtlıq, səfalət, əxlaqi çöküş kimi çətinliklərin təməlində insanların Allahı unutduqları və şükür etməmələri durur. Şükür insana nemətlərin, rifahın və əmin-amanlığın qapılarını açarkən, şükürdən uzaqlaşıb, nankorluq etmək isə böyük bir əzab gətirir. Allah bir ayəsində bu şəkildə buyurur:

**"Rəbbiniz belə buyurmuşdu:" And olsun ki, əgər şükür etsəniz sizə artıraram, yox əgər nankorluq etsəniz, şübhəsiz ki, Mənim əzabım şiddətlidir." (İbrahim surəsi, 7)**

Ayədə də bildirildiyi kimi, şükür etməyən, Allahın nemətlərinə nankorluq edən bir insan şiddətli bir əzaba layiqdir. Necə ki, Allah bəhs edilən kəslərə həm dünyada, həm də axirətdə əzab verir.

Keçmişdə yaşanan hadisələr bu mövzuda əhəmiyyətli ibrət dərsləri verir. Ötən əsrdə dünyanı, Allahın dinini inkar üzərinə qurulmuş ideologiyaları mənimsəmiş kəslər idarə

etmişdir. Faşizm və kommunizm kimi ideologiyalar, insanları haqq dinin gözəlliklərindən uzaqlaşdırmış, onlara inkarı cazibədar göstərmişdir. Bu zalım ideologiyaların arxasından sürüklənərək Allahı inkar edən insanlar, şükür etməyi də bunun bir nəticəsi olaraq unutmuş və illər boyu çox böyük bəlalarla qarşılıq görmüşlər. İnsanlar Allahın nemətlərinə nankorluq etmələrinin qarşılığını, nemət əskikliyi olaraq almışlar. Quranda nankorluğun qarşılığı belə xəbər verilmişdir:

**Allah bir şəhəri misal çəkdi: (Xalqı) Təhlükəsizlik və hüzur içində idi, onun ruzisi də hər yerdən bol-bol gəlirdi; lakin Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu bəlası daddırdı. (Nəhl surəsi, 112)**

XX əsr boyunca bütün dünyanın aclıq, yoxsulluq, qorxu və acı yaşamalarının təməlində də bu nankor əxlaqları var. Quranda Allahın nemətlərinə nankorluq edən insanların cəzalandırılacağı belə xəbər verilmişdir:

**Onları nankorluqlarına görə belə cəzalandırdıq. Biz (nemətə) nankorluq edəndən başqasına cəzalandırarıq mı? (Səba surəsi, 17)**

**Allah, Öz tərəfindən gələcək şiddətli bir əzabla günahkarları qorxutmaq, yaxşı işlər görən möminləri gözəl mükafata nail olacaqları ilə müjdələmək üçün bu Kitabı dopdoğru şəkildə nazil etdi. (Kəhf surəsi, 2)**

Kəhf surəsinin 2-ci ayəsində Quranın əhəmiyyətinə və doğru bir kitab olduğuna diqqət çəkilir. Quran, Allahın izni ilə insanlara öyüd-nəsihət verən və sonsuz həyatları üçün onları xəbərdar edən və doğru yolu göstərən, Allahın vəhyidir. Rəbbimizin razılığını, rəhmətini və cənnətini qazanmaq üçün sarılmalı olduğumuz yeganə yol göstəricidir. Doğru ilə yanlışı bir-birindən ayıran mütləq ölçüdür. Bəqərə surəsinin 120-ci ayəsində də bildirildiyi kimi "Şübhəsiz ki, doğru yol, Allahın yoludur." Rəbbimiz iman edənlərə yol olaraq Qurana möhkəm sarılmalı olduğumuzu belə açıqlayır:

**"Bu halda, sənə vəhy olunana sarıl; çünki sən düz yoldasan. Və şübhəsiz o (Quran), sənin və sənin qövmün üçün həqiqətən bir zikrdir. Siz (ondan) sorğu-sual olunacaqsınız." (Zuxruf surəsi, 43-44)**

Kəhf surəsinin 2-ci ayəsində eyni zamanda ayələrə riayət etməyin əhəmiyyətinə də Allah diqqət çəkir. İman edən bir insan bütün həyatı boyunca Allahın hökmlərinə, əmr və tövsiyələrinə diqqətlə riayət etməklə məsuldur. Heç bir çətinlik, təzyiq ya da sıxıntı onu bu mövzuda ruh düşkünlüyünə salmaz və qəflətə sürükləməz. Şərtlər nə olursa olsun hər zaman bu mövzularda diqqətli, çalışqan və qətiyyətlidir.

Ayədə diqqət çəkilən hökmlərdən digəri də insanları xəbərdar edib qorxutmaqdır. Allah Quranın bir çox ayəsində iman edənlərə bu əhəmiyyətli məsuliyyəti xatırladır, insanlara yaxşılığı əmr etmək və onları pislikdən çəkindirməyin əhəmiyyətinə işarə edir. Həmçinin, Allah Quranda bu vəzifənin bir ibadət olaraq yerinə yetirilməsini əmr etmiş və bunu edən insanların qurtuluş tapacağını da müjdələmişdir. Bu mövzudakı bir ayə belədir:

**Tövbə edənlər, ibadət edənlər, həmd edənlər, (İslam uğrunda) səyahət edənlər, rüku edənlər, səcdə edənlər, yaxşı işlər görməyi əmr edib pis işləri görməyi qadağan edənlər və Allahın hədlərini qoruyanlar; sən (bütün) möminləri müjdələ. (Tövbə surəsi, 112)**

Hər mövzuda olduğu kimi bu mövzuda da ən gözəl nümunələr peyğəmbərlərdədir. Bu şərəfli vəzifəni boynuna götürən elçilər, tarix boyunca insanları hər cür şəkillərdə xəbərdar etmişlər və Allaha iman etməyə dəvət etmişlər. Elçilər insanları xəbərdar edərkən, onlara cəhənnəmin varlığını xatırladıb, sonsuz bir əzabla da qorxutmuşlar. Allah bu həqiqəti Leyl surəsində bu şəkildə bildirir:

**Mən sizi alov saçan bir odla qorxutdum. Ona ancaq ən bədbəxt kimsə girər. (Leyl surəsi, 14-15)**

Kəhf surəsinin 2-ci ayəsində diqqət çəkilən bir başqa əhəmiyyətli mövzu da saleh əməlin əhəmiyyətidir. Saleh əməl insanın yalnız Allahın razılığını, rəhmətini və cənnətini hədəfləyərək, səmimi bir ürəklə etdiyi xeyirli hərəkətlərdir. Saleh əməlin əhəmiyyəti ilə əlaqədar bir başqa ayə belədir:

**Kim izzəti istəyirsə, artıq bütün izzət Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksələr və saleh əməl də onu yüksəldər. Pislikləri qurub düzəldənlər isə; onlar üçün şiddətli bir əzab vardır. Onların qurduqları "boşa çıxıb pozular". (Fatir surəsi, 10)**

Quranın daha bir çox ayəsində Rəbbimiz saleh əməl işləməyin əhəmiyyətini bildirmiş və saleh əməlin Öz Qatında gözəl bir qarşılıq tapacağını müjdə vermişdir. Bu ayələrdən bəziləri belədir:

**(Ey Məhəmməd) iman gətirib saleh əməllər edənlərə müjdə ver. Həqiqətən onlar üçün ağacları altından çaylar axan cənnətlər gözləyir. Özlərinə ruzi olaraq bu məhsullardan hər dəfə yedizdirildiyində: "Bu daha əvvəl də bizə verilən ruzidir" deyərlər. Bu, onlara, (dünyadakılara zahirən) bənzər olaraq verilmişdir. Artıq, onlar üçün pak zövcələr var və onlar orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 25)**

**Şübhəsiz ki, iman edənlər yəhudilər, xristianlar və sabiilər (dən kim) Allaha və axirət gününə iman edər və yaxşı işlər görərsə, artıq onların Allah yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

**İman gətirib yaxşı işlər görənlər və "Rəbbinə qəlbləri razı olaraq bağlananlar", məhz bunlar da cənnətin sakinləridir. Onlar orada əbədi qalacaqlar. (Hud surəsi, 23)**

Kəhf surəsinin 2-ci ayəsində Allahın diqqət çəkdiyi bir başqa əhəmiyyətli mövzu da möminlərə müjdə verməkdir. Quranın bir çox ayəsində elçilərə iman edənlərə müjdə vermələri əmr edilmişdir. Dünya həyatının bütün çətinliklərinin, sıxıntılarının, əksikliklərinin müvəqqəti olduğu, Allahın köməyinin, rəhmət və mərhəmətinin daima iman gətirənlərlə birlikdə olduğu kimi xəbərlərlə müjdələnmələri möminlər üçün çox böyük bir sevinc vəsiləsidir. Sonsuz axirət nemətlərinin yaxınlığı da heç şübhəsiz möminlərin şövqünü, səylərini və əzmlərini artıracaq. Bir ayədə Allah belə buyurur:

**Biz bunu (Quranı) sənin dilinlə asanlaşdırdıq, təqva sahiblərinə müjdə vermək və müqavimət göstərən bir qövmü xəbərdar edib-qorxutmağın üçün. (Məryəm surəsi, 97)**

Kəhf surəsinin 2-ci ayəsində diqqət çəkilən məsələlərin hamısı, Axırzamanda da bütün müsəlmanların diqqətlə üzərində dayanmaları lazım olan mövzulardır. Axırzamanda

yaşanacaq olan fitnə və təxribatçılıqdan, dinsiz ideologiyaların gətirdiyi bəlalardan insanları qoruyacaq olan, bu ayədə də diqqət çəkildiyi kimi Qurana bərk-bərk sarılmaq olacaq. Quranın rəhbərliyində saleh əməllər etmək, insanlara yaxşılığı əmr etmək və onları sonsuz cənnət nemətləri ilə müjdələmək, eyni zamanda da əbədi cəhənnəm əzabı ilə qorxudaraq Quranın hökmlərindən güzəşt verməmə istiqamətində xəbərdar etmək, Axırzamanda vicdan sahibi müsəlmanların ən əhəmiyyətli vəzifələrindəndir.

## Onlar orada əbədi olaraq qalacaqlar (Kəhf surəsi, 3)

İnsanların böyük bir hissəsi Allahın varlığını, cənnət və cəhənnəm həyatının yaxınlığını inkar edərlər. Bu kəslərə görə ölüm yox olmaqdır. Hesab günü yoxdur. Bəzi insanlar isə cəhənnəm əzabının varlığını qəbul edər, ancaq bu əzabın az bir müddət davam edəcəyinə inanarlar. Buna görə insan cəhənnəmdə qısa bir müddət qalacaq, günahlarının kəffarəsini ödəyəcək, daha sonra da buradan çıxıb, sonsuz cənnət nemətlərinə qovuşacaq. Halbuki, Quran ayələrində bu şəkildə müvəqqəti bir əzabdan bəhs edilmir. Allah Ali İmran surəsində bu şəkildə bildirir:

**Bu, onların: "Od bizə ancaq bir neçə gün toxunar" demələrinə görədir. Onların bu uydurduqları şeylər, dinləri mövzusunda özlərini aldadıb yoldan çıxartdı. (Ali İmran surəsi, 24)**

Məhz Kəhf surəsinin 3-cü ayəsində bəhs edilən ifadədə də Allah, insanların cəhənnəm mövzusundakı bu xətalarına diqqət çəkir və cəhənnəm əzabının inkar etməkdə israrlı olanlar üçün üçün əbədi olduğunu bildirir. Dünya həyatına qapılıb Allahın varlığını inkar edən, Allahın Rəsulunun yolunu izləməyən, ayələrdəki hökmləri tətbiq etməyən insanların qalacağı yer, -Rabbimizin diləməsi xaricində əbədiyyətə qədər cəhənnəmdir. Bu, Allahın ədalətidir. Quranda inkarda dirənən insanların cəhənnəmdə də azğınlıqlarını davam etdirdikləri xəbər verilir:

**Şübhəsiz ki, günahkarlar cəhənnəm əzabı içində əbədi qalacaqlar. Onlardan (əzab) yüngülləşdirilməyəcək və orada onlar ümidlərini itirmiş şəxslərdir. Biz onlara zülm etmədik; ancaq onların özləri zalımlardır. (Cəhənnəm gözətçisinə:) "Ey Malik (gözətçi), Rəbbin bizim işimizi bitirsin" deyə hayqırdılar. O: "Həqiqət budur ki, siz, (burada) qalacaq insanlarsınız" dedi. (Zuxruf surəsi, 74-77)**

Yuxarıdakı ayələrdə görüldüyü kimi, inkar edənlər cəhənnəmdə belə acizliklərini görmür, təkəbbürlülüklərini davam etdirirlər. Allaha yönəlmir, bunun yerinə "Rəbbin bizim işimizi bitirsin" deyə bir mələyə səslənirlər. Bu, onların azğın xarakterlərini davam etdirdiklərinin bir dəlilidir. Necə ki, Allah ayələrində "geri qaytarılsaq da etdiyimiz əməllərdən başqasını edək" (Əraf surəsi, 53) deyən inkarçıların yalançı olduqlarını da bildirmişdir:

**Atəşin üstündə saxlandıqları zaman sən onları bir görsən; deyərlər ki: "Kaş ki, (dünyaya bir daha) qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq." Xeyr, əvvəldən gizli tutduqları özlərinə açıqlandı. Əgər (dünyaya) geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə şübhəsiz qayıdardılar. Çünki onlar, həqiqətən kafirlərdir. (Ənam surəsi, 27-28)**

Başqa ayələrdə də dünyada insanlara kifayət qədər möhlət verildiyi, ancaq onların təkəbbürlənməkdən imtina etmədikləri bildirilir:

**Həm də əzabı gördüyü zaman deməsin: “Kaş ki, bir də dünyaya qayıdaydım, yaxşı işlər görənlərdən olaydım!” Xeyr! Ayələrim sənə gəlmişdi, sən isə onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun”. (Zumər surəsi, 58-59)**

Bütün bunlardan aydın olduğu kimi bu cür insanlar düzəlməzlər. Allah möminlərə qarşı çox mərhəmətli olduğu üçün, bu tip azğın insanları cənnətə, möminlərin arasına qoymaz. Cənnət, içindəki bütün nemətlər və bütün insanlarla gözəllik məkanıdır; Allahın məmnun olmadığı heç bir varlıq cənnətdə yoxdur. Bu da Allahın saleh qullarına olan şəfqətinin və ədalətinin nəticələrindən biridir.

Sonsuz cənnət nemətləri isə yalnız saleh möminlərə məxsusdur. Allah ayələrində belə bildirir:

**Məhz bunların qarşılığı, Rəbbindən bağışlanma və içində əbədi qalacaqları, altından çaylar axan cənnətlərdir. Yaxşı əməl sahiblərinin mükafatı nə gözəldir. (Ali İmran surəsi, 136)**

**Kim Allaha və Onun Elçisinə asi olub Onun hüdudlarını aşarsa, Allah onu içində əbədi qalacağı cəhənnəm oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır. (Nisa surəsi, 14)**

**Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün içində əbədi qalacaqları cəhənnəm odu vardır? Məhz bu ən böyük rüsvayçılıqdır. (Tövbə surəsi, 63)**

## Kitabı həm də: "Allah Özünə övlad götürmüşdür!" – deyənləri qorxutmaq üçün nazil etdi. Bu haqda nə onların, nə də atalarının heç bir biliyi yoxdur. Ağızlarından çıxan söz necə də ağırdır. Onlar yalandan başqa bir şey danışmırlar. (Kəhf surəsi, 4-5)

Kəhf surəsinin 4-cü və 5-ci ayələrində xristianların Allah haqqındakı böyük böhtanlarına diqqət çəkilir. Xristianlar ortaya atdıqları azğın təslis inancı ilə öz dinlərini pozmuş və batil bir din meydana gətirmişlər. Ayələrdə onların etdikləri bu böyük saxtakarlıq bu şəkildə ifadə edilir:

**Ey kitab əhli, dininizdə həddi aşmayın, Allaha qarşı yalnız haqqı deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi və sözüdür. Onu ("OL" sözünü) Məryəmə göndərmişdir və Ondan bir ruhdur. Elə isə Allaha və Onun elçilərinə iman gətirin; "üçdür" deməyin. (Bundan) çəkinin, sizin üçün xeyirlidir. Allah, ancaq bir tək ilahdır. O, uşaq sahibi olmaqdan münəzzəhdir. Göylərdə və yerdə hər nə varsa, Ona məxsusdur. Vəkil olaraq Allah yetər. (Nisa surəsi, 171)**

**"Allah Özünə övlad götürdü!" Dedilər. O, (bundan) ucadır; O, heç bir şeyə ehtiyacı olmayandır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Özünüzdə buna bağlı bir dəlil də yoxdur. Allaha qarşı bilmədiyiniz bir şeyi mi deyirsiniz? (Yunis surəsi, 68)**

**Məhz Məryəm oğlu İsa; haqqında şübhəyə düşdükləri "Haqq Söz"dür. Allaha övlad götürmək yaraşmaz. O ucadır. Bir işin yaranmasını istədiyi zaman, ancaq ona: "Ol!" Deyər, o da dərhal olar. (Məryəm surəsi, 34-35)**

Şübhəsiz, Kəhf surəsinin bu ayələrində və yuxarıdakı ayələrdə diqqət çəkilən bu zehniyyət tam olaraq müşrik inancıdır. Quranda bildirildiyi kimi, Allah oxşarı və bənzəri olmayan, övlad sahibi olmaqdan uzaq olan, hər şeyin tək hakimi və hökmdarı, göylərin və yerin Rəbbidir. Axırzamanda yaşayan müsəlmanlar, xristianlar öz müqəddəs kitablarını

təhrif edərək ortaya atdıqları bu azğın iddialarının etibarsızlığını insanlara izah etməklə məsuldurlar.

## Onlar bu Kitaba inanmırlar deyə, arxalarınca kədərlənib özünü həlakmı edəcəksən? (Kəhf surəsi, 6)

Bu ayədə Allahın elçisinin və iman edənlərin etdiyi təbliği dinləməyənlərə diqqət çəkilir. Saleh möminlər Allahın Quranda əmr etdiyi yaxşılığı əmr etmə və pislikdən məhrum etmə məsuliyyəti gərəyi, insanları Allaha iman etməyə dəvət edər, onlara Quran ayələrində bildirilən həqiqətləri xəbər verirlər. Ancaq insanların böyük bir hissəsi elçilərin təbliğindən üz çevirər, inkarda təkid edərlər. Bu, Allahın, "Şübhəsiz ki, qiyamət saatı, yaxınlaşaraq gəlir; bunda heç bir şübhə yoxdur. Ancaq insanların çoxu iman gətirmirlər." (Mömin surəsi, 59) ayəsiylə bildirdiyi bir həqiqətdir.

İman edənlərin təbliği qarşısında inkar edənlər çox müxtəlif mənfi rəftarlar göstərirlər. Bəziləri İsra surəsinin 90-cı ayəsində xəbər verilən, "Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik" bənzəri ifadələrlə Allahın elçisinin bir möcüzə gətirməsini gözləyər, bəziləri isə iman edənlərlə lağ edərlər. İnkarçıların məsxərələrinə Bəqərə surəsində belə bir nümunə verilir:

**Və (yenə) özlərinə: "İnsanların iman etdiyi kimi siz də iman gətirin!" -deyildiyində: "Biz də ağılsızların iman gətirdikləri kimi iman gətirək?" deyərlər. Bilin ki, həqiqətən ağılsızlar onların özləridir, amma bilməzlər. (Bəqərə surəsi, 13)**

Hər peyğəmbər göndərildiyi qövmdən bu ayələrdəkinə bənzər rəftarlar görmüş, çox vaxt təzyiq ilə qarşılaşmışdır. Məsələn, hz. Nuhun hər yolu sınayaraq etdiyi ixlaslı təbliğinə qarşılıq, qövmünün mənfi reaksiyaları Quranda bu şəkildə izah edilir:

**O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır. (Nuh surəsi, 5-10)**

Ayələrdə də bildirildiyi kimi, insanlar hər dövrdə özlərinə haqq dinin təbliğ edilməsinə ümumiyyətlə mənfi cavab vermişlər. Ancaq burada unudulmamalı olan çox əhəmiyyətli bir nöqtə vardır: Təbliğ edilən insanın verdiyi cavab, təbliğ edən müsəlmana heç bir zaman

mənfi istiqamətdə təsir etməz. Çünki hidayəti verəcək olan Allahdır. İnsan nə qədər gözəl izah edərsə etsin, nə qədər təsirli və hikmətli danışarsa danışsın, Allah istəməsə, qarşısındakı insanın ürəyində təsir meydana gətirə bilməz. Quranda bu həqiqəti bildirən başqa ayələr də vardır. Məsələn, Allah Nəhl surəsində belə hökm edir:

**And olsun ki, Biz hər ümmətə: "Allaha ibadət edin və tağuttan çəkinin" (deyə təbliğ etməsi üçün) bir elçi göndərdik. Beləliklə, onlardan kimisinə Allah hidayət verdi, onlardan kimisinin üzərinə azğınlıq haqq oldu. Artıq, yer üzündə dolaşıb haqqı təkzib edənlərin aqibətini görün. Sən onların doğru yolu tapmalarını nə qədər ehtirasla istəsən də, Allah, şübhəsiz ki, yoldan çıxartdıqlarını doğru yola yönəltməz, onlar üçün kömək edəcək kimsə yoxdur. (Nəhl surəsi, 36-37)**

Allahın bu ayələrində bildirdiyi kimi, insanın digər insanlar üzərində hidayət verici bir təsirinin olması mümkün deyil. O halda iman edənlərin tək məsuliyyətləri təbliğ etmək və hidayət verməyi Allahın təqdirinə buraxmaqdır. Təvəkküllü davranmaq, səbir göstərmək, gözəl sözlə Allahın dininə dəvət etmək heç şübhəsiz insanların ürəklərində çox böyük bir təsir yaradacaq. Ayələrdə Allah belə buyurur:

**Artıq sən, öyüd-nəsihət verib xatırlat. Sən, yalnız öyüdverici-xəbərdar edənsən. Onlara güc və təzyiq göstərən deyilsən. Ancaq kim üz çevirər və inkar etməkdə davam edərsə, Allah onu ən böyük əzaba ilə azablandırır. Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları hesaba çəkmək də əlbəttə Bizə aiddir. (Ğaşiyə surəsi, 21-26)**

Hidayəti verəcək olan, təbliğ edilən insanın iman etməsini təmin edəcək olan Allahdır. Başqa ayələrdə də hidayəti verənin yalnız Allah olduğu bu şəkildə bildirilir:

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. Elə isə, onlar mömin olana qədər insanları sən mi məcbur edəcəksən? Allahın izni olmadan heç kəsin iman etmə (imkanı) yoxdur ... (Yunis surəsi, 99-100)**

**Həqiqət budur ki, sən istədiyini doğru yola yönəldə bilməzsən, ancaq Allah, dilədiyini hidayətə çatdırar; O, hidayətə çatacaq olanları daha yaxşı biləndir. (Qəsas surəsi, 56)**

Yusif surəsində də yenə eyni mövzuya diqqət çəkilmişdir. Bir müsəlman, nə qədər yaxşı niyyətlə təbliğ etsə də, Allahın hidayət vermədiyi insanların iman etməsi mümkün deyil. Müsəlmana düşən öyüd vermək və xatırlatmaqdır; bir mömin bu məsuliyyətini yerinə yetirərkən, qarşısındakı insanın hidayətinin Allahın təqdirində olduğunu bilir. Ancaq bunu da unutmamaq lazımdır ki, iman edən bir insanın göstərdiyi səy Allahın izni ilə ona bir əcr olaraq yazılacaq, onun haqqı söyləməsinə qarşı müqavimət göstərənlər isə etdiklərinin qarşılığında əzaba uğrayacaqlar. Allah Yusif surəsində bu həqiqətə belə diqqət çəkər:

**Sən şiddətlə arzu etsən belə, insanların əksəriyyəti iman gətirən deyildir. Halbuki sən buna qarşı onlardan bir mükafat istəmirsən. O, aləmlər üçün yalnız "öyüd-nəsihətdir." Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, üzərindən keçərlər, ona arxalarını çevirib gedərlər. Onların çoxu Allaha iman etməzlər ancaq şirk qoşarlar. Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları əhatə etməyəcəyinə və ya özləri də hiss etmədən o Saatın onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi? De ki: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, insanları Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm." (Yusif surəsi, 103-108)**

## Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək. (Kəhf surəsi, 7)

İnsanların böyük bir hissəsi dünya həyatının sınaq olaraq yaradıldığı həqiqətini bilməz, ya da bildiyi halda bu böyük həqiqəti görməzlikdən gələr. Bu səbəblə də, dünya həyatına şiddətlə bağlanar, ölümü və axirətin varlığını ağlına belə gətirmək istəməz. Halbuki Allah, "And olsun ki, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver." (Bəqərə surəsi, 155) ayəsiylə insanların dünya həyatında bir sınaqdan keçirildiklərini bildirmişdir. Mülk surəsində də dünya həyatının və ölümün yaradılış məqsədi bu şəkildə bildirilir:

**O, əməl (davranış və hərəkət) baxımından hansınızın daha yaxşı (və gözəl) olacağını sınamaq üçün ölümü və həyatı yaratdı. O, üstün və güclü olandır, çox bağışlayandır. (Mülk surəsi, 2)**

Unudulmamalıdır ki, insanın "iman edirəm" deməsi Allahın razılığını, rəhmətini və cənnətini qazanması üçün kafi deyil. İnsanın imanının sağlamlığını və Allahın ayələrinə olan diqqətliliyini bütün həyatı boyunca, hər vəziyyətdə göstərməsi şərtdir. Bir çətinlik, xəstəlik, sıxıntı, ya da aclıq vaxtında olduğu kimi zənginlik, güc, iqtidar sahibi olduğunda da hər zaman Allaha yönəlməli və Allahın hökmlərini diqqətlə tətbiq etməlidir. Allah Ənkəbut surəsində bu şəkildə bildirir:

**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. (Ənkəbut surəsi, 2-3)**

Ancaq insanların böyük bir hissəsi dünya həyatının bəzəklərini axirət həyatından üstün tutarlar. Son model sport avtomobil, lüks bir villa, ləl-cəvahiratlar, ya da dəbdəbəli paltarlara sahib olmanın bu dünya həyatının tək məqsədi olduğu yanılmasına düşərlər. Daha zəngin, daha gözəl, daha məşhur ola bilmək üçün yarışar, həyatlarını bu dəyərlərin arxasında qaçaraq keçirərlər. Halbuki, bunlar məqsədinə uyğun istifadə edilmədiyi təqdirdə insana heç bir qazanc gətirməyəcək. Bu həqiqət Ali İmran surəsində bu şəkildə bildirilir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır". Allah qullarını görür. (Ali İmran surəsi, 14-1 5)**

Ayələrdə də bildirildiyi kimi, dünya həyatı keçicidir və dünya həyatının bəzəkləri də aldadıcıdır. Tarix boyunca olduğu kimi Axırzamanda da dünya üzərində var olan bütün saraylar, qalalar, nəhəng fabriklər, körpülər, seyflərlə dolu qızıl və ləl-cəvahiratlar, banklarda yığılan pullar, səhmlər, avtomobillər, sürət mühərrikləri, təyyarələr qısacası hər şey insanların sınanması üçün yaradılmışdır. Bunlara sahib olmaq bir üstünlük olmadığı kimi, bunlara sahib olmamaq da bir itki deyil.

Əsil əhəmiyyətli olan insanın Allaha imanı, səmimiyyəti, gözəl əxlaqıdır. Hər insan mütləq ölümlə qarşılaşacaq və sonsuz axirət həyatının bir həqiqət olduğunu mütləq anlayacaq. O halda dünya həyatının bəzəklərinə aldanmaq çox böyük səhv, çox pis alış-veriş olar.

Doğru olan inananların davranışlarıdır ki, onlar sonsuz axirət həyatı qarşılığında canlarını və mallarını satmışlar. Və bu alış-verişdən ötrü çox böyük bir sevinc içindədirlər. Allah möminləri bir ayəsində belə müjdələyir:

**Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi, 111)**

## Biz yer üzündə olan hər şeyi lazım gələrsə, məhv edib qupquru bir torpağa döndərərik. (Kəhf surəsi, 8)

Əvvəlki hissədə açıqladığımız kimi yer üzündəki bütün gözəllik və zənginliklər insanları sınamaq üçün Allahın yaratdığı metalardır. Bu ayədə isə Rəbbimiz, insanlara sahib olduqları metalar nə qədər qiymətli, nə qədər ehtişamlı, nə qədər gözəl olursa olsun, bunların hamısının şübhəsiz quru bir torpağa çevriləcəyini xatırladır.

Allah diləsə, dünya həyatının bəzəklərinə qapılıb Allahın varlığını unudan insanların əllərindəki bütün varlıqlarını bir anda alıb, onları yoxluq içində buraxa bilər. Allah hər şeyə qadirdir. Dilədiyini zəngin edər, istədiyini müflisləşdirər. Bütün mülkün sahibidir və mülkü istədiyinə verər. Bu həqiqət Quranın bir çox ayəsində bildirilmişdir. Bu ayələrdən bir neçəsi belədir:

**Göylərin və yerin açarları Ona məxsusdur. O, istədiyinin ruzisini bol edər, istədiyini də azaldar. Çünki O, hər şeyi biləndir. (Şura surəsi, 12)**

**Məgər onlar görmürlər ki, Allah istədiyinin ruzisini bol edər və azaldar da. Həqiqətən, bunda iman gətirən bir qövm üçün ibrətlər vardır. (Rum surəsi, 37)**

**Allah, qullarından istədiyinin ruzisini artırar, (və) azaldar da. Şübhəsiz ki, Allah hər şeyi biləndir. (Ənkəbut surəsi, 62)**

**Yoxsa sən mağara və Rəqim əhlinin möcüzələrimizdən ən qəribəsi olduğunumu güman edirsən? Bir zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!" – demişdilər. (Kəhf surəsi, 9-10)**

Bu ayələrdə Kəhf və Rəqim əhlinin fövqəladə vəziyyətlərinə diqqət çəkir. Hekayənin davamında da görüləcəyi kimi, Kəhf Əhlinin yaşadıqları qeyri-adi, metafizik hadisələrdir. Həyatlarının hər anı möcüzəvi inkişaflarla doludur. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Axırzamanla əlaqəsinə diqqət çəkilən Kəhf Əhlinin Quranda izah edilən bu vəziyyəti, Axırzamanda da insanların qeyri-adi, metafizik hadisələrlə qarşılaşacağına bir işarədir.

Ayənin davamında Axırzamanda gənclərin böyük məsuliyyətlər boyunlarına götürəcəklərini işarə edilmiş ola bilər. Bu dövrdə inkarçı fəlsəfələrlə fikri mübarizə aparılmasında, haqq dinin izahında, insanlara istiqamətli zülmün qaldırılmasında gənclər əhəmiyyətli vəzifələr boyunlarına götürəcəklər. Quranda dinin izahı mövzusunda gənclərin daşıdığı əhəmiyyətə başqa ayələrdə də diqqət çəkilir. Məsələn, Kəhf surəsində hz. Musanın "gənc bir köməkçisi" olduğu xəbər verilir. Bir ayədə isə hz. Musaya öz qövmündən yalnız gənc bir birliyin iman etdiyini Allah belə bildirir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil (gənclər) iman gətirdi... (Yunis surəsi, 83)**

Kəhf surəsinin 10-cu ayəsində gənclərin bir yerə "sığındıqları" bildirilir. Hekayənin sonrakı ayələrindən aydın olduğuna görə, Kəhf Əhlinin mağaraya sığınmalarının səbəbi dövrün təzyiqçi sisteminin meydana gətirdiyi mühitdir. Öz fikirlərini rahat şəkildə söyləyə bilməyən, doğruları izah edə bilməyən, Allahın dinini lazım olduğu kimi təbliğ etmələri əngəllənən Kəhf Əhli, həll yolunu bu cəmiyyətdən uzaqlaşmaqda tapmışdır.

Bu ayədə, Axırzamanda da kommunist, faşist və ya başqa ideologiyadakı totalitar rəhbərliklər səbəbiylə bənzər bir mühit meydana gələcəyinə, bu rəhbərliklərin fikir və düşüncə azadlığını məhdudlaşdıracağına və dini yaşamaq istəyənlərin üzərində təzyiq meydana gətirəcəyinə işarə edilmiş ola bilər. Öz dövrlərindəki bənzər təzyiq səbəbiylə Kəhf Əhli mağaraya sığınmış və inkarçı qövmlərdən ayrılmışlar. Axırzamanda da insanlığa bəlalar gətirən kommunist və faşist sistemlərin təzyiqindən xilas olmaq üçün səmimi müsəlmanların gözlərdən uzaq olmaları, qeybət yəni, gizlilik içində olmaları ehtimaldır. Bu təzyiqdən uzaqlaşan müsəlmanlar, insanlar arasında çox görünməyəcəklər, özlərini cəmiyyətdən uzaqda tutacaqlar.

Ancaq bu vəziyyət, uzaqlaşıb gözləmə mənasında deyil. Kəhf Əhli mağaraya sığınmış, etdikləri işləri Allahın asanlaşdırması, özlərinə rəhmətindən yayması üçün dua etmişlər. Qısacası, Kəhf Əhlinin mağaraya sığınmasının səbəbi yalnız gözləmək deyil, özlərini bu müddət içində təkmilləşdirmək olmuşdur. Axırzamanda da totalitar rejimlərin olduğu yerlərdə təzyiq altında olan müsəlmanlar özlərini gizlədəcəklər. Bu vəsiləylə Allahın öz üzərlərindəki rəhmətini artırmasını, işlərini və dinə düşmən fikir axınlarına qarşı apardıqları mübarizəni daha da asanlaşdırmasını ümid edəcəklər.

Kəhf Əhlinin duasını Allahın bildirdiyi 10-cu ayədə çox əhəmiyyətli bir mövzuya daha diqqət çəkilir. İman edənlər hər işi edənin yalnız Allah olduğunu heç zaman unutmamalıdırlar. İnsan hər zaman ehtiyac içindədir, Allah qarşısında aciz və möhtacdır. Öz ağlı, öz səyi və gücü ilə bir şey etməsi mümkün deyil. Allah diləmədiyi zaman insanın nəinki bir işi nəticələndirməsi, əlini qaldırması, gəzməsi, hətta nəfəs alması belə mümkün olmaz. İnsanın hər an Allahın köməyinə, dəstəyinə və rəhmətinə ehtiyacı vardır. Quranda da insanın bu acizliyini və hər işi edənin Allah olduğuna dair bir çox ayə var. Allah Ənfal surəsində bu şəkildə buyurur:

**Onları siz öldürmədiniz, Allah öldürdü; atdığın zaman sən atmadın, Allah atdı. Möminləri yaxşı bir imtahandan keçirmək üçün (etdi.) Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi, 17)**

Hər şeyi yaradan, bütün işləri idarə edən Allahdır. İnsan isə səmimiyyəti və təslimiyyətiylə sınanır. Kəhf Əhli də bu həqiqəti bilən səmimi müsəlmanlar olduqları üçün mağaraya sığındıqları anda dərhal Allaha yönəlmiş, dualarla Allaha təslimiyyətlərini ifadə etmişlər. Kəhf Əhli, elmdə dərinləşməni təmin edəcək olanın da, hər istiqamətdən işlərini asanlaşdıracaq olanın də Allah olduğunu bilir, bu səbəblə, əvvəlcə Allahdan kömək istəyirlər. Bu vəziyyətdən da aydın olur ki, əsas olan insanın səmimi müsəlman olması və Rəbbimizə dua edib hər şeyi Ondan istəməsidir.

## Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). (Kəhf surəsi, 11)

Əvvəlki ayələrdə də ifadə edildiyi kimi, Kəhf Əhli özlərini inkarçı sistemin təzyiqlərindən qorumaq üçün mağaraya sığınmışlar. Eyni şəkildə Axırzamanda da möminlər dünya üzərində çox böyük bir zülm sistemi quran faşizm və kommunizm kimi din və müqəddəsat düşməni, vətənlərini, millətlərini və dövlətlərini fəlakətə sürükləyən

ideologiyaların təzyiqlərindən özlərini qorumaq üçün gizlənməyi seçəcəklər. Eynilə Kəhf Əhlinin yaşadığı dövrdə olduğu kimi bu tip rəhbərliklər altında olan müsəlmanların fikir azadlığı olmayacaq, düşüncələrini söyləyə bilməyəcəklər, çox böyük bir təzyiq altında olacaqlar.

Ancaq bu gizlənmə dövrü müsəlmanlar üçün çətin, narahat edici bir gözləmə deyil, tam əksinə hüzurlu və rahat bir gözləmədir. Ayədə keçən "... illərlə qulaqlarına vurduq" ifadəsiylə möminlərin gizləndikləri dövrdə, eynilə yuxudaymış kimi hüzur içində olacaqlarına işarə edilmişdir.

Bu dövr möminlər üçün təhsil, özünü inkişaf etdirmə, elmdə dərinləşmə və imanda güclənmə dövrüdür. İnkar edənlərin, əxlaqi dəyərlərə düşmən olanların, vətənə, millətə zərərli, təcavüzkar dairələrin cəmiyyət içində meydana gətirdikləri şiddət hadisələrindən, təzyiqdən, zülmdən, zorakılıqdan inananlar təsirlənməyəcək, eyni bir mağaradaymış kimi bütün çətinliklərdən uzaq olacaqlar. Bu vəziyyət, Allahdan bir rəhmət olaraq onları qoruyacaq.

## Sonra iki dəstədən hansının onların mağarada qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. (Kəhf surəsi, 12)

Əshabi-Kəhfin gizliliyi, ayədən də aydın olduğu kimi, müəyyən bir müddətə qədər davam etmişdir. Daha sonra Allahın təqdir etdiyi zamanda, Onun diləməsi ilə bu gənclər oyanmışlar. Axırzamanda faşizmi və ya kommunizmi mənimsəmiş rəhbərliklərin təzyiqi altında olan iman əhlinin gizlənmə dövrü də Allahın qədərdə təyin etdiyi bir vaxta qədər davam edəcək. Bu müddətin sonunda isə bütün gizlilik ortadan qalxacaq və iman edənlər insanların arasına qarışıb, Allahın varlığını, iman həqiqətlərini, Quran əxlaqını onlara izah etmək üçün işlərinə başlayacaqlar.

Bu gizlənmə müddətinin nə qədər olacağı isə Allah qatında bir hesab üzrədir. Ayədə bu müddətin il, gün, saat olaraq Allah qatında müəyyən olduğuna işarə edilir. Bütün kainatı yoxdan var edən Rəbbimiz hər şeyin hesabını biləndir. Cin surəsində Allahın Muhsin (sonsuz da olsa hər şeyin sayını bilən) sifəti bu şəkildə xəbər verilir:

**Hər kəs onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. Allah onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır". (Cin surəsi, 28)**

**Biz onların əhvalatını sənə olmuş bir həqiqət kimi söyləyirik. Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq. (Kəhf surəsi, 13)**

Bu ayədə güclü bir imanın və həqiqi hidayət əhli olmanın əhəmiyyətinə diqqət çəkilir. Çünki insan Allaha qarşı güclü bir imana sahib deyilsə, Quran ayələrinə diqqətlə əməl etmirsə və Allahın Rəsulunun yolu ilə getmirsə bu insanın nə qədər böyük işlər etdiyinin Allah qatında bir əhəmiyyəti olmaya bilər. Dünyada maddi mənada müvəffəqiyyətli olsa, karyerası, ya da şöhrəti artsa belə, bu müvəffəqiyyət ona axirətdə heç bir fayda təmin etməyəcək. Çünki əhəmiyyətli olan insanın imanı və təqvasıdır. Allah Bəqərə surəsində hidayət əhli müsəlmanları bu şəkildə təsvir edir:

**Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. Onlar ki, qeybə iman gətirir, namaz qılır və onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər. Və onlar, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir və axirətə də yəqinliklə inanırlar. Məhz bunlar, Rəbbindən olan bir hidayət üzrədirlər və nicat tapanlardır. (Bəqərə surəsi, 2-5)**

Rəbbimiz bir başqa ayəsində isə, hidayətə uyan qullarının qorxu və kədər yaşamayacaqlarını belə müjdələyir:

**Dedik ki: "Hamınız oradan yerə enin. Bundan sonra sizə doğru yol göstəricisi gəldikdə Mənim hidayətimlə xəbərdar etsə, onlara qorxu yoxdur və onlar kədərlənməyəcəklər." (Bəqərə surəsi, 38)**

Bu ayələrdən də aydın olduğu kimi, əgər iman sahibi bir müsəlman bir işə başlayarsa, Allah onu asanlıq içində müvəffəqiyyətə çatdırar. Əgər bu insan bir çətinlik içindədirsə, Allah onu düşdüyü çətinlikdən də qurtarar. Bir ayədə Allah belə bildirir:

**Allah, iman edənlərin vəlisi (dostu və dəstəkçisi) dir. Onları zülmətlərdən nura çıxarar; Kafirlərin dostları isə tağutlardır. Onları nurdan zülmətə salarlar. Məhz onlar, Od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)**

**Onlar kafir hökmdarın qarşısında durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir küfr danışmış olarıq!" – deyərkən onların qəlbinə qüvvət verdik. (Kəhf surəsi, 14)**

Bu ayədə səbrin, qətiyyətin və iradə sahibi olmanın iman edənlər üçün əhəmiyyətinə diqqət çəkilir. Bunlar, ancaq təvəkkül sahibi bir insanın sahib olacağı xüsusiyyətlərdir. Ayədə bəhs edilən "qüvvət vermək" ifadəsi isə hər şeyi qədərdə Allahın etdiyinə bir işarədir. İman edənlərə çətinliklər və sıxıntılar qarşısında səbir gücünü də, qətiyyəti də verən Allahdır.

İnsanın Allahın yazdığı qədər xaricində bir iş görməsi, bir söz söyləməsi mümkün deyil. Bu səbəbdən qədərdə hər şeyi Allahın etdiyini, özünün də heç bir şey etməyə gücünün çatmadığını bilən bir insan təbii olaraq səbirli olar. Allahın hər şeyi saleh qulları üçün ən xeyirli və ən gözəl şəkildə yaratdığını bilmənin verdiyi rahatlığı və dincliyi yaşayar. Allah bu gözəl əxlaqı göstərib səbir edən qullarını, gözəl bir əcr və qurtuluşla müjdələyir. Bu mövzuyla əlaqədar ayələr belədir:

**Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 96-97)**

**Allaha və Rəsuluna itaət edin və bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşərsiniz. Səbir edin. Şübhəsiz ki, Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

**... Əgər içinizdə iyirmi səbirli (insan) olsa, iki yüz (insanı) məğlub edə bilərlər. Və əgər aranızda yüz (səbirli insan) olsa, kafirlərdən minini məğlub edərlər. Çünki onlar (haqqı) anlamayan bir tayfadır. (Ənfal surəsi, 65)**

Qətiyyət və iradə də imanla, hidayətlə və təvəkküllə birlikdə gələn mömin xüsusiyyətləridir. Çünki Allaha təvəkkül etmiş və qədərə iman etmiş bir insan, heç bir çətinlik və sıxıntı qarşısında acizlik göstərməz, mübarizə əzmini itirməz. Hər şeyi edənin

Allah olduğunu bildiyi üçün şövq və həyəcan içində qarşısına çıxan hər əcr fürsətini dəyərləndirər və xeyir işlərdə yarışarlar.

Ayədə həmçinin Kəhf Əhlinin gizləndikləri dövr sona çatdığında, kralın qarşısına çıxdıqları ifadə edilir. Bu dövr, Allahdan başqa güclərin ilah halına gətirildiyi, inkarın insanlar arasında yayıldığı və din əxlaqından uzaqlaşıldığı bir dövrdür. Müsəlmanların inancları təzyiq altına alınmışdır. Buna baxmayaraq, Kəhf Əhli krala heç bir şərtdə "Allaha Bir olaraq iman etməkdən" imtina etməyəcəklərini, Allahdan başqa heç bir şeyə sitayiş etməyəcəklərini söyləmişlər. Əgər üsulu ilə də olsa tərsini söyləyəcək olsalar, bununla Allaha qarşı cinayət işləmiş olacaqlarını səmimi fikirləri olaraq ifadə etmişlər.

Dövrün təzyiqçi, zalım və avtoritar kralı qarşısında göstərdikləri bu cəsur və qərarlı mövqe, onların səmimi müsəlmanlar olduqlarının da bir dəlilidir. Hər şeyi qədərdə ən gözəl şəkildə Allah yaradar və Allah diləmədikcə heç bir güc onlara bir zərər verə bilməz. Bu həqiqəti bildikləri üçün çox gözəl bir təvəkkül və qətiyyət nümunəsi göstərmişlər.

Axırzaman da, insanların Uca Allahdan başqa tanrılar qəbul etdikləri, inkarı yaydıqları bir dövrdür. Bu ayədən aydın olduğu kimi, Axırzamandakı səmimi müsəlmanların da, dövrün təzyiqçi və totalitar rejimləri qarşısında imanlarını eyni qətiyyət və cəsarətlə qorumaları lazımdır.

**Cavanlardan biri o birilərinə dedi: "Bizim bu xalqımız Allahdan başqa məbudlar qəbul etdi. Bəs nə üçün onlar buna aid (bütlərə dair) bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?! (Kəhf surəsi, 15)**

Bu ayədə, Kəhf Əhlinin öz millətlərinə qarşı etdikləri təbliğ fəaliyyətindən bəhs edilir. Onlar öz dövrlərindəki müşrik topluluqlara Allahın dinini təbliğ etmiş, onlardan Allaha şirk qoşmaqdan imtina etmələrini istəmişlər. Həmçinin müşrik topluluqlarını küfrünü əsaslandıracaqları bir dəlil göstərməyə dəvət etmişlər, onlar bir dəlil gətirə bilmədiklərində də müşriklərin yalançılıqlarını və iftiralarını açıqlamışlar.

Eynilə Kəhf Əhlinin yaşadığı dövrdə olduğu kimi əsrimizdə də müsəlmanlar Allahdan başqasını özünə tanrı edənlərdən dəlillər istəyirlər. Axırzamanda maddəni və təsadüfləri ilah olaraq tanıdan bütpərəst bir inanc mövcuddur; bu inanc darvinizmdir.

Darvinizm, bütün kainatın özbaşına və təsadüflər nəticəsində meydana gəldiyini iddia edən, təbiətdə yalnız güclü olanın həyatda qalacağı şəkildə qarşıdurmaya və şiddətə əsaslanan bir sistem olduğunu müdafiə edən din əleyhdarı bir iddiadır. Həqiqətdə Allahın

sonsuz güc və qüdrəti ilə yoxdan var etdiyi cansız və canlı varlıqları, özbaşına təsadüflərin meydana gətirdiyini iddia edən darvinistlər bu iddiaları ilə Allaha qarşı çox böyük bir böhtan atırlar.

Üstəlik, bu böhtanlarını möhkəmləndirmək üçün yalanlara və saxta dəlillərə əl atırlar. Darvinizmin tarixi, Piltdoun adamı, Nebraska adamı, rekapitulyasiya nəzəriyyəsi, saxta dino-quş "Arkeoraptor" kimi hər cür saxtakarlıqlarla doludur. Saxta dəlillər çıxaran, xəyali rəsmlər və ssenarilərlə insanlara keçmişdə təkamül prosesi baş vermiş kimi göstərməyə çalışan, elmi məlumatları heç tərəddüd etmədən təhrif edən, müxtəlif təlqin metodları istifadə edən darvinizm, çox böyük bir hiyləgərlik və göz boyamadan ibarətdir. (Ətraflı məlumat üçün baxın. Darvinizmin Qaranlıq cadusu, Harun Yəhya)

Məhz Axırzamanda müsəlmanların qarşısındakı ən böyük din düşməni fikir sistemlərindən biri darvinizmdir. Müsəlmanlar da, eynilə Kəhf Əhli kimi, Allahın varlığını rədd edib, təsadüfləri ilah edən darvinist iddialarını sübut edəcək dəlillər istəyirlər. Ancaq darvinistlər bunun qarşılığında yenə yalana və müxtəlif saxtakarlıqlara müraciət edir, demaqoq üsullar istifadə edərək qəti bir dəlil ortaya qoymaqdan çəkinirlər. Çünki darvinistlərin də, bütün inkarçı birliklər kimi əllərində, iddialarını dəstəkləyəcək heç bir dəlilləri yoxdur. (Ətraflı məlumat üçün baxın. Təkamül yalanı, Harun Yahya, Vural Nəşriyyat)

Hər şeyin təsadüflərin əsəri olduğunu iddia edən darvinizm, bu istiqamətiylə Allaha qarşı açıq şəkildə böhtan atır. Allah, Kəhf surəsinin 15-ci ayəsində bəhs edilən "Elə isə Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?" şəklindəki ifadəylə darvinistlərin bu zalımlıqlarına da işarə edir.

## Madam ki, siz onları və Allahdan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 16)

Ayədə Kəhf Əhlinin inkarçıların fikir sistemindən tamamilə ayrıldıqları, uzaqlaşdıqları ifadə edilir. Bu ayrılıq, inkarçılarla iman edənlər arasında fikri bir qarşıdurma meydana gətirmişdir. Və inkar edənlər müsəlmanlar üzərində bir təzyiq meydana gətirmişlər.

Bu təzyiqin nəticəsində iman edənlər özlərini tamamilə təcrid etmə və inkarçılardan tamamilə ayrılma ehtiyacını hiss etmişlər. Mağaraya sığınmaq da bu təcrid vəziyyətini ifadə edir. Allah bu dövrdə Kəhf Əhlinin üzərindəki nemətini yaymış, onlara bir çox mövzuda asanlıq təmin etmişdir. Bu asanlıq və dəstəklərdən ən əhəmiyyətlisi isə iman edənlərin inkar edənlərin mənfi təsirlərindən uzaq qalmaları olmuşdur.

İnkar edən topluluqlar, müsəlmanların müqəddəs saydıqları dəyərlərə hücum etməyi vərdiş etmişlər. Əllərinə keçən hər fürsətdə onların müqəddəsatlarını, vətən və millətlərinə olan bağlılıqlarını və xidmət şövqlərini məsxərəyə qoyar, hətta təhqir edərlər. İman edənlərin özlərini bu kəslərdən uzaqda tutmaları bu baxımdan çox böyük bir rəhmət və çox böyük bir asanlıqdır. Çünki beləcə inkarçıların əleyhindəki ifadələrini dinləmək yerinə, dinə daha çox xidmət etmə imkanı əldə etmişlər. Özlərini təkmilləşdirməyə, elmdə dərinləşməyə, mədəni və ictimai işlər etməyə daha geniş zaman ayırır. Allahın özlərinə təmin etdiyi bu asanlıq sayəsində də millətlərinin daha gözəl bir həyata qovuşa bilmələri və insanların tək qurtuluş yolu olan Quran əxlaqına yönəlməsi üçün daha çox iş görə bilirlər.

**Orada olsaydın günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə yönəldiyini, batdığı zaman isə onlardan uzaqlaşıb sol tərəfə addadığını, onların da mağaranın içində geniş bir yerdə yerləşdiklərini görərdin. Bu, Allahın dəlillərindəndir. Allah kimi doğru yola yönəldərsə, o, doğru yoldadır. Kimi də azdırarsa, ona doğru yolu göstərən bir yaxın adam tapa bilməzsən. (Kəhf surəsi, 17)**

Bu ayədə müsəlmanların evlərinin günəş almasının əhəmiyyətinə diqqət çəkilə bilər. Bir evə, mümkün qədər, həm batarkən, həm də doğarkən günəşin gəlməsi çox əhəmiyyətlidir. Bunun sayəsində, günəş şüalarının müsbət təsirlərindən faydalanma imkanı meydana gəlir, daha sağlam bir mühit meydana gəlir. Ayədə həmçinin geniş və rahat evlərin də əhəmiyyətinə diqqət çəkmiş ola bilər. Yaşanan məkanları, imkanlar ölçüsündə geniş, işıqlı, günəş düşən və rahat bir hala gətirmək, möminlər üçün zövqlü, rahat və hüzurverici olacaq.

Bu ayədə -daha əvvəl də vurğuladığımız kimi hidayətin əhəmiyyətinə də diqqət çəkilir. Ancaq Allahın hidayət verdiyi insanın qurtuluşa çatacağı, hidayət vermədiyi insanın isə sonsuz bir əzabla qarşılıq görəcəyi açıqlanır.

Kəhf surəsinin 17-ci ayəsində təbliğ edən insanın hüzurla, səbirlə, etidallı və sakit bir şəkildə dini izah etməsinə, hidayəti verəcək olanın Allah olduğunu heç bir şəkildə unutmamalı olduğuna təkrar diqqət çəkilir. Allah bir ayəsində " **Dində məcburiyyət (təzyiq) yoxdur. Artıq doğruluq (rüşd) azğınlıqdan ayrılmışdır. Artıq kim tağutu inkar edib Allaha iman gətirsə, o, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir,**

**Bilendir."** (Bəqərə surəsi, 256) şəklində buyurur. Əgər bir insan edilən təbliğə müsbət reaksiya vermir, inkar etməkdə dirənirsə bu vəziyyətdə təbliğ edən insana düşən şey, Allaha təvəkkül etmək və heç bir şəkildə qarşısındakı insana təzyiq göstərməməkdir.

**Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb yatmışdı. Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi. (Kəhf surəsi, 18)**

Zəmanəmizdə də bir qisim müsəlmanlar bir növ rəhmani yuxu içindədirlər. Bunun sayəsində, insanları dindən uzaqlaşdırmağa çalışan materialist ideologiyaların səbəb olduğu bəlaların dəhşətindən və şiddətindən təsirlənmirlər. Bu materialist cərəyanlar üzündən meydana gələn əxlaqi degenerasiyadan, zülm və qarışıqlıqdan təsirlənmədən Quran əxlaqını yaşamağı davam edirlər.

Kəhf Əhlinin də yaşadığı xəbər verilən bu yuxu halının səbəbi isə qədərə tabe olmanın gətirdiyi təvəkkül və hüzur ola bilər. Çünki bütün kainatı bir qədər üzrə yoxdan yaradan Allah, dünyada baş verən bütün hadisələri də müsəlmanların lehinə tənzim edir. Rəbbimiz bir ayəsində, "... **Allah, kafirlərə möminlərin əleyhinə olan bir yol verməz**" (Nisa surəsi, 141) şəklində buyurmuşdur. Bu, müsəlmanlar üçün böyük bir müjdədir və hüzur vəsiləsidir. Dünya üzərində reallaşan hər hadisənin müsəlmanlar üçün müsbət və xeyirli olduğunun bir işarəsidir.

Müsəlmanların yaşadıqları bu hüzur və təhlükəsizlik duyğusunun bir başqa səbəbi də, Allahın səmimi qullarını mütləq müvəffəqiyyətə çatdıracağını vəd etmiş olmasıdır. Ayədə iman edənlər belə müjdələnir:

**Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir: Heç şübhəsiz onlardan əvvəlkiləri necə "güc və iqtidar sahibi" etdisə, onları da yer üzündə "güc və iqtidar sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərinə məskun edib möhkəmləndirəcək və onların qorxusunu sonra təhlükəsizliyə çevirəcək. Onlar, yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar. Kim bundan sonra küfr edərlərsə, şübhəsiz ki, əsl fasiqlərdir. (Nur surəsi, 55)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, Allah saleh qullarını, hər nə cür çətinliklə qarşı-qarşıya olurlarsa olsunlar, təhlükəsizliyə çıxaracağını müjdələyir. Bu da, Kəhf Əhli kimi dövrümüzdə də səmimi müsəlmanların hüzur içində işlərini davam etdirməsinə bir səbəbdir.

Həmçinin müsəlmanlar Allahın diləməsi xaricində başlarına heç bir şey gəlməyəcəyini də çox yaxşı bilir və bunun rahatlığını yaşayırlar. Allah, Özünə təslim olmuş, qədərə iman edən və tam bir təvəkkül göstərən möminlərin necə bir qətiyyətə sahib olduqlarına belə diqqət çəkmişdir:

**De ki: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim himayədarımızdır. Və möminlər yalnız Allaha təvəkkül etsinlər." (Tövbə surəsi, 51)**

Kəhf surəsinin 18-ci ayəsində diqqət çəkilən bir digər mövzu da heyvan sevgisidir. Bu ayədə Kəhf Əhlinin itlərindən söz edilərək, müsəlmanların bağçalarında təhlükəsizlik məqsədiylə gözətçi it saxlaya biləcəklərinə işarə edilmiş ola bilər. İt etibarlı bir canlıdır, dostcasına bir rəftarı vardır, sahibinə sadiqdir, təhlükəni dərhal fərq edə biləcək qədər həssasdır və refleksi çox yüksəkdir. Bu səbəbdən ayədə, müsəlmanların əvvəlcə Allaha sığınıb, daha sonra da özlərini qorumaq üçün bir tədbir olaraq gözətçi it saxlaya biləcəklərinə işarə edilir.

Möminlər, heyvanları qoruma məqsədindən başqa, onlara duyduqları sevgi və şəfqət səbəbiylə də yanlarında saxlayarlar. Quranda bu mövzuda hz. Süleyman nümunə verilir. Ayələrdə hz. Süleymanın atlara olan sevgisi bu şəkildə bildirilir:

**Bir dəfə axşam çağı ona üç ayağı üstündə durub bir ayağının dırnağını yerə vuran, çapar atlar göstərildi. Süleyman dedi: “Mən, günəş üfüqdə batanadək nemətə olan məhəbbəti Rəbbimi zikr etməkdən üstün tutdum ”. Sonunda bu atlar (qaçdılar və toz) pərdəsinin arxasında gizləndilər. Süleyman: “Onları yanıma qaytarın!” - dedi. O, atların ayaqlarını və boyunlarını oxşamağa başladı. (Sad surəsi, 31-33)**

**Beləcə onları oyatdıq ki, nə baş verdiyini bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "Burada nə qədər qaldınız?" – dedi. Bəziləri: "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq" – dedilər. Digərləri də dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir. Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. Amma ehtiyatlı olsun və sizin barənizdə heç kəsi duyuq salmasın! (Kəhf surəsi, 19)**

Ayədə ilk olaraq müsəlmanların qarşılaşdıqları hadisələrdə bir qərara gəlmədən öz aralarında müşavirə etmələrinin əhəmiyyətinə diqqət çəkilir. Diqqət çəkilən bir başqa mövzu isə dirildənin də, öldürənin də Allah olduğu, Allah diləmədiyi müddətcə heç bir insanın buna müvəffəq ola bilməyəcəyidir.

Bununla yanaşı, ayədə Kəhf Əhlinin mağarada nə qədər müddət qaldıqlarıyla əlaqədar aralarında bir söhbət keçdiyi də əks olunur, sonra isə bir nəfərin "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir" dediyi bildirilir. Burada əhəmiyyətli olan xüsus, aydın olmayan və ya nəticəsi tapılmayan hər hansı bir mövzu olduğunda, möminlərin dərhal "Allah bilir" deyib, xeyir və hikməti Allaha buraxmalarıdır. Çünki qeybi yalnız Allah bilir. O səbəblə də, insanların bilmədikləri bir mövzu üzərində mübahisələri, cavabını araşdırıb tapmağa çalışarkən bunun sıxıntısını yaşamaları təvəkküllü bir rəftar olmaz. Əhəmiyyətli olan o anda göstərilən təslimiyyət və dərhal qədərin xatırladılmasıdır.

Kəhf surəsinin 19-cu ayəsində möminlərə daha bəzi  işarələr vardır. Bunlardan birincisi möminlərin alış-verişə göndərdikləri insandan hər hansı bir yemək deyil, təmiz yemək istəmələridir. İman edənlərin təmizlik mövzusundakı həssaslığı bir çox Quran ayəsində bildirilir. Məsələn, Allah elçilərinin **"... təmiz şeyləri halal, murdar şeyləri haram ..."** (Əraf surəsi, 157) qıldığını xəbər verir. Bununla yanaşı, iman edənlərə "Libasını təmizlə" (Muddəssir surəsi, 4) şəklində buyurulur. Qurandakı təmiz ruzi və təmizliklə əlaqədar ayələrdən bəziləri bu şəkildədir:

**Elə isə Allahın sizə verdiyi halal (və) pak ruzilərdən yeyin; əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin. (Nəhl surəsi, 114)**

**Sizə verdiyimiz ruzilərin təmizindən yeyin və bunda həddi aşmayın, yoxsa sizə qəzəbim tutar. Qəzəbimə gəlmiş kimsə isə bədbəxt olar. (Taha surəsi, 81)**

Kəhf surəsinin bu ayəsində diqqət çəkilən digər bir xüsus da möminlərin yemək almaq üçün şəhəri seçmələridir. Bunun səbəbi şəhərdə çox daha geniş imkan və seçim alternativi olması ola bilər. Quranda şəhərlərin əhəmiyyəti ilə əlaqədar başqa ayələr də vardır. Məsələn, Allah, Ənam surəsində təbliğin şəhərlərdən başlamasına diqqət çəkmişdir:

**Məhz bu (Quran), özündən əvvəlkiləri təsdiq edən və şəhərlər anası (Məkkə) ilə ətrafındakıları qorxutmaq üçün nazil etdiyimiz mübarək bir Kitabdır. Axirətə iman gətirənlər buna inanırlar. Onlar namazlarını (diqqətlə) qoruyanlardır. (Ənam surəsi, 92)**

Ayədə möminlərə bir başqa xatırlatma daha var. Bu da möminlərin hər zaman nəzakətli və hörmətli olmalarıdır. Bu, Allahın Quranda bildirdiyi gözəl əxlaqın gərəyidir.

Kəhf hekayəsində həmçinin müsəlmanların Axırzamanda daha çox evlərində olacaqlarına işarə edilə bilər. Bunun səbəbi də, kommunizm, faşizm kimi din xarici ideologiyaların hakim olduğu bu böyük fitnə dövründə, çölə çıxıb hədəf halına gəlməmək, diqqət çəkməmək ola bilər. Ayədə eyni zamanda möminlərin lazım olduğu hallarda, uzun zaman evlərində qalaraq özlərini elm və bilik cəhətdən inkişaf etdirəcəklərinə diqqət çəkilə bilər. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in də Axırzaman mövzusunda ondan tövsiyə istəyənlərə, "... evlərinizin igidi olun, oradan ayrılmayın!" və "evindən çölə çıxma!" şəklində tövsiyələr olduğu bildirilir. [4]

## Çünki onlar sizi tapsalar ya sizi daşqalaq edər, ya da öz dinlərinə döndərərlər. Onda siz heç vaxt nicat tapa bilməzsiniz!” (Kəhf surəsi, 20)

Bu ayədə "daşqalaq edərlər" ifadəsiylə terrorist bir xarakter təsvir edilir. Dövrümüzdə də dinsiz ideologiyaların təsiri altında qalan insanlarda bu xarakter açıq şəkildə görülər. Məsələn, kommunist ideologiyanı mənimsəyən terroristlər, vətəni qorumaq üçün canları hesabına mübarizə aparan dövlət xadimlərinə, polislərə və jandarmalara, sadəcə dövlətə olan düşmənçilikləri səbəbiylə daş atır, hücum edirlər. Bunu etmələrindəki məqsəd isə bu kəsləri qorxutmaq, güclərini azaltmaqdır. Bu yolla kommunizm tərəfdarları, öz din düşməni ideallarını reallaşdıraraq, ölkələrini xaosa və qarışıqlığa sürükləyərək kommunist bir sistemi hakim etməyi məqsəd qoymuşlar.

Bu nəticəyə çatdıqdan sonra əsil hədəfləri isə dininə, vətəninə, millətinə bağlı insanları, özləri kimi -dinsiz, əxlaqi hər cür dəyərə qarşı, insanlar arasında daimi bir qarşıdurmanın lazım olduğunu iddia edən düşüncə sistemlərinə çevirməkdir. Yəni bütün insanları dövlətə qarşı qaldırmaq, küçələrə tökmək, qardaşı qardaşa qırdırmaqdır. Ancaq anarxist hərəkətlərin bir nəticəyə çatmayacağı və onlara tabe olanların da heç bir zaman qurtuluşa çata bilməyəcəkləri çox açıqdır. Allah bir ayəsində belə bildirmişdir:

**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. (Rad surəsi, 25)**

Buna görə Axırzamanda insanların, dünyaya bəladan başqa bir şey gətirməyən qanlı ideologiyalardan uzaq dayanmaları, din əleyhinə olan ideologiyaların təxribatlarına, vəsvəsələrinə aldanmamaları, təxribatçıların tərəfində olmamaları son dərəcə əhəmiyyətlidir.

**Beləcə, insanları onların halından xəbərdar etdik ki, Allahın vədinin həqiqət olduğunu və o Saatın gələcəyinə şübhə olmadığını bilsinlər. O zaman möminlər və kafirlər öz aralarında onların işi barəsində mübahisə edirdilər. Bəziləri: "Onların üstündə bir bina tikin. Rəbbi onların halını daha yaxşı bilir!" – dedilər. Mübahisədə üstün gələnlər isə: "Onların məzarı üstündə mütləq bir məscid tikəcəyik!" – dedilər. (Kəhf surəsi, 21)**

Bu ayə Kəhf surəsində qiyamət əlamətlərinə və Axırzamana istiqamətli çox əhəmiyyətli işarələr olduğuna açıq şəkildə diqqət çəkir.

Kəhf Əhlinin insanlar tərəfindən tapılması isə, yaxşı insanların yaxşılarla öz-özlərinə görüşəcəklərinə, bir-birlərindən uzaqda olsalar da bir gün mütləq bir yerə gələcəklərinə işarə ola bilər. Allah, **"... Elə isə xeyirlərdə yarışın. Hər harada olsanız, Allah sizi bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir!"** (Bəqərə surəsi, 148) ayəsiylə də eyni həqiqəti xəbər vermişdir.

Ayədə həmçinin, insanların, Kəhf Əhlinin olduğu yerdə bir məscid tikdirmək haqqında danışdıqlarından da bəhs edilir. Bu ayədə, yaxşı və etibarlı insanların həyatlarını keçirdikləri

yerlərə binalar və məscidlər tikmənin məqbulluğuna diqqət çəkilir. Bunun məqsədi həm sevilən insanları yada salmaq, həm də bu vəsilə ilə o məkanları bir növ təhsil və ibadət yeri halına gətirməkdir. Bunun sayəsində faydalı düşüncələrin və gözəl əxlaqın insanlar arasında yayılması təmin ediləcək. Bu kimi yerlər, iman edənlərin bir yerə gələcəkləri və birlikdə Allahın adını anacaqları məkanlar olacaq.

Quranda bir çox ayədə məscidlərdə yalnız Allahın anıldığına və məscidlərin əhəmiyyətinə diqqət çəkilir. Allah ayələrdə belə buyurur:

**Onlar ancaq "Rəbbimiz Allahdır" - dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc surəsi, 40)**

**Şübhəsiz ki, məscidlər (yalnız) Allaha aiddir. Elə isə, Allah ilə yanaşı başqa heç bir şeyə (və kimsəyə) ibadət etməyin (dua etməyin, sitayiş etməyin). (Cin surəsi, 18)**

**Bəziləri: "Onlar üçdür, dördüncüsü köpəkləridir!" – deyəcəklər. Digərləri isə "Onlar beşdir, altıncısı köpəkləridir!" – deyəcəklər. Bununla da qeyb haqqında təxmini fikir yürüdəcəklər. Bəziləri də: "Onlar yeddidir, səkkizincisi köpəkləridir!" – deyəcəklər. De: "Onların sayını Rəbbim daha yaxşı bilir. İnsanlardan bunu bilən çox azdır!" Mağara əhli barədə açıq mübahisə et (ayələrə əsaslan) və kitab əhlinin heç birindən onlar barədə bir şey soruşma! (Kəhf surəsi, 22)**

Bu ayədə Kəhf Əhlinin neçə nəfər olduqları haqqında zənlə təxminlərdə olan insanların vəziyyətindən bəhs edilir. Halbuki ayədə bu sayı yalnız qeybin tək sahibi olan Rəbbimizin bildiyi və bu məlumatı də ancaq az saydakı qullarına bildirdiyi ifadə edilir.

Ayənin davamında, bilinməyən bir mövzu üzərində mübahisənin, davamlı yeni fikirlər gətirmənin, təxminlərdə olmağın doğru olmadığı da bildirilir. Belə bir mübahisə ayədə, "bilinməyənə-qeybə daş atma" olaraq ifadə edilir. Oxşar ifadə başqa ayələrdə də var. Məsələn, Səba surəsində insanların bu xüsusiyyətləri bu şəkildə təsvir edilir:

**... " Onlar: “Biz ona inandıq!” – deyəcəklər. Amma uzaq bir yerdə (Axirətdə) imana necə nail ola bilərlər?! Halbuki bundan əvvəl onu inkar edir və əlçatmaz bir yerdən qeyb haqqında fikir yürüdürdülər. Daha öncə onların bənzərlərinə edildiyi kimi, arzuladıqları şeylərlə onların arasına sədd çəkilər. Həqiqətən, onlar anlaşılmaz bir şübhə içində idilər. (Səba surəsi, 52-54)**

Allahın bəyənmədiyi bu əxlaqdan hər müsəlman uzaq durmalı, bu kimi müzakirələrdən, bilmədiyi mövzular üzərində fikir yürütməkdən şiddətlə çəkinməlidir. Belə bir vəziyyətdə edilməli olan şey "Ən doğrusunu Allah bilir" deyib, mötəbər olmayan sözlərə qiymət verməməkdir. Müsəlmanların bu tərz vəziyyətlərdə verdikləri cavab, **"... Sən məndə olanları bilirsən, amma mən Səndən olanı bilmirəm. Həqiqətən, görünməyəni (qeybi ən yaxşı) bilən Sənsən Sən ..."** (Maidə surəsi, 116) ayəsindəki kimi olmalıdır. Çünki Quranın bir çox ayəsində qeybi yalnız Allahın bildiyi xəbər verilir. Məsələn, bir ayədə belə buyurulur:

**Qeybin açarları Onun yanındadır, Ondan başqa heç kəs qeybi bilməz. Quruda və dənizdə olanların hamısını O bilir, O istəməzsə, düşən bir yarpaq belə düşməz; Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

Ayədəki kimi mübahisələrin edildiyi hallarda insanların, üzərində fikir irəli sürdükləri mövzulardakı tək dayaqları xalqdan gələn ifadələr olur. Küçədən gələn uydurma rəvayətlərə, mövzu haqqında məlumat sahibi olmayan bir nəfərin söylədiyi bir sözə, bir başqasının etdiyi bir şərhə əsaslanan bu mübahisələrin doğru bir nəticəyə çatmayacağı isə açıqdır. İnsan "**Haqqında məlumatın olmayan şeyin ardına düşmə; Çünki qulaq, göz və qəlb, bunların hamısı sahibinin əməlləri barəsində sorğu-sual olunacaq"** (İsra surəsi, 36) ayəsiylə də bildirildiyi kimi, bilmədiyi mövzular haqqında ətrafdan duyduğu əsassız şərhlərə qapılmamalıdır.

Ayədə keçən "**onları çox az (insan) xaricində kimsə bilə bilməz**" ifadəsi ilə də Allah, dərin məlumata sahib olan çox az sayda insanın, bu sayı biləcəyinə işarə edir. Məsələn, bu insan, kitabın sonrakı hissələrində möcüzəvi xüsusiyyətlərini ətraflı olaraq araşdıracağımız hz. Xızır ola bilər. Bununla yanaşı, hz. Xızırın elmindən keçmiş və ona tabe olmuş tələbələrinin də, Allahın diləməsi və bildirməsi ilə bu məlumata sahib olması mümkündür. Necə ki, Quranda Allahın vəhy etməsi ilə elçilərin qeybdən yana bəzi məlumatlara sahib olduqları bildirilir:

**O, qeybi Biləndir. Öz qeybini (görülməz məlumat xəzinəsini) kimsəyə açıq tutmaz. Ancaq elçiləri (peyğəmbərləri) içində razı olduğu (seçdikləri kəslər) başqa. Çünki O, bunun önünə və arxasına (mələklərdən ibarət) gözətçilər qoyar. (Cin surəsi, 26-27)**

Allah Peyğəmbərimiz (s.ə.v)-ə də qeybdən bəzi məlumatlar vəhy etmiş, sonra ona bu şəkildə səslənmişdir:

**Bu, sənə (ey Məhəmməd) vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Yoxsa onlar, hiylə quraraq əlbir iş gördükləri qərar verdikləri zaman sən onların yanında deyildin. (Yusif surəsi, 102)**

Hz. Nuha isə Allah, gələcəkdə yaşayacağı bəzi hadisələri bu şəkildə bildirir:

**"Ey Nuh" deyildi. "Sənə və səninlə birlikdə olan ümmətlər üzərinə Bizdən salam və bərəkətlərlə (gəmidən) en. (Sizdən törəyəcək digər kafir) ümmətləri də yararlandıracağız, sonra onlara Bizdən acı bir əzab toxunacaqdır". Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bunları sən və qövmün bundan əvvəl bilirdi. Səbir et. Şübhəsiz ki, (gözəl) aqibət müttəqilərindir. (Hud surəsi, 48-49)**

Ayənin davamında keçən **"... açıq olan bir mübahisədən başqa mübahisə"** ifadəsi isə Qurana uyğun müzakirəyə işarə edir. Möminlər, bir mövzu üzərində mübahisə edərkən Qurana uyğun dəlil gətirməyə əhəmiyyət verməlidirlər. Dini inkar edənlər tam əksinə bir əxlaq sərgiləyərlər. Onların yeganə məqsədi mübahisə çıxarmaq, bu vəsiləylə dinə və inananlara qarşı düşməncə rəftarlarını ortaya qoymaqdır. Necə ki, Allah Quranda bəzi insanların **"yalnız bir mübahisə olsun deyə"** (Zuxruf surəsi, 58) inkarçı nümunələr verdiklərinə diqqət çəkir. Bunun səbəbinin də, "höcətləşən və düşmən" bir qövm olmaları olduğunu vurğulayır. Bu səbəblə, Quran əxlaqını yaşayan insanların bütün bunlardan çəkinməyə və Allahın razı olacağı şəkildə davranmaları lazımdır. Allah iman edənlərin inkarçılarla danışarkən necə bir üslub istifadə etmələri lazım olduğunu bu örnəklə bildiririr:

**Buna görə də sən tövhidə dəvət et və sənə əmr olunduğu kimi düz yolla get. Onların nəfslərinin istəyinə uyma və de: “Mən Allahın nazil etdiyi Kitaba iman gətirdim. Mənə sizin aranızda ədalətli olmaq əmr edilmişdir. Allah bizim də Rəbbimiz, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda mübahisə ediləcək**

**bir şey yoxdur. Allah hamımızı bir yerə toplayacaqdır. Dönüş də yalnız Onadır" (Şura surəsi, 15)**

Kəhf surəsinin 22-ci ayəsinin sonunda bəhs edilən "onlar haqqında bunlardan heç kimsədən bir şey soruşma" şəklindəki ifadə isə iman edənlərin vəhylə bildirilənlərdən başqa heç bir məlumata rəğbət etməmələri lazım olduğunu ifadə edir. Çünki qeybi bilən Allahdır. İnsanların öz məlumatlarına, zənlərinə və şərhlərinə əsaslanaraq ortaya atdıqları səhv rəvayətlərin möminlər nəzdində heç bir qiyməti yoxdur. Bu səbəbdən, qaynağı bəlli olmayan, ağızdan ağıza gəzərək gəlib çatan, qulaqdan qulağa çatdırılan, uydurma rəvayətlərə, xəbərlərə əhəmiyyət verməməyi Allah bu ayə ilə qadağan edir.

## Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! (Kəhf surəsi, 23)

Qədər həqiqətini unudan insanların bütün həyatları sabah, gələcək ay, gələcək il, ya da yaşlılıq dövrləri üçün qəti planlar qurmaqla keçər. Kimisi iş yerində karyera qurmağın, kimisi həyatını həsr etdiyi idman sahəsində alacağı mükafatların, kimisi isə sahib olacağı mal və mülkün hesabını edər. Bu ayədə isə Allah, insanın sabah nə edəcəyini belə bilməyəcəyini xatırladır.

Ayədə bildirildiyi kimi, gələcəyə istiqamətli qəti bir ifadə işlədən insan, qədərin fərqində deyil deməkdir. Halbuki, insan yalnız və yalnız Allahın qədərində yazdığı şeyləri yaşayar. Əgər ertəsi gün etməyi planladığı şey qədərində yazılıysa edər, əgər Allah bu hadisəni yaşamasını təqdir etməmişsə, o zaman yaşamaz. Ancaq ertəsi gün üçün qədərində yazılı olmayan bir şeyi planlaması da yenə o insanın qədərindədir. Kiçik-böyük hər cür hadisənin, Allahın məlumatı daxilində reallaşdığının və bir kitabda qeydli olduğunun xəbər verildiyi ayələrdən biri belədir:

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

Qədər, Allahın keçmişdə yaşanan və gələcəkdə yaşanacaq olan bütün hadisələri bilməsidir. İnsanların bir çoxu isə, Allahın hələ yaşanmamış hadisələri əvvəldən necə

bildiyini soruşarlar və qədəri qavraya bilməzlər. Halbuki yaşanmamış olan hadisələr, bizim üçün yaşanmamışdır. Allah isə zamana və məkana bağlı deyil, onsuz da bunları yaradan Özüdür. Bu səbəblə, Allah üçün keçmiş, gələcək və indi hamısı birdir və hamısı olub bitmişdir. Bizim bir xətkeşin əvvəlini, ortasını, sonunu və aralarındakı bütün rəqəmləri bir bütün olaraq tək bir anda asanlıqla görə bilməyimiz kimi, Allah bizim bağlı olduğumuz zamanı əvvəlindən sonuna qədər tək bir an olaraq bilir. İnsanlar isə yalnız zamanı gəlincə bu hadisələri yaşayıb, Allahın onlar üçün yaratdığı qədərə şahid olurlar.

Bunun əksini iddia etmək, yəni gələcəyə dair planlarının mütləq reallaşacağını qarşıya qoymaq, Allaha qarşı təkəbbür göstərmək deməkdir. Bunun sonu isə mütləq ziyandır. Ayədə bu kəslərin vəziyyətini Allah belə xəbər verir:

**İman gətirib xeyirxah işlər görənlərə gəldikdə isə, Allah onların mükafatlarını tam verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır. Allaha ibadət etməyi özlərinə ar bilənləri və təkəbbürlük göstərənlərə gəlincə, Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

## Ancaq: "Əgər Allah istəsə!" ("inşaAllah" – de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" – de. (Kəhf surəsi, 24)

Ayədə hər hansı bir şeyi unudan zaman Allahın adının anılmasının, unudulan şeyi xatırlamada -əgər xatırlanması xeyirliysə- faydalı bir yol olduğuna işarə edilir. Belə bir unutma vəziyyətində Allahın adının zikr edilməsi insan üçün şəfa qaynağıdır. Ancaq insanın unutduğu şeyi xatırlaması da Allahın diləməsi ilə mümkündür. Əgər Allah diləməzsə xatırlatmaz, əgər bir xeyir görərsə də insanın xatırlamasını təmin edər.

Ayənin davamında isə Allah, Peyğəmbərimiz (s.ə.v)-ə yaxın olan bir müvəffəqiyyət üçün dua etməsini əmr edir. Dünya həyatında meydana gələn müvəfəqqiyyətlər bəzən uzun, bəzən də qısa vaxtda ola bilər. Bəzən insan çox çalışıb, səy sərf etdiyi bir işdə qısa müddətdə müvəffəqiyyət qazanmaya bilər. Uzun müddət iradə göstərməli, səbir etməli ola bilər. Bunun bir çox hikməti, insanı tərbiyələndirən istiqamətləri vardır. Ancaq bununla bərabər iman edənlər Allahdan, qısa dövrdə müvəffəqiyyətli olmağı da tələb edə bilərlər. Əhəmiyyətli olan hz. Şüeybin sözləriylə, "Mən müvəffəqiyyətim ancaq Allah ilədir; Ona təvəkkül etdim və Ona üz tuturam" (Hud surəsi, 88) ayəsində xəbər verildiyi kimi səmimi bir qəlblə Allaha yönəlməkdir. Allaha təvəkkül edən və hər cür işi edənin yalnız Allah olduğunu

bilən insan Rəbbimizin dəstəyini hər an ümid edə bilər. Necə ki, Allah Əla surəsində Peyğəmbərimiz (s.ə.v)-ə "Və səni asan olan üçün müvəffəqiyyətli edəcəyik" (Əla surəsi, 8) şəklində səslənir və istədiyi insanı asanlıqla müvəffəqiyyətə çatdıracaq olanın yalnız Özü olduğunu xatırladır.

**Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar. De: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybi ancaq Ona məxsusdur. O, necə gözəl görür, necə də yaxşı eşidir! Onların Ondan başqa heç bir himayədarı yoxdur. O, Öz mülkünə heç kəsi şərik etməz!" (Kəhf surəsi, 25-26)**

Bu ayələrdə Əshabi-Kəhfin mağarada yuxu halında üç yüz il qaldıqları bildirilir. Oyanmalarına yaxın bir zamanda bu müddət uzadılmış və üç yüz ilin üzərinə doqquz il daha əlavə olunmuş ola bilər. Beləcə onlar mağarada üç yüz doqquz il qalmış ola bilərlər.

Kəhf surəsinin 26-cı ayəsində isə Allahın qeybə tam olaraq, hər istiqamətdən hakim olduğu bildirilir. Çünki göylərdə və yerdə olan hər cür hadisəni yaradan Allahdır. Ayələrdə Rəbbimizin bu sifəti bu şəkildə ifadə edilir:

**Göylərin və yerin qeybi Allaha məxsusdur, bütün işlər Ona qayıdacaqdır; Elə isə Ona ibadət edin və Ona təvəkkül edin. Sənin Rəbbin nə etdiklərinizdən xəbərsiz deyildir. (Hud surəsi, 123)**

**Allah ... Ondan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. (Onlar isə) Dilədiyi qədərinin xaricində, Onun elmindən heç bir şeyi qavrayıb-əhatə edə bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onların qorunması Ona çətin gəlməz. O, Ucadır, çox böyükdür. (Bəqərə surəsi, 255)**

Allah, zamanın da yaradıcısıdır. Bu səbəbdən, Özü zamandan müstəqil, münəzzəhdir. Bizim üçün milyonlarla, milyardlarla il davam edəcək hadisələr, Rəbbimizin Qatında tək bir an olaraq mövcuddur. Allah, hər şeyi, sonsuz əvvəli və sonsuz sonranı, ən mükəmməl şəkildə, hər istiqamətdən, cəhətli və cəhətsiz olaraq görür və eşidir. Səsin bildiyimiz ya da

bilmədiyimiz hər şəklini ən yaxşı şəkildə eşidir. Ənbiya surəsində də bildirildiyi kimi **"... Mənim Rəbbim göydə və yerdə deyilən-sözü bilir; O, Eşidəndir, Biləndir."** (Ənbiya surəsi, 4)

İnsan, zamana və məkana tabe olduğu üçün Allah bildirmədiyi müddətcə- qeybə dair bir məlumata sahib ola bilməz. Ancaq zamanı və məkanı yaradan Rəbbimiz keçmişi də, gələcəyi də, bu anı da əskiksiz olaraq görür və eşidir. Allah zamana, hadisələrə, tarixə, qədərə, maddəyə və canlı-cansız hər şeyə, sonsuz əvvəldə və sonsuz sonrada tam olaraq hakimdir. Allah, Bəqərə surəsində belə buyurur:

**"Şərq də, Qərb də. Hər səmtə yönəlsəniz, Allahın üzü (qibləsi) oradadır. Şübhəsiz ki, Allah hər şeyi əhatə edəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

Kainatdakı hər şeyin tək vəlisi və tək qoruyucusudur. Heç bir canlının Ondan başqa bir vəlisi, dostu, qoruyucusu yoxdur. İnsan çox acizdir. Bu səbəblə hər an, hər cür çətinliklə qarşılaşa bilər. Maddi və mənəvi çətinliklərdən xilas olmanın tək yolu yeganə dostumuz və ixtiyar sahibimiz olan Allaha sığınmaq, tək qoruyucu olaraq Onu bilməkdir. Allah ayələrdə bu şəkildə bildirir:

**... Bilmirsənmi ki, Allah, həqiqətən, hər şeyə qadirdir. (Yenə) Bilmirsənmi ki, həqiqətən göylərin və yerin mülkü Allaha məxsusdur. Sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur. (Bəqərə surəsi, 106-107)**

**Həqiqət budur ki, göylərin və yerin mülkü Allaha məxsusdur; dirildir və öldürür. Sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur. (Tövbə surəsi, 116)**

**Şübhəsiz ki, mənim vəlim Kitabı nazil edən Allahdır və O, əməlisalehlərə himayədarlıq (vəlilik) edir. (Əraf surəsi, 196)**

Kəhf surəsinin bu ayəsinin sonunda bildirildiyi kimi Rəbbimizin heç bir şəriki yoxdur. Allah hər şeyə gücü çatan, zamana, məkana, bildiyimiz və bilmədiyimiz bütün aləmlərə hakim olan tək varlıqdır. Onun bir şəriki yoxdur və olması da mümkün deyil. İxlas surəsində Rəbbimiz belə bildirir:

**De ki: O Allah birdir. Allah Saməddir (hər şey Ona möhtacdır, sonsuzdur, heç bir şeyə ehtiyacı olmayandır). O, doğmamışdır və doğulmuşdur. Və heç bir şey Onun tayı deyil. (İxlas surəsi, 1-4)**

## Rəbbinin Kitabından sənə vəhy olunanları oxu. Onun kəlmələrini heç kəs dəyişdirə bilməz. Ondan başqa heç bir sığınacaq tapa bilməzsən. (Kəhf surəsi, 27)

İnsanın gerçək dini öyrənə biləcəyi ən doğru qaynaq Qurandır. Çünki Quran hər şeyi yaradan, hər şeyin ən doğrusunu bilən Allahın sözüdür. Allah insanlara ehtiyac duyacaqları hər mövzunu Quranda açıqlayır. Bu ayəsiylə Allah, Peyğəmbərimiz (s.ə.v)-ə də Quranla vəhy edilənləri oxumasını əmr etmişdir.

Ayənin davamında isə Quranın sözlərinin qətiyyən dəyişməyəcəyi bildirilir. Quranda Allahın xəbər verdiyi kimi, daha əvvəl göndərilən müqəddəs kitablar insanlar tərəfindən təhrif edilmiş, əlavə və çıxarışlarla dəyişdirilmişdir. Ancaq bu vəziyyət Quran üçün keçərli deyil. Allahın " **Heç şübhəsiz, zikri (Quranı) Biz nazil etdik Biz; onun qoruyucuları da həqiqətən Bizik."** (Hicr surəsi, 9) ayəsiylə də bildirdiyi kimi, Quran Allahın qoruması altındadır. Quranın bu xüsusiyyətini Rəbbimiz ayələrdə bu şəkildə xəbər verir:

**Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Biləndir. (Ənam surəsi, 115)**

**Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir. (Fussilət surəsi, 42)**

Ayənin davamında bəhs edilən **"... Onun xaricində qəti olaraq bir sığınacaq (mövqe) tapa bilməzsən"** ifadəsi isə insanların düşdükləri böyük bir səhvə işarə edilir. İnsanların böyük bir hissəsi Allahın sonsuz qüdrətini təqdir edə bilməzlər. Başqa dost və vəlilər edər və bunların çətinlik anında özlərinə kömək edəcəklərinə, dəstək olacaqlarına inanırlar. Halbuki insan, Allahdan başqa sığındıqlarının da özü kimi Allahın yaratdığı aciz qullar olduqlarını unutmamalıdır. Özünə sığınan varlıqlara da Allah güc verir və hər biri Allahın təcəllilərididir. Kainatdakı hər varlıq ancaq Allahın diləməsiylə hərəkət edir:

**Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayəçilik edir. Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər" (Əraf surəsi, 194-197)**

Ayədə də bildirildiyi kimi insanların Allahı qoyub, dünya həyatında özünə dost və vəli olaraq seçdiyi kəslər Allah diləmədikcə heç bir şeyə güc yetirə bilməyən aciz varlıqlardır. Bu varlıqların insanı hər hansı bir çətinlikdən, fəlakətdən, ya da müsibətlərdən qurtarması qətiyyən mümkün deyil. Bir başqa ayədə bu həqiqət belə xəbər verilir:

**Allahı buraxıb özlərinə zərər verməyəcək və faydaları toxunmayacaq şeylərə ibadət edərlər və: "Bunlar Allah yanında bizim şəfaətçilərimizdir" deyərlər. De ki: "Siz Allaha göylərdə və yerdə bilmədiyi bir şeyi mi xəbər verirsiniz? O, sizin qoşduğunuz şəriklərdən uzaqdır və ucadır." (Yunis surəsi, 18)**

## Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)

Bu ayədə yalnız Allahın razılığını hədəfləyərək, səhər axşam daima Allaha dua etmənin əhəmiyyətinə diqqət çəkilir. Dua insan üçün çox böyük bir nemət və Allaha yaxınlaşmaq üçün bir yoldur. İnsan, günün hər anında, hər mühitdə Allaha dua edə bilər. Allah "**Sizin duanız olmasaydı Rəbbim sizə dəyər verərdimi? ...** " (Furqan surəsi, 77) ayəsiylə duanın əhəmiyyətini bildirir. Bir başqa ayədə Allah insanlara bu şəkildə səslənir:

**Qullarım Məni sənə soruşacaq olsa, şübhəsiz ki, Mən (onlara) yaxınam. Mənə dua etdiyi zaman dua edənin duasına cavab verərəm. Elə isə, onlar da Mənim çağırışıma cavab versinlər və Mənə iman etsinlər. Ola bilsin ki, irşad (doğru yolu tapmış) olarlar. (Bəqərə surəsi, 186)**

Ayənin davamında Allah insanlara dünya həyatının keçici metalarından təsirlənməməli olduğunu təkrar xatırladır. Çünki bu dünya həyatı -daha əvvəl də ifadə etdiyimiz kimi- insanlar üçün bir sınaqdır. Kəhf surəsində dünya həyatındakı evlərin, avtomobillərin, gəmilərin, villaların, qızılların, gümüşlərin, dəbdəbəli paltarların və daha minlərlə bəzəyin yaradılış məqsədini Allah bu şəkildə bildirir:

**Şübhəsiz ki, Biz yer üzündə olanları ona bir bəzək etdik; onların hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək. (Kəhf surəsi, 7)**

İnsan dünyada yalnız bir neçə 10 il qalacaq və sonra bir anda özünü hesaba çəkilərkən tapacaq. Çünki dünya həyatı çox sürətli keçir. Allah **"Şübhəsiz ki, bunlar tez keçib gedəni (fani dünyanı) sevirlər. Önlərində olan ağır bir günü buraxırlar"** (İnsan surəsi, 27) ayəsiylə insanlara bu həqiqəti xatırladır. İnsanların gözardı etdikləri axirət həyatı isə sonsuza qədər davam edəcək və insanın, ondan qaça bilməyəcəyi bir həqiqətdir. O səbəblə insanın bu müvəqqəti dünya bəzəklərinə aldanıb, sonsuz axirət həyatını unutması çox böyük bir səhvdir. Allah ayələrində bu şəkildə bildirir:

**Dünya həyatı yalnız bir oyun və əyləncədən başqa bir şey deyil. Qorxub-çəkinməkdə olanlar üçün axirət yurdu daha xeyirlidir. Yenə də dərk etmirsiniz? (Ənam surəsi, 32)**

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Ayədə həmçinin iman edənlərin bir yerdə olmalarının əhəmiyyətinə də diqqət çəkilir. Allahı xatırlamaq, Ona dua etmək, hər şeyi yalnız Onun rizası üçün etmək saleh möminlərin davranışıdır. Saleh möminlərlə bir yerdə olmanın, Allahı hər an anan insanlarla birlikdə

olmanın əhəmiyyəti açıqdır. Möminlərin vaxtlarını birlikdə keçirmələrinin hər baxımdan faydası vardır. Onlar aralarında davamlı Allahı zikr etdikləri, bir-birlərinə Quran ayələrini xatırlatdıqları üçün, birlikdəykən qəflətə düşmə, ya da ibadətlərində axsama ehtimalları minimuma enər. Birlikdə Allahı təsbih edər, insanlara yaxşılığı tövsiyə edər və onları pislikdən çəkindirər və məlumat və mədəniyyət cəhətdən bir-birlərini inkişaf etdirərlər. Hüzurlu, şən, təmiz, etibarlı və rahat bir mühit içində yaşayarlar. Bir-birlərini qoruyar və qayğısına qalarlar. Ayədə möminlərin bir-birlərinə düşkünlükləri bu şəkildə təsvir edilir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Allahı inkar edənlərlə birlikdə olmanın isə bir çox mənfi istiqaməti vardır. İnkar edənlər həmişə Allaha iman edənlərin müqəddəs dəyərlərinə qarşı hücum və böhtan içindədirlər. İçlərindəki düşmənliyi hər zaman dilə gətirər, iman edənlərlə lağ edərlər. Allah, iman edənlərin bu kimi mühitlərdə olmasını belə qadağan etmişdir:

**Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, günahkarlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır. (Nisa surəsi, 140)**

İnkar edənlərlə birlikdə olmanın bir başqa mənfi istiqaməti isə, Allaha yaxınlığı çox güclü olmayan bir insanın, Allahın zikrindən uzaq, nəfsinin arxasından qaçan bu insanlardan mənfi mənada təsirlənməsi ehtimalıdır. İmanda dərinləşmiş, saleh müsəlmanların inkarçılardan təsirlənməsi Allahın izni ilə mümkün deyil. Ancaq dini yeni tanıyan, Quran əxlaqını tam olaraq yaşamayan bir insan inkar edənlərə uya bilər, onların bəzəkli sözlərindən, aldadıcı söhbətlərindən təsirlənib, arxalarınca gedə bilər. Bu da onu, dünyada və axirətdə zərərə uğrada bilər.

**De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın". Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir! (Kəhf surəsi, 29)**

Möminlər insanlara Allahın dinini və Quran ayələrini izah edib, onları iman etməyə dəvət etdikdən sonra o kəslər üzərində bir təzyiq meydana gətirməzlər. Kitabın ilk hissələrində də izah etdiyimiz kimi hidayəti verəcək olan Allahdır. Möminlərin inkar edənlərə qarşı istifadə etdikləri üslub ayələrdə bu şəkildə bildirilir:

**"Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm. Mənim ibadət etdiyimə siz ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim mənə."** (Kafirun surəsi, 2-6)

Ancaq mömінin vəzifəsi, qarşısındakı insanı inkar etdiyi təqdirdə, öldükdən sonra qarşılaşacağı cəhənnəm əzabıyla qorxutmaq və bu böyük təhlükəni xəbər verməkdir. Bu ayədə də inkar edənlərin qarşılaşacaqları sonsuz cəhənnəm əzabı izah edilir. O gün inkar edənlərin heç bir köməkçiləri və şəfaətçiləri olmayacaq.

Allah, "**Cəhənnəm atəşinə, alçaldıcı bir şəkildə sürüdüləcəkləri gün**" (Tur surəsi, 13) ayəsi ilə cəhənnəm əhlinin necə alçaldılacaqlarını bildirmişdir. Dünya həyatında yalnız mal və mövqe sahibi olduqları üçün təkəbbürlənənlər, insanlara zülm edənlər cəhənnəmdə çox yazıq və aciz olduqlarını anlayacaqlar. Cəhənnəm əhli **"Əlləri boyunlarına bağlı olaraq ..."** (Furqan surəsi, 13) atəşin dərin yerinə atılacaq, dumanlı bir kölgə içində qalacaqlar. Atəşin uğultulu səsini davamlı eşidəcək, sümükləri sızıldadan inləmələrə məruz qalacaq. Onlar bir əzabdan başqa bir əzaba sürüklənəcəklər, bütün yalvarışlarına baxmayaraq əzab onlardan qətiyyən yüngülləşdirilməyəcəkdir. Çünki cəhənnəm əzabından, "**Qapıları kilidlənmiş bir atəş ..."** (Bələd surəsi, 20) ayəsində ifadə edildiyi kimi qətiyyən bir qaçış yoxdur.

## **İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Kəhf surəsi, 30)**

Saleh əməlin əhəmiyyətini əvvəlki hissələrdə izah etmişdik. Bu ayədə də Allah ən gözəl davranışlar etməyin əhəmiyyətinə diqqət çəkir. Ən gözəl davranış Allahın ən çox razı olacağı, Quran əxlaqına tam uyğun və ixlasla edilən saleh davranışdır. Allah bir ayəsində gözəl davranışların əhəmiyyətini belə bildirir:

**Göylərdə və yerdə olanlar Allaha məxsusdur; O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaqdır. (Nəcm surəsi, 31)**

Yuxarıdakı ayələrdə də göründüyü kimi, iman edən insanların Allahı razı edəcək gözəl davranışlarda olmaları da son dərəcə əhəmiyyətlidir. Rəbbimiz gözəl davranışlarda olanların daha gözəl bir qarşılığı uma biləcəklərini xəbər vermişdir. İnsan etdiyi gözəl davranışların qarşılığını yalnız Allahdan gözləməlidir.

Allah insanın hər etdiyini əhatə edəndir. Rəbbimizin etdiyimiz bütün gözəl davranışlardan xəbərdar olması kifayətdir. Çünki bizə bunların qarşılığını verəcək olan, qəlblərimizdə olanı bilən Allahdır. Allah, Quran əxlaqına uyğun, gözəl davranışlar edən möminlərin mükafatlarını tam verəcəyini söyləyir, onları cənnətlə belə müjdələyir:

**Xəbəriniz olsun; Allahın vəliləri, onlar üçün qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman edənlər və (Allahdan) qorxanlardır. Müjdə, dünya həyatında və axirətdə onlarındır. Allahın sözləri üçün dəyişiklik yoxdur. Bu, böyük qurtuluş və xoşbəxtlik budur. (Yunis surəsi, 62-64)**

**Məhz onlar üçün ağacları altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir! (Kəhf surəsi, 31)**

Bu ayədə gözəl davranışlar göstərib, Allahın razılığını qazanmaq üçün cəhd edən möminlərin qarşılıq olaraq alacaqları sonsuz cənnət nemətləri təsvir edilir. Allah Qurandakı bir çox ayəsi ilə iman gətirənləri cənnət ilə müjdələmişdir. Məsələn, Nəhl surəsində möminlərin, gözəl bir qarşılanma ilə dəstə-dəstə cənnətə sövq ediləcəkləri bildirilir:

**Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır. O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!" (Nəhl surəsi, 31-32)**

Bu şərəfli qarşılanmadan sonra Allahın özləri üçün hazırlamış olduğu, saysız nemətlərlə dolu cənnətdə sonsuz həyatlarına başlayacaqlar. Cənnət həyatında möminlərin layiq görüldükləri bir çox gözəllik vardır. Ancaq bu gözəlliklərin hamısından üstün Allahı razı etmiş və Onun cənnətinə qovuşmuş olmanın verdiyi mənəvi həzz olacaq. İnkar edənlər, içinə atıldıqları cəhənnəm əzabında tərifsiz peşmanlıqlar içində əzab çəkərlərkən, möminlər Allahın sevdiyi və özlərindən razı olduğu qullar olaraq həyatlarını davam etdirəcəklər. Dar və sıxılmış olan cəhənnəmin əksinə **"genişliyi göyün və yerin genişliyi qədər olan, Allaha və Onun Peyğəmbərinə iman edənlər üçün hazırlanmış"** (Hədid surəsi, 21) olan cənnətdə yerləşəcəklər. Cənnətdə hər baxdıqları yerdə böyük bir mülk və gözəllik görən möminlər, ağır işlənmiş ipəkdən yataqlar üstünə söykənib, dərilməsi asan meyvələrdən yeyərlər. Ağaclar altından çaylar axan köşklərdə yerləşib, yüksək taxtlarda oturacaq, bir-birləriylə qarşılıqlı söhbət edəcəklər. Allahın Quranda tərifini etdiyi cənnətdə nə isti, nə soyuq tam qərarında kölgəliklər olacaq.

Kəhf surəsinin 31-ci ayəsində ifadə edildiyi kimi, yüngül ipək və ağır işlənmiş ipəkdən yaşıl paltarlar ilə qızıl bilərziklər cənnət əhlinə layiq qılınan geyimlərdir. Gözəl geyimləri ilə bərabər Allah cənnət əhlinə gözəl yeməklər və içkilər də verəcəkdir. Müxtəlif meyvələr, quş əti və içənlərə ləzzət verən içkilər, neçə-neçə bağlar və üzüm bağları, bənzərsiz xurma və

nar ilə budaqları bükülmüş albalı ağacları, üst-üstə düzülmüş meyvələri sallanmış banan ağacları Quranda Allahın bildirdiyi cənnət ruziləri arasındadır.

Bütün bu gözəlliklərlə bərabər dünya həyatında səbir edilməli olan çətinliklərin heç biri cənnətdə olmayacaq. Yorğunluq, qorxu, hüzn və ağıla gələ biləcək heç bir mənfiliyin olmadığı, sonsuz gözəlliklərlə dolu bir mühit olacaq. Bir ayədə Allah cənnət gözəlliklərini belə xəbər verir:

**Müttəqilərə vəd olunan Cənnətin vəsfi (budur): orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və təmiz baldan bulaqlar vardır və orda onlar üçün hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir ... (Məhəmməd surəsi , 15)**

Allah cənnət nemətlərini və cəhənnəm əzabını Quran ayələriylə ətraflı olaraq təsvir etmişdir. İnsanların bu açıq-aşkar həqiqəti anlamazlıqdan gəlmələri özlərinə itkidən başqa bir şey gətirməyəcək. Bu səbəblə də insan, cənnətin bənzərsiz nemətlərinə qovuşmaq üçün axirətə istiqamətli ciddi bir hazırlıq etməli və səy göstərməlidir.

**Budur axirət yurdu; Biz onu yer üzündə təkəbbürlük və fitnə-fəsad törətməyənlərə (hədiyyə) edərik. (Gözəl) aqibət müttəqilərindir. (Qəsas surəsi, 83)**

**Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi. (Kəhf surəsi, 32-34)**

Ayələrdə verilən bu nümunə ilə Allah insanların, hidayət əhli bir insan ilə Allaha iman etdiyini söylədiyi halda əslində inkarçılardan olan bir insan arasında müqayisə etmələrini istəyir. Ayədə bəhs edilən bağ sahiblərindən biri digərindən daha zəngindir. Məhz maldakı

bu üstünlük, haqqında bəhs etdiyimiz insanın Allaha qarşı təkəbbürlənməsinə, eqoizmə qapılmasına səbəb olmuşdur.

Halbuki hər şeyi yoxdan var edən Rəbbimiz mülkün tək sahibidir. Allah mal və mülk verərək insanların necə davranacaqlarını sınayır. Bəzi insanlar bu mal və mülkü öz müvəffəqiyyətləri, səyləri və zəkalarıyla əldə etdiklərini zənn edərək nankorluq edərlər. Malın çoxluğuyla sevinər, bunu insanlar arasında təkəbbürlənmə və nüfuz mövzusu halına gətirirlər. Saleh möminlərin rəftarı isə Ali İmran surəsində bildirildiyi kimidir:

**De ki: "Ey mülkün sahibi Allahım, dilədiyinə mülkü verərsən və dilədiyindən mülkü çəkib-alarsan, dilədiyini əziz qılar, dilədiyini alçaldarsan; Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən." (Ali İmran surəsi, 26)**

Ayədə bildirilən bağ sahiblərindən biri, bağçaları və məhsulları özününkü olduğunu zənn edərək Allaha qarşı çox böyük bir nankorluq etmişdi. Əslində özünə aid olmayan, Allahın yalnız bir nemət və sınaq mövzusu olaraq verdiyi mallara öz ağlına görə sahib çıxmışdır. Bu sahiblənmə duyğusu ilə şiddətli bir eqoizmə qapılmışlar. Allah təkəbbürün çirkin olduğunu ayələrdə bu şəkildə xəbər verir:

**Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. Bütün bu qadağan edilmiş pis əməllər, Rəbbinin xoşuna gəlməyən şeylərdir. (İsra surəsi, 37-38)**

Allah Quranın daha bir çox ayəsində belə kəslərin alacağı qarşılığı təsvir etmişdir. Bu ayələrdən bəziləri bunlardır:

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, gömülməklə qəbirləri ziyarət etdiniz. Yox-yox! Siz aqibətinizi hökmən biləcəksiniz! Bir də yox! Siz aqibətinizi tezliklə biləcəksiniz! Xeyr! Kaş ki, yəqin biləydiniz. Siz Cəhənnəmi mütləq görəcəksiniz! Onu həqiqətən öz gözünüzlə mütləq görəcəksiniz! Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız. (Təkasur surəsi, 1-8)**

**O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 35-36)**

Ayələrdə nankorluq edən bağ sahibinin açıq şəkildə Allaha qarşı təkəbbürləndiyi bildirilir. Bu insan, sahib olduğu bağların başına sonsuza qədər bir şey gəlməyəcəyini iddia edir, bu sözləri ilə bir növ ilahlıq iddiasında olur.

Halbuki sonsuz olan yalnız Allahdır. Vaxtı və məkanı yaradan Allah, bunlardan münəzzəhdir. Allahın Xaliq ismi "Hər şeyin varlığını və varlığı boyunca görüb keçirəcəyi halları, hadisələri təyin və təsbit edən, və ona görə yaradan, yoxdan var edən" mənasındadır. İnsanın, ilk var olduğu zamandan ölümünə qədər hər anı Allah Qatında canlı olaraq mövcuddur. Allahın sonsuz hafizəsində hər şey olduğu kimi durur. İnsanların yaşadıqları hadisələri, başlarına gələn hadisələri və həyatlarındakı hər cür təfərrüatı Allah yaratmışdır və bunların heç biri yox olmaz. " **... Bu, Allahın göylərdə və yerdə nə varsa hamısını bildiyini və Allahın, həqiqətən hər şeyi Bilən olduğunu anlamanız üçündür**" (Maidə surəsi, 97) ayəsində bildirildiyi kimi, hər şey ən kiçik təfərrüata qədər Allah Qatında mühafizə edilir.

Allah zamandan münəzzəh olduğu üçün, Onun dərgahında hər şey bir anda baş vermiş və nəticəsinə çatmışdır. İnsan yaradılışına uyğun zamana bağlı olaraq yaşadığı üçün yaşadıqlarını keçmiş, indi və gələcək müddəti içində izləyər. Halbuki bizim yaddaşımızda bir xatirə olaraq var olan və "**keçmiş**" deyə təyin etdiyimiz hadisələr yalnız bizim üçün "keçmiş"dir. Planlarını qurduğumuz və "**gələcək**" deyə adlandırdığımız naməlum olanlar isə yenə yalnız bizim üçün naməlumdur. Allah üçün keçmiş, gələcək, indi hamısı birdir. Məhz bu səbəblə Allaha heç bir şey gizli qalmaz. Çünki bunların hamısını yaradan Allahdır və Allah hər şeyi tək bir anda bilir. Necə ki, Loğman surəsində də bu həqiqətə belə diqqət çəkilmişdir:

**"Ey oğlum, (Gördüyün iş) həqiqətən bir xardal dənəsi ağırlığında olsa da, (bu,) bir qayanın içində, yaxud göylərdə və ya yer (in dərinliklərində) də olsa belə, Allah onu gətirər (aşkar edər). Həqiqətən, Allah Lətifdir, (hər şeydən) xəbərdardır." (Loğman surəsi, 16)**

Bütün hadisələr Allahın "Ol" deməsiylə olmuş və bitmişdir. Bütün zamanların, aləmlərin, məkanların üstündə olan və bütün nöqsanlardan münəzzəh olan Allah üçün, yaratdığı kainatdakı bütün hadisələr tək bir an hökmündədir. Hz. Musanın, Kəhf Əhlinin, hz. Xızırın, hz. Zülqərneynin, hz. Məhəmməd (s.ə.v)-in və digər peyğəmbərlərin həyatlarından

verilən nümunələrin reallaşdığı zamanla bizim yaşadığımız zaman da Allah qatında tək bir andır. Bizim nəvələrimizin, hətta onların nəvələrinin və qiyamətə qədər yaşayacaq bütün insanların həyatları da eyni "an"ın içində davam edir. Allah qatında qiyamət qopmuş, bütün insanlar sonsuz həyatlarını keçirəcəkləri yerlərə getmişlər. Allaha iman edənlər hal-hazırda cənnətdə, inkarçılar isə hal-hazırda cəhənnəmdə əzab çəkirlər.

İnsanlar arasında yayılmış olan batil bir inanca görə, Allah kainatı və insanı yaratmış, onlara bir müddət vermişdir və onların sınanmalarını gözləyir. Kainatın ömrü bitənə qədər də gözləyəcək. (Allahı tənzih edirik) Lakin həqiqətdə Allahın gözləməsindən əsla bəhs edilə bilməz. Gözləmək insana xas bir acizlikdir. Allah isə insanların yaşadığı bütün acizliklərdən uzaq və ucadır. Allahın Quranda Özünü tanıtdığı Kuddüs sifəti, "səhvdən, qəflətdən, acizlikdən və hər cür əskiklikdən çox uzaq" mənasındadır. Bu səbəblə Allah bütün insanların keçmişlərinə, gələcəklərinə və yaşadıqları bütün hadisələrə bütün təfərrüatlarıyla hakimdir. Lakin insan, sınanma yeri olan bu dünya həyatında zamanı, keçmişdən gələcəyə doğru axan, yəni başlanğıclı və sonlu olduğunu zənn edər. Halbuki Allah Qatında əvvəl-sonra, keçmiş-gələcək deyə bir şey yoxdur. Hər şey, bütün insanlar, bütün canlılar eyni anda yaşayar, bütün zamanlar, bütün dövrlər, bütün çağlar, bütün tarixlər və hətta bütün günlər, bütün saatlar, dəqiqələr eyni anda vardır. İnsan məhdud zehin həcmi səbəbiylə bunu görə bilməsə də bu həqiqət açıqdır.

Məhz möminlərin Allahın böyüklüyünü təqdir edə bilmələrinin, Allaha təslim olmalarının və güvənlərinin əsas səbəbi budur. Möminlər, Allahın özlərini və hər şeyi necə əhatə etdiyini və Allaha nə dərəcə möhtac olduqlarının, Onun böyüklüyü yanında nə cür kiçik olduqlarının şüurundadırlar.

Möminlər Allahın ucalığını və qüdrətini təqdir edə bilən, hadisələrin ardında gizli hikmətləri, incəlikləri qavraya bilən kəslərdir. Bu səbəbdən də Allaha könüldən boyun əymişlər.

Kəhf surəsinin 36-cı ayəsində bəhs edilən **"... Buna baxmayaraq Rəbbimə qayıtmalı olsam, şübhəsiz bundan daha xeyirli bir nəticə tapacağam"** ifadəsi isə Allahdan qorxmayaraq, Allahın hökmlərini yerinə yetirməyərək cənnətə gedəcəklərini zənn edən insanları təsvir edir. Bu insanlar özlərini müstağni görür, Allaha qarşı təkəbbürlənirlər.

Dünya üzərində Allaha iman etdiyini və Quranın haqq olduğuna inandığını söyləyən, ancaq Allahdan heç qorxmayan insanların sayı olduqca çoxdur. Bu insanlar Allahın hökmlərini yerinə yetirməz, halal və haramlara riayət etməz, elçinin yolunu izləməzlər. Ancaq buna baxmayaraq öldüklərində cənnətə gedəcəklərini dair çox güclü bir inancları vardır.

İman edənlər isə "**Onlar, haqq-hesab gününü təsdiq edirlər. Rəbbinin əzabına qarşı (daimi) bir qorxu duyurlar. Şübhəsiz ki, Rəbbinin əzabından əmin olunmaz**" (Məaric surəsi, 26-28) ayələrində bildirildiyi kimi cənnət nemətlərinə görə bir ümid, cəhənnəm əzabına

qarşı bir qorxu içindədirlər. İman edənlərin bu ruh halına "**Ona qorxaraq və ümid edərək dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır**" (Əraf surəsi, 56) ayəsində də işarə edilir. Çünki Allah ayələrində heç bir insanın cəhənnəm əzabı ilə qarşılaşmaqdan əmin ola bilməyəcəyini xatırladır, inkar edənlərin isə şübhəsiz bu şiddətli əzabla qarşılıq tapacaqlarını xəbər verir:

**Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları qaplamayacağına və ya özləri də hiss etmədən o Saatın onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi? (Yusif surəsi, 107)**

**Artıq "Alçaq hiylələrə, Allahın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən onlara əzabın gəlməyəcəyinə əmindirlərmi? (Nəhl surəsi, 45)**

## Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra bir damla sudan yaradan, daha sonra səni düzgün (sağlam və güclü) bir insan edən Rəbbinə küfrmü edirsən? (Kəhf surəsi, 37)

Bu ayədə bir insanı gözəl əxlaqa dəvət edərkən, ya da xatırladarkən möminlərin necə bir yol seçdiyi təsvir edilir. Əgər bu insan Allah qarşısındakı acizliyini unutmuşsa və təkəbbürlənirsə, ediləcək ən yaxşı şey, ona acizliyini xatırlatmaqdır.

Necə ki, ayədə də digər bağın sahibi olan iman əhli insan, təkəbbürlənən insana "torpaqdan və bir damla sudan yaradıldığını" xatırladaraq onu gözəl əxlaqa dəvət edir. Bu dəvətin -Allah dilərsə- insan üzərində müsbət bir təsir meydana gətirəcəyi açıqdır. Digər bağın sahibi təkəbbürlərlənən bağ sahibinin imanının zəif olduğunu fərq etmiş, onun imanını möhkəmlətmə ehtiyacı olduğunu hiss etmişdir. İman həqiqəti izah etmək də bir insanın imanını gücləndirmədə təsirli ola biləcək ən gözəl yollardan biridir.

Öz məhsullarının daha üstün olduğunu iddia edən bağ sahibinin danışıqları bir müsəlmanın danışıqlarına bənzəmir; əksinə inkarçı bir üslubu xatırladır. Bu səbəblə də iman əhli olan bağ sahibi, sualının sonunu "inkarmı etdin?" şəklində bitirir. Bəlkə digər adam açıq şəkildə Allahı inkar etdiyini söyləmir, amma istifadə etdiyi sözlər Allaha qəti olaraq iman etmədiyini göstərir. Diliylə "inanıram" desə də, amma həqiqətən Allahın hökmlərinə əməl etmir. Bu ziddiyyət əslində açıq şəkildə dini və Allahı inkar etmək mənasına gəlir.

Xalq arasında belə ziddiyyətli xarakterlərə tez-tez rast gəlinir. İnsanların böyük hissəsi iman etdiklərini söyləyir, ancaq Allahın razı olacağı kimi bir həyat yaşamır. Quran əxlaqına zidd davranır və Peyğəmbərimiz (s.ə.v)-in yolu ilə getmir. Kitabın əvvəlki

hissələrində də üzərində dayandığımız kimi, bu əxlaqa sahib olan insanlar bütün bu inkarı ifadə edən sözlərinə və davranışlarına baxmayaraq, cənnətə gedəcəklərini inanır, özlərini doğru yolda zənn edirlər. Amma əslində özlərini aldadırlar. Allah belə insanların vəziyyətinə Quranda belə diqqət çəkmişdir:

**Ayələrimizi və axirətə qovuşmağı doğru hesab edən, onların əməlləri boşa çıxmışdır. Onlar etdiklərindən başqasıylamı cəzalandırılacaqlarını sanırlar? (Əraf surəsi, 147)**

## Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! (Kəhf surəsi, 38)

Kəhf surəsi boyunca insanların çox böyük bir hissəsinin Allaha şirk qoşduqlarına tez-tez diqqət çəkilir. Quranda şirk, hər hansı bir şeyi, bir kimsəni və ya bir anlayışı, seçim etmə ya da qiymət vermə baxımından Allahla bərabər və ya daha üstün bir səviyyədə görmək və bu səhv baxış bucağı ilə hərəkət etmək mənasında istifadə edilər. Quranda bu mövqe, "Allahdan başqa ilah etmək" olaraq adlandırılar. İnsanın, Allahın rizasına zidd olacaq şəkildə özünə həyat məqsədi olaraq təyin etdiyi, ondan mədət umduğu, razılığını axtardığı hər varlıq, Allahın razılığına dəyişdiyi hər şey Allahdan başqa etdiyi bir ilahdır əslində.

Şirk, insanın çəkinməli olduğu günahların ən əvvəlində gəlir. Çünki bunun, Allaha qarşı ən böyük günah olduğu bildirilmişdir. Məhz buna görə Allah dilədiyi günahı bağışlayacağını, ancaq şirki əsla bağışlamayacağını bildirmişdir (Nisa surəsi, 116). Allahın bağışlamayacağını bildirdiyi, azğınlıq olaraq xarakterizə etdiyi bir günah, əlbəttə ki, müsəlmanların ən çox çəkinməli olduğu vəziyyətdir. Üstəlik Quranın bir çox yerində Allah mömінləri şirkə qarşı xəbərdar etmiş, onları bu ən böyük pislikdən şiddətlə çəkindirmişdir. Hz. Loğmanın oğluna verdiyi, " **Ey oğlum, Allaha şirk qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** (Loğman Surəsi, 13) şəklindəki öyüd də bunlardan biridir. Şirkin bu dərəcə əhəmiyyətli bir mövzu olmasının bir digər səbəbi isə insanın əməllərinin hədər getməsinə və məhv olmasına səbəb olmasıdır. Bu həqiqət də Quranda belə bildirilir:

**And olsun ki, sənə və səndən əvvəlkilərə belə vəhy olundu: Əgər şirk qoşsan, əməlin boşa çıxacaq və əlbəttə sən, ziyana uğrayanlardan olacaqsan. (Zumər surəsi, 65)**

Ayələrdə də açıq şəkildə görüldüyü kimi, Allaha şərik qoşmağın düzəlişi mümkün olmayan, insanı cəhənnəmə qədər sürükləyən bir günahdır. Bu səbəblə Allahdan qorxan bir insanın bu təhlükəyə qarşı çox diqqətli olması lazımdır.

## Bağına girdiyin zaman: “Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!” – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, (Kəhf surəsi, 39)

Bu ayədə "maşaAllah" sözünün əhəmiyyətinə diqqət çəkilir. MaşaAllah "Allahın diləməsiylə" mənasında istifadə edilən bir ifadədir. Möminlər Allahın yaratmasındakı üstün sənəti və qüdrəti ifadə etmək istədiklərində "maşaAllah" deyər və Allahı təsbih edərlər.

Bu sözü ürəkdən hiss edərək istifadə etmək, ətrafdakı şəxslərə də hər şeyin sahibinin Allah olduğunu, hər hadisənin qədərdə və Allah dilərsə reallaşdığını xatırladır. Hər şeyi edənin Allah olduğunu tez-tez xatırlatmaq isə, heç şübhəsiz ki, insanlara çox böyük fayda verir. Çünki insan öz acizliyini unutmağa və qəflətə düşməyə meyilli bir varlıqdır.

Məsələn, burada bəhs etdiyimiz inkara yönəlmiş olan bağ sahibi, bütün malın və mülkün özünə aid olduğunu ifadə edərkən əslində Allaha şirk qoşur. Bunu açıq şəkildə ifadə etməsə də buradakı ifadələrindən və rəftarından, "gizli şirk" içində ola biləcəyi aydın olur. Bu səbəblə, yoldaşı onu hər cür şirkə qarşı xəbərdar edir və hər şeyin Allaha aid olduğunu ona dəfələrlə xatırladır.

Xüsusilə yaşadığımız dövrdə, insanların belə bir təhlükəyə qarşı daim ayıq olmaları lazımdır. Çünki bu kimi mövzularla insanlar həyatlarında çox tez-tez rastlaşırlar. Məsələn, "Qani" yəni "Zəngin" termini Allahın bir xüsusiyyətidir. Ancaq eyni təsvirlər insanlar üçün də istifadə edilir. Hərçənd bu xüsusiyyəti istifadə etmənin, bu insanın maliyyə vəziyyətini təsvir etmək baxımından heç bir qorxusu yoxdur. Ancaq, şirkə yol açan vəziyyət, insanın bu zənginliyin səbəbi olaraq özünü, öz zəkasını, səyini görməsidir.

Vəziyyət belə olduqda -bağ sahibində olduğu kimi- zənginliyin həqiqi sahibinin Allah olduğu unudular. Bu adam sahib olduğu hər şeyi özünə Rəbbimizin verdiyini, Allahın Qani qismində onu zənginləşdirdiyini, verdiyi hər şeyi istəsə bir anda ala biləcəyini gözardı etmiş olur. Bu səbəbdən, Allahdan başqa hər kəsin mütləq kasıb və aciz olduğunu, Allahın dilədiyi qulları üzərində dilədiyi sifətləriylə təcəlli edə biləcəyini düşünməz. Bu, çox cahil bir yanaşmadır və insanı şirkə sürükləyən bir düşüncə tərzidir. Çünki bu baxış bucağıyla hərəkət edildiyində Allahın sonsuz qüdrəti və hakimiyyəti tamamilə unudular və insan haqqı olmayan ilahlıq vəsfini özünə verər.

Doğru olan rəftar isə zənginliyin əsl sahibinin Allah olduğunu bilməkdir. Onun, göylərin və yerin tək hakimi olduğunu təqdir etmək və insana verdiyi bu zənginliyi dilədiyi anda ala biləcəyinin şüurunda olmaqdır. Zənginlik verilən insanı qiymətləndirərkən də onun zəngin, ya da kasıb olması əhəmiyyətli olmamalı, onun Allahın nemət verdiyi bir qulu olduğu düşünülməlidir. Məsələn, bu insanın ailə üzvləri malın əsl sahibi olaraq onu görsələr, yalnız ondan mədət umarlarsa, malın əsas malikinin Allah olduğunu unudub, bu insana da bu həqiqəti heç xatırlatmazlarsa, bu çox səhv bir baxış bucağı olar. Eyni şəkildə bu insanın yanında işləyən insanlar da özlərini yedirdənin də, içirdənin də, ehtiva edənin də Allah olduğunu unutmamalıdırlar. Allahı unudub, yanında işlədikləri insanı bir çox şeyə qadir, Allahdan müstəqil bir gücə sahib olaraq dəyərləndirirlərsə, bu çox böyük bir ağılsızlıq olar. Necə ki, bu həqiqət insanlara Quranda da bildirilmişdir:

**"... Şübhəsiz ki, sizin Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız."** (Ənkəbut surəsi, 17)

**Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!" (Kəhf surəsi, 40-41)**

Bu ayələrdə də iman əhli olan bağ sahibi, lovğalanan yoldaşına acizliyini xatırladır. Allahdan gələcək hər hansı bir bəlanın qarşısını ala bilməyəcəyini, buna baxmayaraq təkəbbürlənməsinin nə qədər böyük bir ağılsızlıq olduğunu izah edir.

Sahib olduqları mallarla və zənginliklərlə öyünən insanların ən böyük səhvlərindən biri də, dünya həyatındakı bütün gözəlliklər kimi, bunların keçici olduğunu unutmalarıdır. Gözəllik və gənclik bir neçə on ildən sonra gedəcək, yerini qocalığa verəcəkdir. Sağlamlıq da eyni şəkildə yerini xəstəliklərə, acizliklərə və zəifliklərə verəcəkdir.

Əvvəlki ayədə də açıqladığımız kimi zənginlik də keçicidir. Allah dilədiyi zaman kasıb bir insanı bir anda zənginləşdirə, ya da zəngin olanın malını bir anda yox edə bilər. İnsan evlərini, yaxtalarını, avtomobillərini, ləl-cəvahiratlarını bir sellə, zəlzələ, ya da başqa bir fəlakətlə bir anda itirə bilər. Kimsənin Allahdan gələn bir fəlakəti əngəlləməyə gücü çatmaz. İnsan, heç ümid etmədiyi bir anda bütün yaxınlarını itirə bilər, özü də heç gözləmədiyi bir

anda ölümlə üzləşə, qəza keçirərək şikəst qala bilər, qalıcı bir şəkildə yaralana bilər, yaddaşını itirib bütün qabiliyyətlərini itirə bilər. Bu fəlakətlərin hamısı, " **Allahın izni olmadan heç bir müsibət (heç kəsə) baş verməz ...** " (Təğabun surəsi, 11) ayəsində bildirildiyi kimi Allahın diləməsiylə və Allahın istədiyi zaman reallaşa bilər. Heç kim bu fəlakəti əngəlləyə bilməz, təxirə sala bilməz, ya da vaxtını uzada bilməz. Belə bir gündə nə malı, nə də zənginliyi insana heç bir fayda verməz. Allahın ayəsiylə də bildirdiyi kimi, "**Şübhəsiz inkar edənlər, onların malları da, uşaqları da özlərinə Allahdan (gələcək əzaba qarşı) heç bir şey qazandırmaz** ." (Ali İmran surəsi, 10)

İnsan, həyatının heç bir anında Allahın, qədərində yazdığının xaricində bir şey yaşaya bilməz. Bu səbəbdən etməli olduğu Allaha təslim olmaq və təvəkkül etməkdir. Allaha qarşı təkəbbürlü bağ sahibi, bağının və məhsullarının başına sonsuza qədər bir şey gəlməyəcəyini iddia edərkən bu həqiqəti gözardı etmişdir. Bağını sulayan axar suyun sonsuza qədər axacağından, məhsullarına heç bir xəstəliyin müsəllət olmayacağından, quraqlıq kimi bir bəla ilə heç bir zaman üzləşməyəcəyindən əmindir. Zənginliyinin, zəkasının və səyinin mallarını qorumağa qadir olduğunu zənn edir.

Ancaq Allah üçün bunu tərsinə çevirmək çox asandır. Bağını sulayan axan su, kiçik bir yer hərəkətiylə bir anda yerin dərinliklərinə doğru axmağa başlaya bilər. Bu hadisə, bağ sahibinin gözləri qarşısında çox qısa zamanda reallaşa bilər. Beləcə o məhsuldar ərazi bir anda qupquru bir hala gələ bilər. İnsanın belə bir vəziyyətdə nə suyu geri gətirməyə, nə də tarlasını köhnə məhsuldar halına çevirməyə gücü çatmaz. Mədət umduğu malları və bütün zənginlikləri də özünə bir fayda verməz. Bunlar o insanın təkəbbürlənməsinin və nankorluğunun dünya həyatındakı qarşılığıdır. Axirət həyatında isə şirk qoşduğu, dəyər verdiyi, sahiblənib Allaha qarşı böhtan atmasına səbəb olan mallar özünə bir fayda verməyəcək. Ayələrdə inkar edənlərin bu vəziyyəti belə bildirilir:

**O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. Həqiqətən, o Od onların üzərində qapanacaqdır. Özləri də orada yüksək dirəklərə bağlanmış olacaqlar. (Huməzə surəsi, 2-9)**

Ayədə xatırladılan bir digər mövzu isə suyun yerin dərinliklərindən yer üzünə çıxmasının nə qədər böyük bir nemət olduğudur. Yerin kilometrlərlə dərinliklərində olan su, Allahın diləməsiylə yer üzünə çıxır, insanlar üçün şəfa olur. Əgər bu suyu istifadə etmə imkanı olmasaydı, insanlar üçün çox böyük çətinliklər və sıxıntılar meydana gələcəkdi. Ancaq su quyuları və suyu əldə etməyimizi təmin edən digər üsullar sayəsində yerin

dibindəki tərtəmiz, mineral cəhətdən çox zəngin suları əldə edə bilər və bunları öz faydamız istiqamətində istifadə edə bilərik.

**Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" Allahdan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi. Belə hallarda kömək etmək ancaq Haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 42-44)**

Əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, Allahdan başqasından mədət uman, onlardan mərhəmət dilənən, onlara güvənən bir adam, ümid etdiyi qarşılığı heç vaxt tapa bilməz. Bu səbəblə həyatı boyunca, xüsusilə də çətin anlarında, böyük bir boşluq və sahibsizlik hissinə qapılar. Özünü, dünyanın min bir cür qarışıqlığı və çətinliyi qarşısında, güvəndiyi saxta ilahlar tərəfindən tərk edilmiş, çarəsiz, tək-tənha qalmış hiss edər.

Quranda bu həqiqətə, "**Allah ilə yanaşı başqa tanrılar qəbul etmə, yoxsa qınanmış və tək başına (yalnız və köməksiz) buraxılmış olarsan** ." (İsra surəsi, 22) ayəsiylə diqqət çəkilmişdir. Allah, eqoist bağ sahibini də -mallarını almaqla- tək-tənha buraxmış, bir fəlakətlə bütün zənginliyini bir anda ortadan qaldırmışdır. Məhz bu fəlakət zamanı da bağ sahibi də həqiqətləri, yəni Allaha şirk qoşaraq nə qədər böyük bir səhvə düşdüyünü görmüşdür.

Bu nümunədən də aydın olduğu kimi, özünü dünyada güc sahibi zənn edən hər insan, Allahın diləməsi ilə bir anda nə dərəcə aciz olduğunu anlayar. Nə özünə, nə də ətrafındakı insanlara kömək etməyə güc yetirə bilməz. Hər şey Allahın əlindədir. Ondan başqa zərər və fayda verməyə gücü yetən kimsə yoxdur. Bu həqiqət bir ayədə bu şəkildə xatırladılar:

**Əgər Allah sənə bir zərər vurmaq istəsə, bunun qarşısını Ondan başqa heç kəs ala bilməz. Əgər sənə bir xeyir toxundursa, heç kəs Ona mane ola bilməz. O, hər şeyə qadirdir. (Ənam surəsi, 17)**

İnsanın tək dost və vəlisi Allahdır. Allahın xaricindəki varlıqlar isə yalnız Onun yaratdıqlarıdır. Onun istəyi ilə var olmuşlar və yenə Onun diləməsi ilə varlıqlarını davam etdirirlər. Şəfanı və ruzini verən, güldürən də, ağladan da Allahdır. Allahdan başqa hər şey və hər kəs, sonsuz aciz, sonsuz kasıb, sonsuz möhtac varlıqlardır. Özlərinə aid bir gücləri, qabiliyyətləri yoxdur; elə ki, özlərinə belə yardım edə bilməzlər. O halda, Allahdan başqa güvəniləcək, kömək ümid ediləcək, bir şeylər istənəcək kimsə də yoxdur.

**Onlara dünya həyatını misal çək. Bu dünya həyatı göydən göndərdiyimiz yağışa oxşar. Yerdəki bitkilər onunla qarışıb yetişər, sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir. Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 45-46)**

Kəhf surəsinin bu ayələrində "davamlı olan saleh davranışlara" diqqət çəkilir. Saleh davranış, yaxşı və xeyirli iş mənasını verər ki, bu da Allahın razılığına və Quran əxlaqına uyğun hər cür davranışı və hərəkəti ifadə edər.

İnsan, Allahın razılığını, rəhmətini və cənnətini qazana bilmək üçün saleh əməllər etməlidir. Çünki bu əməllər, müsəlmanların səbirlərini, qətiyyətlərini, sədaqətlərini, qısacası imanlarındakı bəsirətlərini ortaya qoyar.

İnsanın bir iş görərkən, içində daşıdığı niyyəti son dərəcə əhəmiyyətlidir. Bir əməlin saleh olması, yalnız Allah rizası üçün edilməsinə bağlıdır. Əgər edilən iş, qatqısız Allah rizasından uzaqlaşsa, o zaman saleh əməl olma xüsusiyyətini itirə bilər. Bu vəziyyət, insanın başqalarının razılığını axtarışı deməkdir ki, Allah, Özündən başqasının rizası üçün edilən ibadətləri ayələrində bu şəkildə təsvir edir:

**Vay halına namaz qılanların –o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar. (Maun surəsi, 4–6)**

Oxşar vəziyyət infaq mövzusu üçün də keçərlidir. İnsanların bir hissəsi mallarından infaq edərkən yalnız Allahın razılığını güdər, bir qismi isə göstəriş məqsədli infaq edərlər. Bu kəslər arasındakı fərq Quranda belə xəbər verilir:

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.**

**Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 264-265)**

Yaxşı iş görən bir müsəlmanın heç vaxt unutmamalı olduğu bir başqa əhəmiyyətli mövzu isə bu əməllərə ehtiyacı olanın yalnız özü olmasıdır. Allah möhtac deyildir; yəni hər cür qüsur və nöqsandan uzaqdır, heç bir şeyə ehtiyacı olmayandır. Bu səbəbdən, Allahın müsəlmanların edəcəkləri əməllərə ehtiyacı yoxdur. Bu həqiqət Quranda belə bildirilir:

**Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir. Əgər istəsə, sizi yox edib yerinizə yeni bir məxluqat gətirər. Bu, Allah üçün çətin deyildir. (Fatir surəsi, 15-17)**

Rəbbimiz dilədiyi anda istədiyi şeyi edə bilər. **"... İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi? ..."** (Rəd surəsi, 31) ayəsində bildirildiyi kimi, Allah hər şeyə qadirdir. Allahın dinini güclü etmək üçün göstərdikləri səy müsəlmanların öz faydalarınadır. Bu səbəbdən, bir insan saleh əməl işləməklə, əslində ancaq özünə fayda təmin edir, öz axirətini qazanır. Bu həqiqəti Allah Quranda, "**kim cəhd etsə (səy göstərsə), yalnız öz nəfsi üçün cəhd etmiş olar. Həqiqətən, Allah aləmlərdən müstağnidir.**" (Ənkəbut surəsi, 6) ayəsiylə xəbər verir.

Saleh əməlin ayədə Allahın xəbər verdiyi bir başqa əhəmiyyətli xüsusiyyəti isə "davamlı" olmasıdır. Çünki bəzi insanlar üçün gündə bir neçə dəfə yaxşılıq etmək, mallarının bir qismini bir dəfə infaq etmək, bəzi mövzularda fədakarlıq etmək çox asan ola bilər. Bunları vərdişlə, ya da maraqlarına toxunmadığı üçün etmiş ola bilərlər. Ancaq əhəmiyyətli olan möminin həyatının hər anında xeyirli işlər etməsidir. Hər an Allahın razılığını qazanmaq üçün səy göstərməsi, davamlı fədakar olması, Allahın dinini təbliğ etmək üçün davamlı cəhd etməsi çox əhəmiyyətlidir. Üstəlik ətrafında başqa heç kim Allahın bu əmrlərini yerinə yetirməsə də, özü heç imtina etmədən davam etməlidir. Beləcə səbrini isbat etmiş və Allaha olan yaxınlığını nə qədər güclü olduğunu sərgiləmiş olacaq. Necə ki, Allah Məryəm surəsində bu şəkildə bildirir:

**Allah, hidayət tapanlara hidayəti artırır. Əbədi qalan yaxşı işlər isə Rəbbinin yanında savab baxımından daha xeyirli, nəticə etibarilə daha yaxşıdır. (Məryəm surəsi, 76)**

İman gətirib həyatı boyunca saleh əməllər işləyən bir möminin qovuşacağı qurtuluş isə Allahın razılığı və cənnətidir. Quranda möminləri Allah belə müjdələyir:

**İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik. Biz onların kökslərindəki kin-küdurəti çıxaracağıq. Onların ayaqları altından çaylar axacaq. Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Əlbəttə, Rəbbimizin elçiləri haqqı gətirmişdilər". Onlara belə xitab ediləcəkdir: "Əməlləriniz sayəsində varis olduğunuz Cənnət budur!" (Əraf surəsi, 42-43)**

**O gün Biz dağları hərəkətə gətirəcəyik. O vaxt yerin dümdüz olduğunu görəcəksən. Biz hamını bir yerə toplayacaq, onlardan heç birini kənara buraxmayacağıq. Onlar Rəbbinin hüzurunda səf-səf duracaqlar. Biz deyəcəyik: "Hüzurumuza sizi ilk dəfə yaratdığımız kimi gəldiniz. Amma siz elə güman edirdiniz ki, Biz sizə müəyyən bir vaxt təyin etməyəcəyik". (Kəhf surəsi, 47-48)**

Bütün insanların ölüm vaxtlarının təyin olması kimi kainatın da bir ölüm anı vardır. Bu an Quranda "qiyamət" olaraq adlandırılmışdır. Ancaq qiyamət saatının nə vaxt olduğunun məlumatı yalnız Allahın yanındadır. Bu həqiqət bir ayədə belə bildirilir:

**Qiyamət saatının məlumatı, şübhəsiz Allahın yanındadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz. Heç kim də, hansı yerdə öləcəyini bilməz. Heç şübhəsiz ki, Allah biləndir, xəbərdardır. (Loğman surəsi, 34)**

Kəhf surəsinin bu ayələrində isə insanların qiyamət saatı mövzusundakı təxminlərinə işarə edilir. İnsanların uzaq zənn etdikləri qiyamət saatının yaxınlaşdığını Allah Quranda,

**"İnsanların haqq-hesab vaxtı (qiyamət) yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və üz döndərirlər."** (Ənbiya surəsi, 1) ayəsiylə bildirmişdir.

İnsanların böyük bir hissəsi bu dünya həyatının heç sona çatmayacağını inanır, qiyamət gününün də əsla gəlməyəcəyini iddia edərlər. Ölümün yox olmaq olduğunu düşünər, hesab gününün varlığını inkar edərlər. Qiyamətin, yer üzü, içində olanlar və kainatda var olan hər şey üçün yox olma olduğu doğrudur, ancaq bu yox olma onların zənn etdikləri kimi bir son deyil, əksinə sonsuz axirət həyatının başlanğıcıdır.

Allah hər insanı yoxdan var edər və qədərdə təyin etdiyi müddətdə canını alar. Hər insanın hansı gün, hansı saat, hətta hansı saniyə, harada və necə öləcəyi Allah Qatında müəyyəndir. Ölüm insan üçün bilinməyən olsa da, zamandan və məkandan münəzzəh olan Rəbbimiz bütün bu məlumatları əhatə etmişdir.

Allah qiyamət günündə necə bir mühit meydana gələcəyini də Quranda bildirmişdir. O gün möminlər "**Ey bəndələrim, bu gün sizin üçün qorxu yoxdur və siz qəm-qüssə içində olmayacaqsınız.**" (Zuxruf surəsi, 68) ayəsində Allahın vəd etdiyi kimi qorxu hiss etməyəcəklər. İnkar edənlər üçün isə olduqca çətin bir gün olacaqdır.

Möminlər, həyatları boyunca Allahı razı etməyə, Allahın əmr etdiyi ibadətləri dəqiqliklə yerinə yetirməyə və Allahdan gərəyi kimi qorxub çəkinməyə qarşı göstərdikləri etinanın qarşılığını ən gözəl şəkildə alacaqlar. Allah onlara inkar edənlərin duyduğu çaxnaşmanı, peşmanlığı və bədbəxtliyi hiss etdirməyəcəkdir. Allah möminlərin axirətdəki vəziyyətlərini Quranda belə xəbər vermişdir:

**O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur. (Hədid surəsi, 12)**

**Hər kəsin kitabı qarşısına qoyulacaq və sən günahkarların orada yazılmış olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!” Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

Kəhf surəsinin bu ayəsində Allah inkarçıların hesab günündə yaşayacaqları dəhşəti xəbər verir. Ayədə diqqət çəkilən bir başqa mövzu, inkarçıların dünyada etdikləri hər hərəkəti qarşılarında gördüklərində yaşadıqları çaşqınlıqdır. Bu insanların çaşqınlığa düşmələrinin səbəblərindən biri, Allahın bütün zamanları və hadisələri əhatə əhatə etdiyi, bunların hamısına hakim olduğu həqiqətindən qafil olmalarıdır.

Kitabın əvvəlki hissələrində də tez-tez xatırladtığımız kimi Allah qatında keçmiş, indiki zaman və gələcək eyni anda olub bitmişdir. Qədər, Allahın, keçmişdə yaşanmış, hal-hazırda hələ də yaşanan və gələcəkdə yaşanacaq olan bütün hadisələri ən incə təfərrüatlarına qədər bilməsidir. Rəbbimiz, bu hadisələrin hamısını bilir ancaq bu, bizim bir şeyi məlumat olaraq bilməmiz kimi deyil. Bu hadisələrin hamısını yaradan Allahdır. Buna görə Allah hər insanın həyatındakı hər saniyənin hakimidir.

İnsanlar isə, Allahın qədərlərində təyin etdiyi və Onun qatında tək bir an olaraq mühafizə edilən hadisələrə, özləri üçün zamanı gəlincə yaşayıb şahid olurlar. Lakin insanların çox böyük bir hissəsi bu həqiqətin fərqində deyil və batil qədər anlayışına malikdir. İnsanlar arasında "alın yazılarını dəyişdirə biləcəkləri" ya da "qədərlərini məğlub edəcəkləri" şəklində batil bir inanc vardır. Məsələn, bir qəzadan son anda xilas olan bir adam çox insana görə guya "qədərini məğlub etmişdir". Halbuki bu adamın keçirəcəyi qazanın bütün təfərrüatları, bu adamın qəzadan xilas olması, nə böyüklükdə bir yara alacağı, bu yaranın neçə gün içində müalicə olacağı o adamın qədərində yazılmışdır. O adam qədərində yazıldığı üçün qəzadan xilas olmuş və ölməmişdir. Yoxsa heç kimin taleyini dəyişdirməsi mümkün deyil. "Qədərimi məğlub etdim" deyərək özlərini aldadanlar bu cümləni söyləmələri və belə səhv bir psixologiyaya girmələri də, yenə qədərlərindədir. Qədər, bütün zamanları eyni anda bilən və bütün zamanlara və məkanlara hakim olan Allahın elmidir.

Məhz bu səbəblə hesab günü, insanlar etdikləri hər işi, söylədikləri hər sözü, içlərindən keçirdikləri hər niyyəti qarşılarında görəcəklər. Bəlkə özlərinin belə unutduğu incəliklər, hesab günü Rəbbimizin diləməsi ilə onlara bildiriləcəkdir. İnsanlar etdikləri bir

pisliyin və ya söylədikləri pis bir sözün üzərindən illər, hətta əsrlər keçdiyini düşünərək bunun unudulacağına zənn edirlər. Halbuki hesab günü yaşananlar da, o insanların minlərlə il əvvəl dedikləri anda etdikləri də əslində Allah üçün bir an hökmündədir. Bu səbəblə insanların etdikləri işlərin gizli qalacağını, unudulacağını, qarşılarına çıxmayacağını düşünmələri çox böyük bir ağılsızlıq olar.

**Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. İblis cinlərdən idi. O, Rəbbinin əmrinə boyun əymədi. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və onun nəslini özünüzə dostmu tutursunuz? Zalımlar üçün bu necə də yarıtmaz mübadilədir! (Kəhf surəsi, 50)**

Bu ayədə itaətin əhəmiyyətinə diqqət çəkilir. Ayədə şeytanın Allahın əmrinə itaət etməyib, hz. Adəmə səcdə etmədiyi bildirilir. Şeytanın ən diqqət çəkən xüsusiyyəti itaətsizliyi ikən, möminlər Allaha, elçilərinə və Onun kitabına olan güclü itaətləriylə tanınarlar.

İtaətli olmaq, insan həyatının hər anında çox böyük əhəmiyyət kəsb edir. Bilindiyi kimi bir cəmiyyətdə hüzur və sükunət, insanların dövlətə və onun bütün sahələrinə göstərdikləri itaət, hörmət və etibarla təmin edilə bilər. Allah müsəlmanlara bir çox ayəsi ilə itaəti əmr edir. Bu səbəbdən Quran əxlaqına görə yaşayan insanların meydana gətirdiyi bir cəmiyyət eyni zamanda, dövlətə itaətin və hörmətin ən yüksək dərəcədə yaşandığı bir mühit olur.

Din əxlaqı, eyni zamanda insanları hər cür anarxiya və terror hərəkətindən də uzaq tutar. Çünki Allah Quranda insanları "təxribatçılığı" da qadağan etmişdir. Bu mövzuyla əlaqədar ayələrdən bəziləri belədir:

**Allahın sənə verdiyindən özünə axirət qazan, dünyadan da öz payını (nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də ehsan et və yer üzündə fitnə-fəsad çıxarma. Çünki Allah fitnə-fəsad törədənləri sevməz. (Qəsas surəsi, 77)**

**... Ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir. (Əraf surəsi, 85)**

Din əxlaqını gərəyi kimi qavrayan və yaşayan bir insan, Allahın ayələrindəki bu əmrin tələbi olaraq, yer üzündə qarışıqlıq çıxarmaqdan şiddətlə çəkinər. Quran əxlaqına uyğun, hüzur və sükunət dolu, etidallı, tolerant, hadisələri şiddətləndirməyən, əksinə hər zaman uzlaşdırıcı bir əxlaq sərgiləyər.

Yuxarıdakı Quran ayələrində izah edilən, şeytanın yolu ilə getməyən əsl dindar modeli cəmiyyətdə yayılsa, ictimai həyatda sülh və əmin-amanlıq hakim olar. Polisin və digər təhlükəsizlik qüvvələrinin vəzifələrini yerinə yetirməyə imkan verməyən, onlara qəzəblə cavab verən və çətinlik çıxaran insanlar olmaz. Əksinə İslam əxlaqını yaşayan insanlar, köməksevər və xoşgörüşlü əxlaqlarıyla, təhlükəsizlik qüvvələrinin yanında olar, onların işlərini asanlaşdıracaq şəkildə hərəkət edərlər. Bu əxlaqdakı insanların varlığı sayəsində cəmiyyətdən anarxiya, terror, qarışıqlıq və düşmənçilik aradan qaldırılar. İnsanlar arasında davam edən döyüşlər, bağırtılar, mübahisələr tamamilə ortadan qalxar. Hər kəs küçəyə rahatca çıxa bilər, gecə-gündüz təhlükəsizlik içində hər yerdə gəzə bilər.

**Mən onları nə göylərin və yerin yaradılışına, nə də özlərinin yaradılışına şahid etmədim. Mən başqalarını yoldan çıxaranları Özümə köməkçi tutmuram. (Kəhf surəsi, 51)**

Bu ayədə insanın özünə hər zaman iman sahibi, itaətli və gözəl əxlaqlı kəsləri dost etməsini işarə edir. Belə insanlarla birlikdə olmaq insanı hər cür təhlükədən qoruyacaq, pis yollara sapmasını əngəlləyəcək, hər an saleh bir əməl üzərində olmasına vəsilə olacaq. Möminlər bir-birlərinin dost və vəliləri olduqları üçün hər an Allahın ayələrini xatırladacaq və bir-birlərinə gözəl əxlaqı tövsiyə edəcəklər. Bunun əksinə olaraq, yəni insanın özünə azdırıcıları və üsyankarları dost etməsi isə insana itkidən başqa bir şey gətirməyəcək. Ayələrdə insanların böyük bir hissəsinin şeytanı özlərinə dost etdiklərini və bunun nəticəsində də böyük bir hüsranla üzləşdiklərindən bəhs edilir:

**O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: “Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!” - demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: “Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!” - demişdi. (Ənfal surəsi, 48)**

Unudulmamalıdır ki, şeytan dünya həyatında insanlara dost kimi görünər, ancaq Allahın əzabı ilə qarşılaşdığında onu dost seçənləri bir anda yalnız buraxar. Bu səbəblə,

Quranda hər zaman tək dost və vəli olaraq iman edənlərin seçilməsi əmr edilir. Ayələrdə belə buyurulur:

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər. Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 55-56)**

**O gün Allah müşriklərə: "İddia etdiyiniz şəriklərimi çağırın!" – deyəcək. Müşriklər onları çağıracaq, lakin onlar cavab verməyəcəklər. Biz müşriklərlə bütlərin arasına həlak edici bir yarğan salarıq. Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər. (Kəhf surəsi, 52-53)**

Bu ayələrdə Allaha şərik qoşan insanların axirətdə heç gözləmədikləri bir qarşılıq görəcəkləri xəbər verilmişdir. Allahın ayələrini inkar edib, Ona şərik qoşanları, o gün ortaqları tərk edəcək və onlar tamamilə tənha qalacaqlar. Hər insan yalnız öz etdiklərindən hesaba çəkiləcək, heç bir şəkildə haqsızlıqla qarşılaşmayacaqdır. Ayələrdə belə buyurulur:

**Əgər onlara Rəbbinin əzabından bir yel belə toxunsa, onlar mütləq: "Vay halımıza! Biz, həqiqətən də zalım olmuşuq" – deyərlər. Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 46-47)**

Kəhf surəsinin bu ayələrində diqqət çəkilən bir başqa mövzu isə, Allaha şərik qoşanların axirətdə bir "qaçış yolu" axtarmalarıdır. Ancaq Allah ayəsində belə bir qaçış yeri tapa bilmədiklərini bildirir. Yəni bu insanların vəziyyəti, Allah Qatında bilinir. Bu ayədə xəbər verilənlər, dünya üzərində gəlib-keçmiş heç bir insanın bilmədiyi, görmədiyi görünüşlər, eşitmədiyi söhbətlərdir. Bunlar, bizim üçün gələcəkdə reallaşacaq hadisələr olduğu üçün qeyb, bilinməyən hadisələrdir. Ancaq bütün zamanları əhatə edən Rəbbimiz qatında bu hadisələr çoxdan reallaşmış və nəticələnmişdir.

Rəbbimiz insanların önə sürdükləri bəhanəni, qaçış üçün etdikləri planları, istifadə etdikləri üsulları, necə bir əzabla qarşılaşacaqları, əzab içində sonsuz zamanlarını necə keçirəcəklərini bilir. Onsuz da bütün bunları yaradan da Odur. Bunları bizə ibrət almağımız üçün əvvəldən xəbər verir. Ancaq bu, yalnız bizim üçün "əvvəlcədən" dir. Allah Qatında "əvvəlcədən" və ya "sonradan" deyə bir şey yoxdur. Əvvəl, Allah Qatında hazır vəziyyətdədir və indi yaşanır. Yəni Allahın əvvəldən bilməsi, əvvəli xatırlama şəklində deyil. Sonra olacaq hadisələr də Allahın hifzində bir məlumat olaraq vardır. Amma bu məlumat bizim bir şeyi öyrənməyimiz kimi deyil. "Sonra" da Allah qatında bu an hələ də yaşanır və yenə bu an bitir. Hal-hazırdakı an da bu an yaşanmışdır və nəticələnmişdir. Hər an; yəni əvvəl, sonra və indi yaşadığımız hər şey əslində Allah qatında "tək bir an" olaraq mövcuddur. Allah bütün zamanları və məkanları elmi və qüdrəti ilə əhatə etmişdir.

## Biz bu Quranda insanlar üçün hər cür məsəli ətraflı izah etdik. İnsan isə ən çox mübahisə edəndir. (Kəhf surəsi, 54)

İnsanlar üçün hidayət rəhbəri olan Quran, haqla batili bir-birindən ayırır. Allah Qatından, iman edənlər üçün bir rəhmət olaraq göndərilmişdir. Açıq və aydındır. İnsanlar üçün öyüd-nəsihət və xəbərdarlıqdır.

Yuxarıdakı ayədə də diqqət çəkildiyi kimi Quranda, insanların həyatları boyunca ehtiyac duya biləcəkləri bir çox mövzu haqqında şərhlər və nümunələr var. İnsanın necə bir əxlaqa sahib olmalı olduğundan gündəlik həyat tərzinə, insanlarla əlaqələrindən ticarət həyatına, yerdəki və göydəki bənzərsiz yaradılış dəlillərindən gələcəyə dair işarələrə qədər müxtəlif məlumatlar mövcuddur. Allahın **"... Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq ..."** (Ənam surəsi, 38) ayəsiylə də bildirdiyi kimi din əxlaqını yaşamaq istəyənlər üçün Quranda hər şey ətraflı olaraq açıqlanmışdır. Quranın bu xüsusiyyəti ayələrdə bu şəkildə bildirilir:

**De: “Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?” Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma. Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir. (Ənam surəsi, 114-115)**

**... Biz Kitabı sənə hər şeyin izahı, müsəlmanlara da bir hidayət, bir rəhmət və bir müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

Quranın bu qədər açıqlayıcı bir kitab olaraq endirilməsinin hikmətlərindən biri də, insanların ayələrdən ibrət almaları və öz nəfslərinə dair bütün nöqsanların həllərini Qurandan tapmalarıdır. Bir qəzəb anında nə ediləcəyi, çətin bir vəziyyətdə necə səbir göstəriləcəyi, insanı gözəl əxlaqdan uzaqlaşdıran həsəd, lağ kimi xüsusiyyətlərdən necə çəkinilməli olduğu ayələrdə bildirilir. Bununla bərabər inkar edənlərin, müşriklərin, münafiqlərin əxlaqları haqqında da məlumatlar verilir, iman edənlərin bunlardan ibrət almaları tövsiyə edilir. Bu səbəbdən ayələr üzərində diqqətlə düşünən bir insan, Qurandan həm öz nəfsinə qarşı, həm də ətrafında baş verənlərə istiqamətli çox dərs çıxara bilər. Allah Taha surəsində bu şəkildə buyurur:

**Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri dönə-dönə açıqladıq ki, bəlkə, onlar pis əməllərindən çəkinsinlər və ya ibrət alsınlar. (Taha surəsi, 113)**

Kəhf surəsinin 54-cü ayəsində ayrıca insanın mübahisəçi quruluşuna da diqqət çəkilir. Kitabın əvvəlki hissələrində də vurğuladığımız kimi insanların böyük bir hissəsi təkəbbürləri səbəbindən, öz fikirlərinin daha doğru olduğunu düşünmələri və qarşılarındakı insanların fikirlərinə dəyər vermədikləri səbəbi ilə mübahisəyə girər və söz ilə üstün gəlməyə çalışırlar. Öz fikirlərini qarşı tərəfə qəbul etdirmək üçün hər yolu sınayar, əsəbiləşər, bağırar hətta bəzən təcavüzkar bir mövqe göstərərlər.

Möminlərin belə mübahisəçi rəftara verdikləri cavab isə yalnız Quran ilə hökm etmək və sözün ən gözəlini söyləməkdir. Bunun insanları doğru yola çağırmada təsirli ola biləcək tək yol olduğunu bilir və Allahın köməyi ilə hər zaman üstün gəlirlər. Ayədə bu gözəl əxlaqın təsiri bu şəkildə təsvir edilir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən, ən gözəl olan bir tərzdə (pisliyi) uzaqlaşdır; o zaman, (görərsən ki) səninlə onun arasında düşmənçilik olan şəxsi, sanki yaxın bir dosta çevrildiyini görərsən. (Fussilət surəsi, 34)**

## İnsanlara doğru yol göstəricisi gəldiyi zaman onların iman gətirmələrinə və Rəbbindən bağışlanma diləmələrinə səbəb yalnız əvvəlkilərin başına gələnlərin onların da başına gəlməsini, yaxud da gözləri görə-görə əzabın gəlib onlara yetişməsini gözləmələri mane oldu. (Kəhf surəsi, 55)

Kəhf surəsinin bu ayəsində, Quran əxlaqına dəvət edildikləri və elçilər tərəfindən doğru yola uymadıqları mövzusunda xəbərdar edildikləri halda inkar edən kəslərin vəziyyəti bildirilir. Bu insanların, təkəbbürləndiklərinə, tövbə edib bağışlanma diləməyə çalışmadıqlarına diqqət çəkilir. İnkarlarının səbəbinin isə Allahdan gələcək bir fəlakəti gözləmələri olduğu xəbər verilir. Bu da haqqında bəhs etdiyimiz insanların, Allahın özlərini bir bəlaya uğratmasına ehtimal vermədiklərinin, Allah qorxularının az olduğunun və hətta heç olmadığının dəlilidir.

Necə ki, keçmiş qövmlərə də Allahın elçiləri insanları Allaha iman etməyə və Quran əxlaqını yaşamağa dəvət etdiklərində, həmişə bənzər bir inkarla və rədlə qarşılaşmışlar. Allah qorxusu olmayan hər qövm inkarda dirənmiş, bunun nəticəsində də əzab bu kəslərin üzərinə haqq olmuşdur. Quranda inkar edənlərin əzabla qarşılıq görmələrinin "Allahın sünnəti" yəni dəyişməz bir qanunu olduğu bir çox ayədə xəbər verilmişdir. Bu ayələrdən bəziləri bu şəkildədir:

**O inkar edənlərə de ki: "Əgər son qoysalar keçmişdə (etdikləri) şeylər bağışlanacaq. Amma yenə dönəcək olsalar, əvvəlki (cəmiyyətlərə tətbiq olunan) sünnət, şübhəsiz (onların başına da) gəlmiş olacaq. (Ənfal surəsi, 38)**

**Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən.(Fatir surəsi, 43)**

**Amma Bizim əzabımızı gördükləri zaman iman gətirmələri onlara heç bir fayda vermədi. (Bu,) Allahın qulları arasında davam edən sünnəsidir. Məhz kafirlər burada, ziyana uğramışlar. (Mömin surəsi, 85)**

Ayələrdə də bildirildiyi kimi, Allahın mütləq reallaşacaq və heç bir dəyişikliyə uğramayacaq olan qanunu (sünnəsi) gərəyi, elçilərin dəvətini qəbul etməyən bütün qövmlər, vaxtı Allah qatında təyin olunmuş bir zamanda həlak edilmişlər. Bu, heç kimin nə dəyişdirməyə, nə tezləşdirməyə, nə də bir saat gecikdirməyə qadir olmayacaqları bir hadisədir. Çünki bu, hər şeyin Maliki olan Rəbbimizin, əzəldə təsbit etdiyi bir zamandır. Bir ayədə belə buyurulur:

**(Bu,) Daha əvvəldən gəlib-keçənlər haqqında (tətbiq olunan) Allahın sünnəsidir. Allahın sünnəsində qətiyyən dəyişiklik tapa bilməzsən. (Əhzab surəsi, 62)**

## Biz elçiləri yalnız müjdə verənlər və xəbərdarlıq edənlər kimi göndəririk. Kafirlər isə batil dəlilləri ilə haqqı aradan qaldırmaq üçün mübahisə edirlər. Onlar Mənim ayələrimə və xəbərdar olunduqları şeylərə istehza edirlər. (Kəhf surəsi, 56)

İnsanların həyatlarına kök salmış olan batil sistemləri ortadan qaldırmaq və Allahın haqq dinini yaymaq məqsədiylə hər cəmiyyətə elçilər göndərilmişdir. Elçilər Allaha şirk qoşan və inkarı həyat tərzi halına gətirən insanları hər cür yollarla Allaha iman etməyə və İslam əxlaqına əməl etməyə dəvət etmişlər. Ancaq tarix boyunca batil dinlər cəmiyyətlərə çox köklü şəkildə yerləşmişdir. Qövmlər içində haqq dini mənimsəməyən və batil dini çox şiddətli şəkildə müdafiə edən insanlar olmuşdur. Necə ki, Allahın elçiləri haqqı keçərli qılmaq istəmişlərsə, inkarçılar da batili yəni dinsizliyi, əxlaqsızlığı, zülmü keçərli etməyə çalışmışlar. Bu insanlar, Allahın elçilərinin insanlar üzərində meydana gətirdikləri müsbət təsiri ortadan qaldırmaq və insanların din əxlaqına tabe olmalarını əngəlləmək üçün səy göstərmişlər.

İnkarçı birliklər haqqı etibardan salmaq üçün müxtəlif yollar sınamışlar. Xalqlarının elçilərə rəğbət göstərmələrini əngəlləmək üçün böhtanlar atmış, peyğəmbərlərə tələlər qurmuşlar. Elçiyə olduğu kimi, elçinin gətirdiyi haqq kitaba da qarşı çıxmış, insanların Allahın kitabını oxumalarını əngəlləməyə çalışmışlar. Bunun üçün lazım olduqda şiddətdən istifadə etməyə də çəkinməmişlər. Məsələn, Nuh qövmünün, hz. Nuhun təbliğini əngəlləmək üçün etdiyi mübarizə bir ayədə bu şəkildə təsvir edilir:

**Onlardan əvvəl Nuhun xalqı və sonrakı əlbir dəstələr də elçiləri yalançı saydılar. Hər ümmət öz elçilərini yaxalamağa qəsd edirdi. Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım. Bir görəydin Mənim cəzam necə oldu! (Mömin surəsi, 5)**

Allahın yuxarıdakı ayəsində bildirdiyi kimi, inkarçıların etdiyi mübarizə batil bir mübarizədir və sonu mütləq məğlubiyyətdir. Allah, onları heç bir zaman müvəffəqiyyətə çatdırmamışdır və bundan sonra da çatdırmayacaqdır. Rəbbimiz, insanları haqq dindən uzaqlaşdırmağa çalışanlara, qədərdə təsbit etdiyi ən xeyirli vaxtda şiddətli bir əzabla cəzalandıracaqdır. Batilin arxasından gedib, haqqı inkar edənlərin dünya həyatındakı sonları böyük bir itki ikən, axirətdəki sonları isə çox daha böyük bir hüsran olacaq. Quranda Allah belə buyurur:

**Göylərin və yerin hökmü Allahın əlindədir. O Saatın gələcəyi gün, (məhz) o gün, batildə olanlar ziyana uğrayacaqlar. (Casiyə surəsi, 27)**

Kəhf surəsinin 56-cı ayəsində diqqət çəkilən bir başqa mövzu isə, inkar edənlərin Allahın ayələriylə və yaxınlaşmaqda olan cəhənnəm əzabıyla lağ etmələridir.

Bu kəslərin Allahın ayələrini inkar etmələrinin ən əhəmiyyətli səbəblərindən biri isə təkəbbür içində olmalarıdır. Tək istədikləri Allahın adının heç xatırlanmaması, kimsənin İslam əxlaqına etibar etməməsidir. Çünki ancaq belə bir mühitdə öz çirkin əxlaqlarını davam etdirə biləcək, ancaq özləri kimi insanların çox olduğu bir mühitdə rahat ola biləcəklər. Yaradılış dəlillərini inkar edərək və ya açıq şəkildə Allahın gücünü görməzlikdən gələrək rahatlaşacaqlarını zənn edərlər. Bu, elə böyük bir ağılsızlıqdır ki, çox açıq olan dəlillər də bu insanların iman etmələrinə yetərli olmaz. Onlar Allahı və dini inkar edərək, özlərinə üstünlük əldə edəcəklərini, ətraflarındakı insanların gözündə böyüyəcəklərini düşünürlər. Halbuki ətraflarındakı insanlar da Allahın yaratdığı və Ona qarşı möhtac olan, aciz varlıqlardır.

Üstəlik bu cür təkəbbürlənmələrinə səbəb olan şeylər yenə Allahın özlərinə verdiyi xüsusiyyətlərdir. İnsana zəkanı, fiziki gücü, maddi imkanları, gözəlliyi verən Allahdır. İnsanlar sahib olduqları hər şeyi Allaha borcludurlar. Lakin ağıllarını və vicdanlarını istifadə etməyənlər Rəbbimizə şükür etmək yerinə istehzanı seçərlər.

Quranda bu kəslərin Allahın ayələrini eşitdiklərində dərhal istehza etdiklərindən bəhs edilir. Məsələn, Tövbə surəsində "Bir surə nazil olduqda bəzisi:" **Bu, hansınızın imanını artırdı? "Deyər. Ancaq iman gətirənlərə gəldikdə isə, onların imanını artırmışdır və onlar müjdələnirlər .**" (Tövbə surəsi, 124) şəklində bildirilir. Ancaq onların məsxərəçi rəftarları möminlərin əhvallarını pozub, şövqlərini qırmaz. Tam əksinə şövqlərini artırar, imanlarına

güc qatar. İnkarçıların bu anlayışsızlığı və ayələrə olan səhv yanaşmaları bir başqa Quran ayəsində belə xəbər verilir:

**Həqiqətən, Allah ağcaqanadı və (istər böyüklükdə, istərsə də kiçiklikdə) ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə demək istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

Yuxarıdakı ayədə diqqət çəkildiyi kimi, Allahın bir ayəsində "ağcaqanad"dan bəhs edilməsinin hikmətini inkarçılar başa düşməmişlər. Ağılsızlıqları səbəbiylə "Allah bu misalla nə demək istəyir?" deyərək, özlərinə görə lağ etmişlər. Ancaq bu gün elm, bəzi ağılsız insanların "**ağcaqanad**" deyərək kiçik hesab etdikləri canlıların əslində bir çox möcüzəvi xüsusiyyətlərə sahib olduqlarını ortaya çıxarmışdır. (Ətraflı məlumat üçün baxın. Ağcaqanad möcüzəsi, Harun Yəhya) Allah bu canlıdakı fövqəladə xüsusiyyətlərə bundan 1400 il əvvəl də diqqət çəkmişdir və o dövrün inkarçıları bu məlumatlardan məhrum olduqları üçün məsxərəyə qoyduqlarına görə alçaldıcı vəziyyətə düşmüşlər.

Müsəlmanların ibadətlərində göstərdikləri dəqiqliklə lağ etmək inkarçılar arasında çox yayılmışdır. Allah bir ayəsində inkarçıların göstərdikləri bu ağılsız davranışı belə xəbər vermişdir:

**Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır. (Maidə surəsi, 58)**

Allah Quranda oruc, 5 vaxt namaz, təsəttür kimi ibadətləri insanlara fərz etmişdir və möminlər də bunları böyük bir dəqiqliklə yerinə yetirirlər. Peyğəmbərimiz (s.ə.v) də hədis-i şəriflərində ibadətlərin əhəmiyyətinə və dəqiqlik göstərilməli olduğuna diqqət çəkmişdir. Məsələn, 5 vaxt namazın vacibliyi ilə əlaqədar olaraq Əbu Hureyrə (r.ə)-dən rəvayət edilən bir qüdsi hədisində Rəsulullah belə buyurur:

**"Beş vaxt namaz, gələcək həftəyə qədər cümə, gələcək ilə qədər ramazan, böyük günahlardan çəkinilirsə, aralarındakı günahlar üçün kəffarədir." (**Müslim) (Riyazü's Salihin, İmamı Nevevi, tərcümə edən: Mehmet Emre, Bedir yayınevi, sf. 698)

Allah, dini inkar etmə yanılmasına düşən insanların məsxərəçi rəftarları haqqında daha bir çox ayə nazil etmişdir. Və möminlərə də bu tərz danışıqlarla qarşılaşdıqlarında necə bir əxlaq sərgiləməli olduğunu da belə nəsihət etmişdir:

**Ayələrimizi istehza edənləri gördüyün zaman: onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir ... (Ənam surəsi, 68)**

Allahın dinini və elçilərini inkar edənlərin, onları lağ mövzusu halına gətirənlərin axirət günündəki sonu isə bir ayədə bu şəkildə bildirilir:

**Küfr etdiklərinə, ayələrimi və elçilərimi lağ mövzusu etdiklərinə görə onların cəzası cəhənnəmdir. (Kəhf surəsi, 106)**

**Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 57)**

Elçlərin etdikləri açıq-aşkar dəvətlərə və xatırlatmalara baxmayaraq insanların çox böyük bir hissəsi ayələrdən üz çevirər. Ancaq Allahın bu ayəsində də xəbər verdiyi kimi, onların bu küfrləri də Allahın diləməsiylə və əmri ilə həyata keçir. Bu kəslərin inkar içində olmaları, məsxərələri və anlayışsızlıqları onlar üçün müəyyən edilmiş bir hökmdür. Anlamaq üçün nə qədər cəhd etsələr, nə qədər iradə göstərsələr də bunu bacara bilməzlər. Onlar da qədərlərini yaşamaq məcburiyyətindədirlər.

Hidayəti verən ancaq Allahdır. Və Allah küfrü bu kəslərin qədərinə yazmışdır. Bu səbəbdən heç bir dəvətin, ya da təbliğin bu insanlar üzərində Allah diləmədikcə təsir etməsi mümkün deyil. Allah onların inanmalarını ürəklərinə pərdə endirərək əngəlləmişdir. Ayələrdə bu şəkildə bildirilir:

**Aralarında səni dinləyənlər də vardır. Quranı anlamasınlar deyə onların qəlblərinə pərdə çəkdik, qulaqlarına da tıxac vurduq. Onlar istənilən ayəni görsələr belə, yenə də ona inanmazlar.... (Ənam surəsi, 25)**

**Allah onların ürəyinə və qulağına möhür vurmuşdur; Gözlərində də pərdə vardır. Və onları böyük bir əzab gözləyir. (Bəqərə surəsi, 7)**

Allah bu insanların "sonsuza qədər" inanmayacaqlarını Quranda bildirmişdir. Rəbbimiz bu ayə ilə bizlərə qədərin dəyişməsinin əsla mümkün olmadığını, -biz nə qədər cəhd etsək də- bir insanın taleyindən kənar heç bir şey yaşaya bilməyəcəyini xatırladır.

**Rəbbin Bağışlayandır, mərhəmət sahibidir. Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi. Lakin onların öz vaxtı vardır. Əzab gələcəyi vaxt onlar heç bir sığınacaq tapa bilməyəcəklər. (Kəhf surəsi, 58)**

Ayədə Allahın qulları üzərindəki sonsuz şəfqət və mərhəməti xatırladılır. Rəhman olan Allah sonsuz mərhəmətini və lütfünü görünən, ya da görünməyən hər şeydə təcəlli etdirir. İnsanın tənəffüs etdiyi havadan yediyi yeməyə, ürəyinin hər an döyünməsindən, təbiətdəki qüsursuz gözəlliklərə qədər hər bir təfərrüat Allahın qulları üzərindəki sonsuz mərhəmətinin bir təcəllisidir. Bütün insanlar Allahın rəhmətiylə canlanıb, Allahın rəhmətiylə həyatlarını davam etdirirlər.

İnsanlardan bu nemətləri görən, yaradılış məqsədini qavrayaraq Allaha qulluq edənlər olduğu kimi nankorluq edərək Ondan üz çevirənlər də vardır. Allah dünya həyatında nemətlərini bütün insanlara əskiksiz olaraq təqdim edir. İman etməyənlər, münafiqlər və müşriklər də dünya həyatında tənəffüs etdikləri hava, içdikləri su daxil olmaqla gizli açıq bütün nemətlərdən faydalanırlar. Allah möminlərə verdiyi kimi onlara da mal-mülk, içində oturacaqlar gözəl evlər və soylarını davam etdirəcəkləri övladlar verər. Onları da gözəl nemətlərlə bəsləyər. Onlara da sağlamlıq, güc və gözəllik verər.

Allah dünya həyatında inkar edənləri bəlkə dinə dönərlər, düşünüb dərk edərlər və bəlkə şükür edərlər deyə bu nemətlərdən yararlandırır. Lakin bu yararlanmaq yalnız dünya həyatındadır. Axirətdə isə bütün nemətlər, bunları Allaha yaxınlaşmaq və Onun razılığını axtarmaq üçün istifadə edən və Ona şükür edən möminlərə aiddir. Çünki Allah Rəhimdir və O, cənnəti yalnız mömin qullarına müjdələmişdir. Ayələrdə bu mövzuda belə buyurulur:

**Ancaq tövbə edən, iman edən və saleh əməllər edənlər (onların xaricindədir); Bunlar cənnətə girəcəklər və heç bir şeylə zülmə məruz qalmayacaqlar.**

**Ədn cənnətləri (onlarındır) ki, Rəhman (olan Allah, onu) Öz qullarına qeybdən vəd etmişdir. Şübhəsiz ki, Onun vədi yerinə gələcəkdir. (Məryəm surəsi, 60-61)**

Kəhf surəsinin burada açıqladığımız ayəsində vurğulanan bir digər mövzu isə, Allahın əzaba uğradacağı hər cəmiyyət üçün müəyyən edilmiş bir vaxt olduğudur. Hər insanın və hər tayfanın hansı gün, hansı saat, nə şəkildə bir əzabla qarşılaşıb həlak olacağı Allah Qatında müəyyəndir. Allah, "Heç bir ümmət özünə təsbit edilmiş əcəlini nə qabaqlaya bilər, nə təxirə sala bilər." (Muminun surəsi, 43) ayəsiylə bu həqiqəti bildirmişdir.

Ölkələri həlaka uğradacaq olan zəlzələnin, selin, qasırğanın, ya da hər hansı bir əzabın gəliş vaxtı, şiddəti, nə qədər davam edəcəyi, necə bir təsir meydana gətirəcəyi Allahın qədərdə təqdir etdiyi halıyla bəllidir. Bütün zamanları əhatə edən Rəbbimiz, inkar edərək hesab gününə inanmayan bu insanların taleyində o günü, hətta dəqiqəni və saniyəni təyin etmişdir. Allah Taha surəsində bu şəkildə bildirir:

**Musa dedi: "Çıx get! Sən həyatın boyu: "Mənə toxunmayın, mən də sizə toxunmayım!" - deməli olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq. (Taha surəsi, 97)**

## Budur haqsızlıq etdikləri zaman məhv etdiyimiz məmləkətlər. Biz onları məhv etmək üçün vaxt müəyyən etmişdik. (Kəhf surəsi, 59)

Bu ayədə Allahın hökmlərinə qarşı çıxan heç bir millətin və ölkənin baki qalamayacağına işarə edilir. Allaha və dinə hörməti olmayan, Quran əxlaqına zidd hərəkət edən hər cəmiyyət mütləq viran olacaq, tarix səhnəsindən silinəcək.

Tarix boyunca Allahın hökmlərinə qarşı düşməncə bir siyasət aparan, İslam əxlaqına qarşı sanki müharibə elan edən bir çox birlik olmuşdur. Son 100 il içində dünyanı qana bulayan kommunist rəhbərliklər bunun ən yaxın nümunələridir. Kommunizmin iqtidara gəldiyi ölkələrdə dini təşkilatlar aradan qaldırılmış, dindar xalqa qarşı çox böyük bir zülm siyasəti aparılmış, din adamları mərhəmətsizcə qətl edilmiş, müqəddəs kitabların oxunması belə qadağan edilmişdir. Ancaq bu rejimlərin heç biri qalıcı ola bilməmişdir; bu gün geri dönüb baxdığımızda hər birinin tək-tək tarix səhnəsindən çəkildiyinə şahid olarıq.

Quranda da insanlara zülm etməyi bir siyasət halına gətirmiş bir çox qövmün nümunəsi verilir. Bu qövmlərdən biri də Firon və öndə gələn ətrafıdır. Firon hz. Musanın təbliğini açıq şəkildə inkar etmiş, iman edənlərə böyük zülmlər tətbiq etmişdir. Ancaq onun təzyiq və şiddət baxımından güclü olan rəhbərliyi də qalıcı olmamış, çox böyük bir fəlakətlə yer üzündən silinmişdir. Fironun başına gələnlər ayələrdə belə xəbər verilir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik. Firon və onun qoşunu zülm və düşmənçilik məqsədilə onları təqib etdilər. Nəhayət Firon dənizdə batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!" Firona deyildi: "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir. (Yunis surəsi, 90-92)**

Bu kimi zalım rejimlərin müəyyən bir müddət iqtidarda qalmaları, zülmlərini müəyyən bir dövr ərzində davam etdirmələri isə Allahın dünya həyatında yaratdığı imtahanın bir gərəyidir. Allah bir ayəsində hz. Məhəmməd (s.ə.v)-ə **"Allahı Zalımların etdikləri əməllərdən əsla qafil sanma, onları yalnız gözlərin dəhşətlə bərələcəyi bir günə təxirə salır.**" (İbrahim surəsi, 42) şəklində səslənərək, zülm edənlərin mütləq qarşılıq görəcəklərini bildirmişdir. Dünya üzərindəki bu zülmün yaradılış hikməti isə Bəqərə surəsində bu şəkildə açıqlanır:

**And olsun ki, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edənlərə müjdə ver. Onlara bir müsibət üz verdikdə, deyərlər ki: "Biz Allaha aid (qullar) ıq və Ona da qayıdacağıq." (Bəqərə surəsi, 155-156)**

Ayədə həmçinin bu ölkələrin "zülmləri"ndən ötrü əzabla qarşılıq gördüklərindən bəhs edilir. Bu nöqtədə Qurandakı zülm anlayışını araşdırmaq lazımdır. Quranda zülm edənlərin Allaha şirk qoşan, Onun ayələrini inkar edən, elçiləri yalan hesab edən kəslər olduqları xəbər verilir. Allah **"... ancaq zalımlardan başqası, Bizim ayələrimizi inkar etməz.**" (Ənkəbut surəsi, 49) ayəsiylə bu həqiqəti bizlərə bildirmişdir. Bu mövzudakı ayələrdən bəziləri bunlardır:

**Kafirlər dedilər: "Biz nə bu Qurana, nə də bundan əvvəlkilərə əsla inanmayacağıq!" Kaş sən o zalımları öz Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları anda görəydin. ... "(Səba surəsi, 31)**

**Musanın ardınca qövmü öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmürdülərmi? Buna baxmayaraq ona məbud kimi sitayiş edib zalımlardan oldular. (Əraf surəsi, 148)**

**Özlərinə aydın dəlillər gəldiyi və Peyğəmbərin həqiqi peyğəmbər olduğuna şahid olduqları halda, iman gətirdikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər? Allah zalım bir qövmü doğru yola yönəltməz. (Ali İmran surəsi, 86)**

**Ayələrimizi istehza edənləri gördüyün zaman: onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Şeytan sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma. (Ənam surəsi, 68)**

Yuxarıdakı ayələrdə xəbər verildiyi kimi, Allahın kitablarını inkar edənlər, Allahdan başqa varlıqları ilah olaraq qəbul edənlər, elçilərin haqq olduğunu gördükləri halda imanlarından sonra inkara düşənlər, Allahın ayələri ilə istehza edənlər zalımlardır. Rəbbimizin Quranda zülm olaraq xarakterizə etdiyi daha bir çox pis davranış vardır. Qısacası zülm, Allahın əmr etdiyi əxlaqı mənimsəməyən və Onun əmr etdiyi ibadətləri yerinə yetirməyən, Allaha və dinə qarşı təkəbbürlü olan, axirəti və hesab gününü inkar edən insanların və xalqların bütün davranışlarıdır.

Ancaq bunu da unutmamaq lazımdır ki, Quranda inkar edən hər qövmün və hər insanın, həm dünya həyatında, həm də axirətdə çox böyük bir əzaba düçar olacağını bildirilmişdir. Allah bir ayədə bu şəkildə bildirir:

**İnkar edənləri isə, dünyada və axirətdə şiddətli bir əzabla cəzalandıracağam. Onların heç bir köməkçisi yoxdur. (Ali İmran surəsi, 56)**

Görüldüyü kimi, ayədə zülm edən hər birliyin mütləq Allahın sonsuz əzabıyla qarşılaşacağı, dünya həyatında da əzaba düçar olacağını bildirilir. Bu əzab anı isə Kəhf surəsində "görüşmə zamanı" olaraq ifadə edilmişdir. Bu an gəldiyində zülm edən birlik nə qədər güclü, nə qədər izdihamlı, ya da nə qədər sərt olarsa olsun mütləq məhv olacaq, yer üzündən silinib gedəcək. Çünki bu, Allahın bir qanunudur.

Quranda diqqət çəkilən bir başqa mövzu isə müsibətin əvvəlində, əgər bir ölkə xalqı kütləvi olaraq həlak ediləcəksə, o qövmə göndərilən elçi ilə müsibəti yerinə yetirməklə vəzifəli mələklərin görüşmə zamanı olduğudur. Bu görüşmədə, elçi və vəzifəli mələklər

bəhsi keçən qövm üçün əzabın gələcəyi anı təsbit edərlər. Quranda bu mövzuda verilən bir nümunə hz. Lutu mələklərin ziyarət etməsidir.

Hz. Lut azğın qövmünü uzun müddət boyunca iman etməyə dəvət etmiş, yaşadıqları azğınlığı tərk etmələri üçün onlara xəbərdar etmişdir. Ancaq Allahın ayələrini inkar edən və əxlaqsızlığı həyat şəkli halına gətirən Lut qövmü, hz. Lutun bu dəvətini həmişə rədd etmiş və inkar etməkdə dirənmişlər. Bundan sonra həlak olmaq, onların üzərinə haqq olmuşdur. Bu həlak xəbərini isə mələklər hz. Luta səfər etdikləri zaman bildirmişlər. Ayələrdə bu ziyarət bu şəkildə çatdırılır:

**Elçilərimiz Lutun yanına gəldikləri zaman o, onlara görə kədərləndi və ürəyi sıxıldı. Dedilər ki: "Qorxma və kədərlənmə. Arvadın xaricində, səni və ailəni xilas edəcəyik. O isə, arxada qalacaq." "Şübhəsiz ki, Biz, fasiqlik etmələrindən ötəri, bu ölkə xalqının üstünə göydən bir əzab endirəcəyik." (Ənkəbut surəsi, 33-34)**

**Elçilər Lut əhlinin yanına gəldikdə o dedi: "Siz yad adamlarsınız!" Onlar dedilər: "Xeyr, biz sənin yanına onların şübhə etdiyi əzab ilə gəlmişik. Biz sənin yanına doğru xəbərlə gəlmişik. Həqiqətən də, biz doğru danışanlarıq. Gecənin bir vaxtı ailəni yola çıxart və özün də onların arxasınca get. Sizdən heç kəs çevrilib arxaya baxmasın. Sizə əmr olunan yerə yollanın". (Hicr surəsi, 61-65)**

Ayələrdə də görüldüyü kimi elçilər hz. Lutu ziyarət etdiklərində ona, baş verəcək dağıntını xəbər vermiş və əzabın "vuruş anı" nı müəyyənləşdirmişlər. Bu zaman hz. Lut qövmü üçün "dan yerinin ağarma vaxtı" olaraq təyin olunmuş və ayələrdə belə xəbər verilmişdir:

**Sənin canına and olsun ki, onlar sərxoşluqları içində veyl-veyl gəzirdilər. Günəş doğanda qorxunc səs onları yaxaladı. Oranın altını üstünə çevirdik və onların üzərinə odda bişmiş gil daşlar yağdırdıq. Şübhəsiz ki, bunda başa düşənlər üçün dəlillər vardır. (Hicr surəsi, 72-75)**

**Bir zaman Musa öz xidmətçisinə belə demişdi: "Mən iki dənizin qovuşduğu yerə çatana qədər yaxud uzun illər sərf edənə qədər səfərimə davam edəcəyəm". (Kəhf surəsi, 60)**

Bu ayədə istifadə olunan "gənc" sözü ilə, bir iş edilərkən gənc insanların da köməyindən istifadə etmək və onlarla birlikdə hərəkət etmənin əhəmiyyətinə işarə edilmiş ola bilər.

Gənclərin yaşlarından doğan enerjilərini, dinamikalarını, güclərini, şövq və həyəcanlarını Allah rizası üçün xeyir işlərində istifadə etməyə təşviq etmək tələb olunur. Necə ki, ayələrdə də bu mövzuya diqqət çəkilir, hz. Musaya öz qövmündən yalnız bir bölüm gəncin iman etdiyindən bəhs edilir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

Kəhf surəsinin 60-cı ayəsində diqqət çəkilən bir başqa mövzu isə hz. Musanın üzərində dayandığı görüş yeridir. Hz. Musa çıxdığı səfərdə bir adamla görüşməyi hədəfləyir və özünə bu görüş yerinin "iki dənizin birləşdiyi bir bölgə" olaraq bildirildiyi aydın olur. Hz. Musanın bəhs etdiyi yer də dünyada bu təsvirə uyğun gələn bölgələrdən hər hansı birində ola bilər.

Ayədə xəbər verilən "uzun zamanlar keçirəcəyəm" ifadəsi isə görüşmə yerinin qəti olaraq təyin olunduğuna diqqət çəkilir. Çünki hz. Musa başqa bir yerə deyil, çox uzun zaman keçsə belə, mütləq daha əvvəldən təyin olunan o yerə getməli olduğunu bilir. Görüşün başqa bir yerdə olması mümkün deyil. İki dənizin qovuşduğu yerdə görüşəcəkləri qətidir və bu, görüşün bir şərti olaraq bildirilmişdir. Bu səbəblə, hz. Musa aradan nə qədər müddət keçərsə keçsin, bu məkana çatmaq üçün səy sərf edəcək və lazım olarsa orada gözləyəcəkdir.

**Hər ikisi o dənizlərin qovuşduğu yerə gəlib çatdıqda özləri ilə götürdükləri balığı unutdular. Balıq isə dənizdə suyun altı ilə yol alıb getdi. (Kəhf surəsi, 61)**

Ayədən hz. Musa və gənc köməkçisinin yanlarında yemək üçün bir balıq gətirdikləri aydın olur. Ancaq hələ yemə vaxtları gəlmədən əvvəl, Allah bu balığı ikisinə birdən unutdurdu, balıq da onların unutduqları zaman axıntıya doğru gedib, yanlarından uzaqlaşmışdır.

Bir insanın öz iradəsi ilə bir mövzunu unutması, ya da yenə öz iradəsiylə hər hansı bir şeyi xatırlaması qətiyyən mümkün deyil. Burada da onlara balığı unutduran Allahdır. Bunu unutmaları hər ikisinin də qədərlərindədir, onlar daha dünyaya gəlmədən çox əvvəl yazılmışdır. Vəziyyət belə olduğu üçün, onlar nə qədər iradə göstərsələr, nə qədər xatırlamağa çalışsalar da Allah diləmədikcə hər hansı bir şeyi xatırlamaları qətiyyən mümkün deyil. Allah dilədiyi zaman dilədiyi qədəriylə bu hadisəni xatırlaya və yenə Allahın diləməsiylə bu hadisəni yaddaşlarında tuta bilərlər.

Ancaq bu unutqanlığın bir çox hikmətləri vardır. Allah bir xeyir və hikmət üzərinə ikisinə birdən yeməklərini unutdurmuşdur. Hz. Musanın iki dənizin qovuşduğu yerə gəlməsinin səbəbi, Kəhf surəsinin davamında haqqında məlumatlar verilən əhəmiyyətli və mübarək bir şəxslə görüşməkdir. Qədərdə müəyyən edilmiş bu yerə çatmaq üçün hz. Musa və gənc köməkçisi uzun zaman keçirmişlər. Ancaq bu görüşün tam yerinə çata bilmək üçün daha çox təfərrüata ehtiyacları vardır. Çünki iki dənizin birləşdiyi yer olaraq ifadə edilən məkan geniş bir sahəni ifadə edir. Belə geniş bir sahənin hansı nöqtəsində görüşəcəklərini bilmədən, axtardıqları adamı tapmaları çox çətin ola bilər.

Məhz bu mərhələdə balığın qaçmasının bir hikməti ortaya çıxır. Bu qaçış açıq şəkildə bir işarədir. Çünki balıq, axtardığı mübarək şəxs ilə hz. Musanın görüşəcəkləri yerin təfərrüatının təsbitində bir vəzifə boynuna götürmüşdür. Musa peyğəmbər və köməkçisinin unutması nəticəsində balığın qaçdığı yer, onların görüşmə nöqtəsini müəyyən edir. Allah bu görüşmənin təyinat nöqtəsinin, balığın qaçışını vəsilə edərək gerçəkləşdirir.

Bu ayə ilə ümumi olaraq görüşmə yerinin müəyyən edilməsində təyinat nöqtəsinin əhəmiyyətinə də işarə edilmişdir. Kəhf hekayəsində bildirilən bu hadisədə görüşmə yeri, yaxşı yadda qalacaq əhəmiyyətli bir əlamətlə təyin olunmuşdur. Ümumi görüşlərdə də belə qəti bir nöqtə təyini edilməsi vacibdir. Bu, həm əksiklikləri aradan qaldıracaq, həm vaxt itkisinin qarşısını alacaq, həm də görüşəcək kəslərə bir asanlıq təmin edəcək.

**Onlar dənizlərin qovuşduğu yerdən çıxıb getdikdə Musa öz xidmətçisinə: “Nahar yeməyimizi gətir. Biz bu səfərimizdə lap əldən düşdük” – dedi. (Kəhf surəsi, 62)**

Ayədə, hz. Musa ilə gənc köməkçisinin, axtardıqları yeri keçdikdən sonra yorulduqları və yemək yemə ehtiyacı hiss etdikləri xəbər verilir. Yeməklərini hazırlamaq istədikdə isə balıq ağıllarına gəlmiş və beləcə balığı unutduqlarını anlamışlar.

Allah onlara ilk əvvəl balığı unutdurmuş, daha sonra da qədərlərində təyin olunmuş bir anda onların bu unutduqları mövzunu xatırlamalarını təmin etmişdir. Bu xatırlama ilə də görüş yerinə və görüş nöqtəsinə diqqətlərini çəkmişdir.

Allahın görüş yerinin təsbitində, hz. Musa və köməkçisinin ağıllarına mütləq gələcək olan balığı seçməsi əhəmiyyətlidir. Çünki onlar, uzun səfər sonrası mütləq yorulacaq və acacaqlar. Bunun gerçəkləşməsi Allahın izni ilə qəti olan bir hadisədir. Və acdıqları zaman yanlarında yemək üçün gətirdikləri balığa yönəlmələri də mütləq reallaşacaq bir hadisədir. Acdığında yemək yemək hər insan üçün zəruri bir ehtiyacdır. Aydın olur ki, Allahın görüş yerinin təyinində yanlarında yemək olaraq saxladıqları balığı seçməsinin hikmətlərindən biri də bu ola bilər.

**Xidmətçi dedi: “Qayanın yanında gizləndiyimiz vaxt yadına gəlirmi? O zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız şeytan unutdurdu. Balıq dirilib qəribə bir şəkildə dənizdə yol tutub getmişdir”. Musa: “Elə istədiyimiz də bu idi!” – dedi. Sonra onlar öz ləpirlərinin izinə düşüb geri qayıtdılar. (Kəhf surəsi, 63-64)**

Ayələrdə hz. Musa və köməkçisinin balığı unutduqlarını xatırladıqda, itirdikləri yeri də xatırladıqları ifadə edilir. Bu yer isə, hz. Musanın sözlərindən aydın olduğuna görə bir qayalıqdır. İki dənizin qovuşduğu yerdəki qayalıq nöqtə, hz. Musanın bəhsi keçən mübarək adam ilə görüşəcəyi yerdir. Hz. Musa balıq vəsiləsiylə, hz. Xızır olduğu təxmin edilən müqəddəs şəxs ilə görüşəcəkləri yeri tam olaraq təsbit edə bilmişdir. Bundan sonra isə balığın vəzifəsi bitmiş və balıq da dənizdə yolunu tutmuşdur.

Bu ayədə həmçinin, hz. Musanın gənc köməkçisi, balığın yerini ona unutduranın şeytan olduğunu ifadə edir. Şeytanın unutdurma təsiri digər ayələrdə bu şəkildə bəhs edilir:

**Ayələrimizi istehza edənləri gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Şeytan bunu sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma. (Ənam surəsi, 68)**

**İkisindən qurtulacağını yəqin etdiyi adama dedi ki: "Ağanın yanında məni xatırla." Lakin şeytan, ona ağasının yanında yada salmağı unutdurdu və beləcə daha neçə-neçə illər (Yusif) zindanda qaldı. (Yunis surəsi, 42)**

Ancaq burada əhəmiyyətli bir xatırlatma daha etmək lazımdır: Şeytanın tək başına heç bir gücü yoxdur. Şeytana, bir insanda unutma kimi mənfi bir təsir meydana gətirmə gücünü verən Allahdır. Allah, bütün gücün və qüvvətin tək sahibidir. Allahın izni olmadan heç bir varlığın öz iradəsiylə bir iş reallaşdırması mümkün deyil. Allah **"... Onun, kəklindən tutub nəzarət etmədiyi elə bir canlı yoxdur ..."** (Hud surəsi, 56) ayəsində bildirildiyi kimi, bütün varlıqların bütün hərəkətlərinə nəzarət edəndir. Bu səbəbdən hz. Musaya və köməkçisinə balığı unutduran da əslində şeytan deyil, şeytan da daxil olmaq üzrə kainatdakı bütün varlıqların yeganə hakimi olan Uca Allahdır. Necə ki, balığın unudulması hz. Musa və köməkçisi üçün xeyirli bir hadisə olmuş, Allahın təyin etdiyi qədər bu şəkildə xeyirlə işləmişdir.

Kəhf surəsinin 64-cü ayəsində isə hz. Musa və gənc yoldaşının, balığın qaçdığı qayalıq yerin görüşmə nöqtəsi olduğunu fərq etdikləri aydın olur. Bunu anlayınca da xatırladıqları bu məkana doğru yola düşmüşlər. Ayədə keçən "geriyə doğru getdilər" ifadəsi də daha əvvəl keçib, balığı unutduqları qayalığa doğru getdiklərini göstərir. Çünki yeni bir yerə getmir, daha əvvəl getdikləri bir yerə təkrar dönürlər.

## Onlar orada Öz tərəfimizdən mərhəmət bəxş etdiyimiz və elm öyrətdiyimiz (ledun elmi) qullarımızdan birinə rast gəldilər. (Kəhf surəsi, 65)

Əvvəlki hissələrdə də açıqladığımız kimi Allah qullarına qarşı sonsuz mərhəmət sahibidir, Rəhman və Rəhimdir. Hz. Musanın görüşmək üçün yola çıxdığı hz. Xızır isə Allahın ona rəhmət verdiyi bir insandır. Yəni Allahın Rəhman və Rəhim sifəti hz. Xızır üzərində təcəlli edir. Allah, hz. Xızıra Öz Qatından üstün bir elm vermiş və onu üstün bir qul etmişdir.

Hekayənin davamında da hz. Xızırın üstün mərhəmət anlayışının bir çox nümunəsini görəcəyik.

Bu nöqtədə Qurandakı mərhəmət anlayışının da üzərində dayanmaq lazımdır. Allahın, **"Sonra da iman gətirən və bir-birinə səbri tövsiyə edən, mərhəməti tövsiyə edənlərdən olmaq. Onlar sağ tərəf sahibləridir!"** (Bələd surəsi, 17-18) ayələrində də bildirdiyi kimi mərhəmətli olmaq, bir mömin xüsusiyyətidir.

Həyatlarını Allahın razılığını qazanmağa həsr edən möminlər, Allahın bu hökmünü əskiksiz və qüsursuz olaraq yerinə yetirməyə çalışırlar. Onların mərhəmət anlayışlarının əsasında Allaha olan səmimi imanları yatar. Möminlər Allahın iznindən kənarda heç bir hadisənin reallaşmayacağını və Onun özlərinə bəxş edəcək hər şeyə möhtac olduqlarını bilirlər. Bu səbəbdən, bu qavrayışdan qaynaqlanan bir təvazökarlığa sahibdirlər. Təvazökarlıq sahibi olmayan bir insan həqiqi mənada mərhəmətli də ola bilməz. Çünki yalnız özünü düşünər və öz maraqları, öz nəfsinin istəklərini hər kəsdən üstün tutar. Bu səbəblə, başqalarının ehtiyaclarını, əskikliklərini heç əhəmiyyətli hesab etməz. Bunun təbii bir nəticəsi olaraq da kimsəyə qarşı şəfqət və mərhəmət hissləri bəsləyə bilməz. Halbuki təvazökar və Allaha tam təslim olmuş bir insan, Allahın yaratdıqlarına qarşı da dərin bir şəfqət və mərhəmət hiss edər.

Möminlərin mərhəmət göstərmədəki qərarlılıqlarının bir səbəbi də Allahın razı olacağı kimi bir əxlaqa sahib olmağı istəmələridir. Allah bir çox ayədə açıqlandığı kimi "mərhəmətlilərin ən mərhəmətlisi" dir. Bu səbəbdən möminlər də mərhəməti, güclərinin çatdığı ən son sərhədə qədər yaşamağa çalışırlar. Möminlər, **"Əgər Allahın sizin üzərinizdə fəzli və rəhməti olmasaydı və Allah həqiqətən Rauf (şəfqət edən və) Rəhim olmasaydı (nə edərdiniz)?"** (Nur surəsi, 20) ayəsiylə də bildirildiyi kimi, Allahın onlara olan şəfqətinə və mərhəmətinə möhtacdırlar. Allahın özlərinə mərhəmət etməsini istədikləri üçün də digər möminlərə qarşı əllərindən gəldiyincə mərhəmətli olmağa çalışırlar.

Möminlər hər mövzuda olduğu kimi mərhəmət mövzusunda da özlərinə ölçü olaraq yalnız Quranı götürürlər. Bu səbəblə də, mərhəməti ancaq Allahın mərhəmət edilməsini bildirdiyi hallarda və yenə Allahın təyin etdiyi şəxslərə göstərirlər.

Bəzən bir möminə olan sevgi və mərhəmət, nəfslərinə çətin və ağır gələ biləcək bəzi nöqtələrdə onlara müdaxilə və ya tənqidlər etməyi tələb edə bilər. Qarşılarındakı adamın etdiyi pis bir rəftarda onu tənqid edə, yəni Quranda əmr edildiyi üzrə pislikdən uzaqlaşdıra bilərlər. Əsl mərhəmət də budur. Hər müsəlman, bacı-qardaşının Qurandan kənar bir hərəkətini əngəlləməyi gözə alar, amma o adamın sonsuz həyatını cəhənnəmin içində keçirməsini gözə ala bilməz. Bu səbəblə də, Allahın ən çox razı olacağı əxlaqı yaşaması istiqamətində təşviq edərək onu cənnətə hazırlayar. Unutmamaq lazımdır ki, əsl mərhəmətsizlik, qarşı tərəfin axirətini düşünmədən, etdiyi səhv işlərə bilərək kənardan izləyici olmaqdır.

Allah Peyğəmbərimiz (s.ə.v)-in mərhəmət anlayışını bir ayədə "**And olsun sizə, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizə qarşı qayğıkeş, möminlərə şəfqətli və mərhəmətli olan bir elçidir"** (Tövbə surəsi, 128) ifadəsiylə bildirmişdir. Məhz bu əxlaqı özlərinə nümunə götürən inananlar da bir-birlərinin axirət mənfəətlərini güdərək, Allahın əmr etdiyi şəkildə davranarlar.

## Musa ona dedi: "Sənə öyrədilmiş doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənin arxanca gələ bilərəmmi?" (Kəhf surəsi, 66)

Ayələrdə bəhs edilən ifadələrdən, hz. Musanın görüşəcəyi bu mübarək insan haqqında daha əvvəldən vəhy ilə ətraflı məlumat aldığı aydın olur. Bəhs edilən vəziyyəti ortaya qoyan bir çox dəlil vardır. Məsələn, hz. Musa görüşəcəyi yerə, olduğu yer görə olduqca uzaq olmasına baxmayaraq getmək üçün səy sərf etmişdir. Çünki orada görüşəcəyi insanın özünə çox-çox fayda verəcəyinə əmindir. Bunun hər hansı bir görüş olmadığını, çox xüsusi bir görüş olduğunu bilir. O səbəblə hər cür çətinliyi gözə alaraq, uzun bir yol qət etmişdir.

Həmçinin görüşən kimi qarşısındakı insanı dərhal tanımış, onun üstün əxlaqını və elmini fərq etmiş və ona tabe olmağı tələb etmişdir. Bu da qarşısındakı insanın elm öyrədilmiş, mübarək bir adam olduğunun özünə əvvəlcədən bildirmiş ola biləcəyini göstərir. (Ən doğrusunu Allah bilir.)

Görüşəcəyi bu insanın doğru yolda olan və doğru yola yönəldən bir insan olduğu, bu insana tabe olmalı olduğu və ondan məlumat öyrənməli olduğu hz. Musaya vəhy yolu ilə bildirilmiş ola bilər. (Ən doğrusunu Allah bilir.) Üstəlik ondan aldığı bu məlumat və elm ilə hz. Musanın doğru yola çatacağını da bildiyi aydın olur. Bu səbəblə də onu gördüyündə tabe olmaq istədiyini dərhal söyləmişdir.

## Xızır dedi: "Doğrusu, sən mənim yanımda səbir edə bilməzsən. (Kəhf surəsi, 67)

Ayələrdə diqqət çəkildiyini görə hz. Xızır da hz. Musa haqqında ətraflı məlumata malikdir. Üstəlik söhbətlərindən hz. Xızırın gələcəyə dair məlumatlara da Allahın bildirməsi ilə sahib olduğu aydın olur.

Hz. Xızır, hz. Musanın tələbini dinlədikdən sonra ona dərhal özüylə birlikdə olmağa səbir göstərə bilməyəcəyini söyləmişdir. Daha heç bir hadisə olmadan, hz. Musanın necə bir

rəftar göstərəcəyini bilmədən və görmədən hz. Xızırın belə bir fikirdə olması çox diqqət çəkicidir. Bunun səbəbi isə hz. Xızırın gələcəyi bilməsidir. (Ən doğrusunu Allah bilir.)

Bu məlumatın hz. Xızır tərəfindən bilinməsi, hər şeyin Allahın diləməsiylə olduğuna da bir işarədir. Çünki gələcək haqqındakı məlumatı Allah ancaq istədiyi qullarına, dilədiyi qədəriylə verir. Hz. Xızırın gələcəkdən xəbər verməsi də ancaq Allahın təqdiri ilə mümkündür. Kitabın əvvəlki hissələrində də ətraflı açıqladığımız kimi Allah qullarından istədiyinə qeybin xəbərlərini verə bilər.

Hz. Musanın, hekayənin sonrakı hissələrində qarşılaşacağı hadisələr çoxdan nəticələnmişdir və Allah Qatında hər anıyla bilinir. Yaşayacağı hadisələr, hz. Musanın qədərində yazılmışdır. Bu da insanın, Allahın qədərində təqdir etdiyindən kənarda heç bir şey yaşayamayacağına açıq bir dəlildir.

Möminlərin bu elmi qavramış, Allaha və qədərə təslim olmuş, təvəkküllü kəslər olması lazım olduğu bir ayədə bu şəkildə bildirilir:

**De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər" (Yunis surəsi, 49)**

## Axı sən səbəbini bilmədiyin bir şeyə necə səbir edə bilərsən?" (Kəhf surəsi, 68)

İnsanın gün ərzində başına bir çox hadisə gəlir. Çətinliklərlə, sıxıntı verici vəziyyətlərlə, sevinc və hüzur verən hadisələrlə qarşılaşır. Ancaq insanların böyük bir hissəsi Allahın varlığını və hər hadisənin Allah qatında bir qədər üzrə təyin edildiyini düşünmədikləri üçün, başlarına gələn hadisələri şans, ya da təsadüf kimi həqiqətdən kənar anlayışlarla izah etməyə çalışırlar. Bu da olub bitənlərə xeyir gözüylə baxmalarını, yaşadıqlarından hikmətli nəticələr çıxara bilmələrinə mane olar. Bu səbəblə də həmişə çətinliyə, kədərə düşər, bədbəxt olarlar. Bu, iman edənlərlə inkarçılar arasındakı çox böyük fərqdir. Çünki iman edənlər hər hadisənin Allahın diləməsiylə və çox böyük bir xeyirlə yaradıldığının şüurundadırlar.

Quranda bir çox ayədə xəbər verilən bu həqiqəti ürəyi ilə qəbul edən bir insan, dünya həyatında hər nə hadisə ilə qarşılaşırsa qarşılaşsın, vəziyyətindən məmnun olmağı və bu hadisənin ardında gizlənən gözəllikləri və hikmətləri görə bilməyi bacarar. Allah, hər

hadisəni çox incə bir plan üzərinə, sonsuz ağıl və hikmət ilə yaratmışdır. İnsanın gözlərini dünyaya açdığı andan etibarən qarşılaşdığı yaxşı, ya da pis kimi görünən hər hadisəni Allah yaradır. Həyatı bir bütün olaraq yer üzünün tək hakimi olan Allah idarə edir. Allah qüsursuz, mükəmməl, hikmətli və ən gözəl şəkildə yaradandır. Elə isə insana düşən bu mükəmməlliyi görüb təqdir etməkdir. Və Allahın sonsuz ağlının ola biləcək ən qüsursuz nəticələri yaradacağını bilərək, hər hadisənin xeyir və hikmət istiqamətini görməyə çalışmaqdır. Çünki Allaha iman edən və imanı ilə hər hadisəni xeyir gözüylə qiymətləndirib, xeyirə yozan bir insan dünyada da, axirətdə də həmişə xeyir və gözəlliklə qarşılaşacaq.

Allah sonsuz, insan isə məhdud bir ağıla malikdir. İnsan ancaq hadisələrin xaricdən görünən qismi ilə təmasda ola bilir və ancaq öz anlayışı ilə bu hadisələri qiymətləndirməyi bacarır. Bəzi insanlar məhdud məlumat və anlayışı ilə bəzən xeyir və gözəllik olan bir hadisəni mənfi, pis olan bir hadisəni isə müsbət və xeyirli olaraq qiymətləndirirlər. Bu vəziyyətdə doğruları görə bilmək üçün iman edən bir insanın etməli olduğu şey, Allahın sonsuz ağıl və məlumatına təslim olaraq, hər hadisəyə xeyir gözüylə baxmaqdır. Çünki mənfi kimi görünən hər hadisə də iman edən bir insan üçün əslində bir "qədər dərsi" dir. Necə ki, Allah bir ayədə belə buyurur:

**Olar ki, xoşunuza getməyən bir şey, sizin üçün xeyirlidir və olar ki, sevdiyiniz şey də sizin üçün bir şərdir. Allah bilir, siz bilməzsiniz. (Bəqərə surəsi, 216)**

## Musa dedi: "İnşaAllah, səbirli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam". (Kəhf surəsi, 69)

Ayədə görüldüyü kimi, hz. Musa, hz. Xızırın söylədiyi sözlər qarşısında dərhal müsəlmanca bir rəftar göstərir " **İnşaAllah" -yəni "əgər Allah dilərsə**" - deyə cavab verir. Bu söz möminlərin Allaha təslim olmalarının, qədərin hər an işlədiyini bildiklərinin, Allah dilədikcə heç bir şeyə güc yetirə bilməyəcəyinin fərqində olduqlarının bir ifadəsidir.

Kəhf surəsinin 23 və 24-cü ayələrinin şərhlərində də bəhs etdiyimiz kimi, heç bir şey üçün "onu sabah edəcəyəm!" deməmək, " **Allah dilərsə (inşaAllah)"** demək Allahın bir əmridir.

Hz. Musanın bu cavabı ilə Allah, müsəlmanların bir işə başlamadan, bir qərar vermədən, sabahısı gün üçün bir plan qurmadan əvvəl mütləq "inşaAllah" dəmələrinin əhəmiyyətinə diqqət çəkir. Çünki insana o işi həyata keçirməyə gücü və bacarığı verən də, nəticədə müvəffəqiyyətə çatdıracaq olan da yalnız Allahdır.

Müsəlmanların bu çox əhəmiyyətli həqiqəti bir an belə ağıllarından çıxarmamaları, kainatdakı hər hadisənin hər şeydən xəbərdar olan Allahın idarəsində və məlumatında olduğunu unutmamaları lazımdır.

## Xızır dedi: “Əgər mənə tabe olacaqsansa, özüm sənə bir xəbər bildirməyincə məndən heç bir şey haqqında soruşma”. (Kəhf surəsi, 70)

Hz. Musa və hz. Xızır hekayəsi ilə, peyğəmbərlərə və elçilərə tabe olmağın əhəmiyyətinə bir daha diqqət çəkilir. Bu tabelik əsnasında möminlərin diqqətli bir hörmət göstərməyə əhəmiyyət vermələri lazımdır.

Bu mövzuyla əlaqəli olaraq, insanın, tabe olduğu elçinin hər etdiyini bir xeyir və gözəllik olaraq görməsi lazımdır. Elçinin hər etdiyində bir hikmət axtarışı, əgər hikmətini fərq edə bilmirsə də bunun açıqlanmasını səbir və hörmətlə gözləməsi lazımdır. Gərəksiz suallarla narahatlıq meydana gətirmək, maraqlandıqları sözlərlə çətinlik yaratmaq hər möminin çəkinməsi lazım olan davranışlardır.

Əgər edilən bir hərəkətin, ya da deyilən bir sözün hikmətləri görülmürsə, o zaman müsəlmana üzərinə düşən şey; tabe olduğu elçinin və ya mürşidin, hikmətlərini açıqlamasını hörmətlə gözləməkdir. Bu baxış bucağına sahib bir müsəlman, edilənin əslində son dərəcə məqsədəuyğun və doğru olduğunu dərhal fərq edəcək və ilk əvvəldəki rəftarının səhv olduğunu asanlıqla anlayacaq. Necə ki, ayələrdə də tabe olunan adamın lazımlı gördüyü zaman etdiyi işlərin, aldığı qərarların və söylədiyi sözlərin hikmətini nəsihətlə açıqlayacağı bildirilir. Məsələn, hz. Xızır Kəhf surəsinin bu ayəsində "mən sənə nəsihətlə izah edib bəhs edənə qədər" deyərək, hz. Musaya qarşılaşdığı hadisələrin hikmətini açıqlayacağını hiss etdirmişdir.

**Sonra hər ikisi yola düzəlib getdilər. Nəhayət gəlib gəmiyə mindikləri zaman Xızır onu deşdi. Musa dedi: “Sən gəmidə olanları suya qərq etmək üçünmü onu deşdin? Doğrusu, günahı böyük olan bir iş gördün”. (Kəhf surəsi, 71)**

Kəhf surəsinin bu ayəsindən hz. Musanın hz. Xızır ilə olan səfəri əsnasında yanında gənc yoldaşını aparmadığı aydın olur. Bu seçimin bir çox hikməti ola bilər. Ancaq bunlardan biri, ikitərəfli təlimin əhəmiyyətinə işarə etməsidir.

Həqiqətən də ikili təhsil ola biləcək ən yaxşı təhsil şəklidir. İzdihamlı topluluq içində ikən insanların diqqətlərinin dağıldığı, diqqətlərini toplamaqda çətinlik çəkdikləri bilinən bir həqiqətdir. Üç adam olunduğunda belə insanın diqqətinin dağıldığı, təhsilini aldığı mövzuya diqqətini yığmaqda çətinlik çəkdiyi məlumdur. Məhz bu səbəblə, Quranda təkbətək təhsilə işarə edilir. Bu şəkildə adam çox daha asan fikirlərini cəmləyə bilir, diqqətini həmin mövzuya verir və təhsili verən adamla birbaşa ünsiyyət halında olduğu üçün mövzuları çox daha sürətli qavraya bilir. Necə ki, bütün dünyada keçərli olan xüsusi dərs alma sisteminin əhəmiyyəti də bu müsbət üsuldan qaynaqlanır.

Ayədə diqqət çəkilən bir mövzu daha var: Hz. Musa hz. Xızırın çox qiymətli bir adam olduğunu, xeyirlə vəzifələndirildiyini çox yaxşı bilir.

Ayədə bildirilən hadisə, hz. Xızırın ilk qarşılaşdıqlarında ona söylədiyi səbir edə bilməyəcəyi hadisələrdən birinin qədərində reallaşdığı andır. Hz. Xızıra gələcəyə dair verilən məlumatın bir qismi beləcə reallaşmışdır. Hz. Musa isə qədərində yazılı olduğu üçün bu sualı soruşmuşdur. Burada bir peyğəmbər zəlləsi meydana gəlmişdir.

Zəllə, peyğəmbərlərin yanılmaları, unutmaları və ya səhvən etdikləri davranışlarına verilən addır. Bu zəllələrin hər biri çox böyük xeyirlərlə və hikmətlərlə, elçilərin qədərlərində yaradılır. Qədərdə hər bir zəllənin meydana gələcəyi an və yer məlumdur və bəllidir. Allah bu ayələrlə bizlərə bu tip zəlllərin meydana gələ biləcəyini bildirir.

**Xızır dedi: “Mən demədimmi ki, sən mənim yanımda səbir edə bilməzsən?” Musa dedi: “Unutduğum bir şeydən ötrü məni qınama və öz işimdə məni çətinliyə salma!”. (Kəhf surəsi, 72-73)**

Kəhf surəsindəki bu ayələrdə, hz. Xızırın danışıqlarındakı qətiyyət diqqəti çəkir. Hz. Xızır, reallaşacaq olan hadisələri bildirərkən çox əmin bir üslubla danışır. Hz. Musanın heç

bir şəkildə səbir edə bilməyəcəyini "qətiyyən" deyərək ifadə edir, buna gücü yetməyəcəyini dilə gətirir.

73-cü ayədə isə hər şeyin Allahın əmri ilə reallaşdığına təkrar diqqət çəkilir. İnsanın öz iradəsiylə ağzından tək bir söz çıxması, ya da ağzından çıxacaq bir sözü əngəlləməsi qətiyyən mümkün deyil. Çünki insana nitqi verən və onu danışdıran Allahdır. Allah canlı-cansız dilədiyi hər varlığa istədiyini dedirtmək gücünə qadirdir. Necə ki, Quran ayələrində Allahın qiyamət günündə insanların eşitmə, görmə duyğularına və dərilərinə nitq verdiyi bildirilir. Bu vəziyyət ayələrdə belə buyrulur:

**Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir. Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şahidlik edirsiniz?” – deyəcəklər. Dəriləri deyəcək: “Hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz axırda Ona qaytarılacaqsınız”. Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahid olmasından çəkinib gizlənmirdiniz. Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir." (Fussilət surəsi, 20-22)**

Başqa ayələrdə də Allahın icazə verməsi xaricində heç bir varlığın danışmağa qadir olmayacağını Rəbbimiz belə xəbər verir:

**Göylərin, yerin və onların arasında olanlar Mərhəmətli Rəbbindən mükafatdır. Onlar Allahın hüzurunda bir söz deməyə qadir olmayacaqlar. Ruh (Cəbrayıl) və mələklər səf-səf duracağı gün, Mərhəmətli Allahın izin verdiyi kimsələrdən və doğru söz deyənlərdən başqa heç kəs danışmayacaq.(Nəbə surəsi, 37-38)**

Daha əvvəl də tez-tez vurğuladığımız kimi unutmağı və xatırlamağı Allah meydana gətirər. Allah keçmişdən bu günə qədər yaşamış olan bütün insanların zehni fəaliyyətlərinin hamısına hakim olandır. Unutması da, soruşmamalı olan bir sualı soruşması da hz. Musanın qədərində anbaan yazılmışdır. Heç bir insanın, beyninə hakim olub bu unutqanlığa, ya da söyləyəcəyi sözə mane olması mümkün deyil. Allah dilədiyi an, dilədiyi adama istədiyi mövzunu unutdurar. İstəsə, bütün yaddaşını bir anda əlindən alar, istəsə heç bilmədiyi mövzuları onun yaddaşında elm olaraq yaradar. Bunların hamısı Allahın diləməsiylə reallaşar.

Hz. Musanın ayədə keçən "bu işimdə mənə çətinlik çıxarma" şəklindəki sözlərindən isə, hz. Xızırla olan elminin kəsilməsini istəmədiyi aydın olur.

**Yenə yola düzəldilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda Xızır onu öldürdü. Musa dedi: "Heç kəsi öldürməyən günahsız bir canamı qəsd etdin? Doğrusu, çox pis bir iş tutdun". (Kəhf surəsi, 74)**

Hz. Musa hər nə qədər söz versə də, sual soruşmamaq mövzusunda qərar alıb, iradə göstərmək istəsə də taleyinin xaricinə çıxa bilmir və bu sualları soruşmağın qarşısını ala bilmir. Üstəlik, hz. Xızırın Allahın əmri ilə hərəkət edən, elm sahibi bir adam olduğunu bildiyi, ona tabe olduğunu söylədiyi halda, hz. Xızırın etdikləri qarşısında bir reaksiya göstərir. Bu səbəbdən, burada təkrar bir peyğəmbər zəlləsi meydana gəlmişdir.

Ancaq heç unutmamaq lazımdır ki, hər insana canını verən və verdiyi canı alacaq olan yalnız Allahdır. Allah diləmədikcə bir insanın digərini öldürməsi mümkün deyil. Allah Ənfal surəsində bu vəziyyəti bu şəkildə bildirir:

**Onları siz öldürmədiniz, Allah öldürdü; atdığın zaman sən atmadın, Allah atdı. Möminləri yaxşı bir sınaqdan keçirmək üçün (etdi.) Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi, 17)**

Hz. Xızır da Allahın əmri və istəyi ilə hərəkət edən, saleh bir quldur. Etdiyi hər hərəkət, söylədiyi hər söz ancaq Allahın əmri ilə həyata keçir. Üstəlik, bu ölümün bir cana qarşılıq olub-olmadığını Allah diləmədikcə heç kimin bilməsi mümkün deyil. Eyni şəkildə öldürülən uşağın "tərtəmiz bir can" olub-olmadığını da Allah bildirmədikcə, heç kim bilə bilməz. Ancaq burada hz. Musa, bütün bu sözləri Allahın diləməsiylə və Allah qədərində yazdığı üçün söyləyir.

**Xızır dedi: "Sənə demədimmi ki, mənim yanımda səbir edə bilməzsən?" Musa dedi: "Əgər bundan sonra səndən bir şey barəsində soruşsam, daha mənə yoldaş olma. Sən artıq mənim diləyəcəyim sonuncu üzrxahlığa çatdın". (Kəhf surəsi, 75-76)**

Qullarına dilədiyi zaman səbir göstərmə gücünü verən, istədiyi zaman da bu gücü geri alan Allahdır. Quranda möminlərin bu gözəl xüsusiyyətləri bir çox ayədə vurğulanır, ancaq

səbri verənin Allah olduğu ifadə edilir. Məsələn, Bəqərə surəsində Talutun ordusunun döyüş əsnasında səbri Allahdan dilədikləri bildirilir:

**Onlar Calut və ordusuna qarşı meydana (döyüşə) çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, addımlarımızı sabit qıl və kafirlərə qələbə çalmaqda bizə kömək et." (Bəqərə surəsi, 250)**

76-cı ayədə isə hz. Musanın, meydana gələn bu vəziyyətdən hz. Xızırın narahatlıq hiss etdiyinin fərqində olduğu aydın olur. Hz. Xızırın etdiyi xatırlatmalara və səbir edə bilməyəcəyi istiqamətində qətiyyət ifadə edən danışmalarına baxmayaraq, hz. Musa israrla səbir göstərəcəyini ifadə etmiş, ancaq iki hadisədən sonra artıq bir həll yolu tapmağa qərar vermişdir. Bunun üçün də hz. Xızırın bu elmi öyrətməkdən imtina etməməsi üçün yeni bir razı salma üslubu istifadə etmişdir.

Hz. Musanın çəkindiyi mövzu hz. Xızırın onu öyrətməkdən, ona müxtəlif nəsihətlərlə dərs verməkdən imtina etməsi ehtimalıdır. Bu səbəblə də, tək istəyi ona təminat və zəmanət verərək bu dərsdən imtina etməsini əngəlləməkdir. hz. Musa təhsilin mümkün qədər davam etməsini və hz. Xızır kimi xüsusi elm verilmiş müqəddəs bir quldan mümkün olduğu qədər istifadə edə bilməyi istəyir. Bunun üçün də razı salıcı bir şərt qoşmağı həll yolu olaraq tapmışdır.

**Yenə yola düzəldilər. Nəhayət, bir kənd əhlinin yanına gəlib camaatdan yeməyə bir şey istədilər. Camaat onları yeməyə qonaq etmək istəmədi. Onlar orada dağılmaq istəyən bir divar gördülər. Xızır onu düzəltdi. Musa dedi: "Əgər istəsəydin, bunun müqabilində zəhmət haqqı alardın". (Kəhf surəsi, 77)**

Yollarına davam edən hz. Musa və hz. Xızır girdikləri qəsəbədə gözəlliklə qarşılanmamışdılar. Bu qarşılanmadan etdikləri səfərin çox çətin bir səfər olduğu aydın olur. Çünki şəhər əhalisi onları qonaq olaraq qəbul etmək, hətta onlara yemək verməkdən belə çəkinmişdir.

Bu ayədə Allah, doğrunu və faydalı elmi tapmaq üçün hər cür çətinliyə razı olunmasının məqbulluğuna işarə edir. Hz. Musa da, hz. Xızır ilə birlikdə ola bilmək, onun elmindən istifadə edə bilmək və öyüdlərindən faydalana bilmək üçün hər cür çətinliyə

razıdır. Bu bütün inananlar üçün də bir ibrət xüsusiyyətinin göstəricisidir. Müsəlmanlar da bənzər bir vəziyyətlə qarşılaşdıqlarında eyni qətiyyəti və gözəl əxlaqı göstərməlidirlər.

Ayədə həmçinin hz. Xızırın son dərəcə qabiliyyətli, məharətli və sürətli bir kimsə olduğuna işarə edilir. Bu, həm daha əvvəl gəmini içindəkilərə heç hiss etdirmədən korlaya bilməsindən, həm də divarı inşa edərkən etdiyi işin sürətindən və möhkəmliyindən aydın olur. Allah ayəsində "dərhal onu inşa etdi" deyə bildirərək bu sürətə və təcrübəyə işarə etmişdir. Həmçinin, hz. Xızır gəmini deşərkən də çox böyük bir hünər göstərmişdir. Gəmini məhv etməmiş, yalnız bir neçə kiçik ziyanla, qarşı tərəfin bəyənməyəcəyi bir hala gətirmişdir. Buradan hz. Xızırın divarın və gəminin düzəldiyi vəsaitə tam bir hakimiyyəti olduğu aydın olur.

Ayənin davamında hz. Musa üçüncü və son dəfə hz. Xızıra bir sual verir. Halbuki hz. Xızır ödəniş alıb-almaması lazım olduğunu onsuz da Allahın özünə verdiyi elmlə çox yaxşı bilir.

Bir insanın etdiyi iş qarşılığında ödəniş alması zərurəti yoxdur. Bəzi hallarda ödəniş alınarkən, bəzilərində alınmaya bilər. Bu, vəziyyətə və şərtlərə görə dəyişə bilər. Mömin bütün etdiklərini sırf Allah rizası üçün edər. Etdiyi hər hansı bir iş ödənişli ola bildiyi kimi pulsuz da ola bilər. Ödənişli olduğunda da alınan pul yenə yalnız Allah rizası üçün istifadə edilər. Ödəniş alıb almama qərarı, elçinin və ya peyğəmbərin Allahın verdiyi elm və əmrlər istiqamətində öz təqdiridir.

**Xızır dedi: "Bu, mənimlə sənin aranda ayrılıqdır. Səbir edə bilmədiyin şeylərin yozumunu sənə xəbər verəcəyəm. (Kəhf surəsi, 78)**

Hz. Musanın soruşduğu bu son sual, aralarında ayrılma vaxtının gəldiyinin də bir işarəsi xüsusiyyətindədir. Onsuz da ayrılma səbəbini Allah hz. Musaya söylətmiş, tək bir dəfə daha sual soruşsa ayrılacaqlarına dair özü söz vermişdir. Səbəbi isə hz. Xızır açıqlamışdır.

Hz. Xızır bu ayədə, hz. Musaya "şərhi edilmədiyi üçün səbir edə bilmədin" deyərək nəsihətlə izahını verəcəyini söyləyir. Bu sözləri ilə bütün bunların, hikmətləri açıqlansa səbir ediləcək şeylər olduğunu ifadə etmişdir. Yəni əgər hz. Xızır ilk andan etibarən soruşulan sualların hikmətlərini açıqlamış olsaydı, hz. Musa bunlara səbir göstərə bilərdi. Buradan bir daha peyğəmbərin və ya mürşidin açıqlamadığı mövzularda mütləq xeyir və hikmət axtarılmalı olduğu ağıla gəlir.

Hz. Xızır və hz. Musanın yol boyunca yaşadıqları, ikisinin də qədərində müəyyən edilmiş və Allah qatında yazılmışdır. Bunların heç bir şəkildə fərqli yaşanması ehtimalı yoxdur. İkisinin ayrılma anı da, eynilə birləşmə anı və birləşmə yeri kimi Allah Qatında müəyyəndir. Allah ikisinin də qədərlərində bu anları sonsuz əvvəldə təyin etmişdir.

**Gəmiyə gəlincə, o, dənizdə çalışan kasıb adamlara məxsus idi. Mənim onu korlamağımın səbəbi, onların önündə hər bir yararlı gəmini zorla ələ keçirən hökmdarın olması idi. (Kəhf surəsi, 79)**

Bu ayədə görüldüyü kimi, ayrılma qərarını təyin etdikdən sonra hz. Xızır hadisələrin xeyir və hikmətlərini bir-bir şərh etməyə başlayır. Birinci hadisədə hz. Xızır bir gəmini deşmişdir. Ancaq bu gəmini deşməsinin çox əhəmiyyətli bir neçə səbəbi vardır.

Hz. Xızırın bu davranışının hikmətlərini açıqlamazdan əvvəl, onun mərhəmətli xarakteri üzərində dayanmaq lazımdır. Hz. Xızır dərhal yoxsulların köməyinə qaçmış, onların çətinlik içinə düşmələrini, qəddar kəslərdən zülm görmələrini əngəlləmək istəmişdir. Bu hərəkəti onun, yoxsul və ehtiyac içində olanlara qarşı duyduğu məhəbbəti, şəfqətli və mərhəmətli xarakterini sərgiləyir. Allahın Rəhman və Rəhim sifətləri hz. Xızır üzərində güclü bir şəkildə təcəlli edir. Bu, möminləri inkarçılardan ayıran üstün bir xüsusiyyətdir. Allah, Bələd surəsində bu şəkildə bildirir:

**Sən nə bilirsən ki, sərt yoxuş nədir? O, bir kölə azad etməkdir və ya aclıq günündə möhtaca yemək verməkdir - qohumluq əlaqəsi çatan bir yetimə, yaxud aclıqdan yerə uzanmış kasıba! Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır. Onlar sağ tərəf sahibləridir. (Bələd surəsi, 12-18)**

Mərhəmət, möminlərə düşkünlük və şəfqət Allahın peyğəmbərlərinin və elçilərinin də ən diqqət çəkən xüsusiyyətləridir. Allahın üstün elmə sahib qullarından biri olan hz. Xızır da bütün elçilər kimi şəfqətli və mərhəmətli, Allahın Qatından rəhmət verdiyi bir insandır. O səbəblə də, yoxsulluq və ehtiyac içində olan bu insanlara kömək etmək üçün dərhal gəmilərində bir dəlik açmış, beləcə gəmini yararsız və qüsurlu göstərərək zalımların ələ keçirməsindən qurtarmışdır.

Hz. Xızırın gəmini deşməsindən də çox böyük bir ağıl, fərasət, bəsirət və üstün fikirli olduğu dərhal diqqəti cəlb edir. Çünki gəmini məqbul ölçülərdə, təkrar təmir edildikdə asanca düzələcək şəkildə korlamışdır. Beləcə gəmini görən kəs qüsurlu zənn edəcək və ələ

keçirməkdən imtina edəcəkdir. Ancaq gəmi sahibləri qəddar kəslərin mallarını qəsb etmə təhlükəsi ortadan qalxdıqdan sonra gəmini asanlıqla yenidən təmir edib, istifadə edə biləcək hala gətirəcəklər.

Ayədə diqqət çəkilən bir başqa əhəmiyyətli mövzu isə, yoxsul xalqın olduğu bölgədə qəddar bir rejim olmasıdır. Edilən tətbiqlərdən aydın olduğu qədəriylə, bu, diktatorluq rejimi ola bilər. Bu bölgədəki despot rəhbərlik, iman edənlərin mallarını bir səbəb göstərmədən qəsb edə bilər. Bu səbəblə də, möminlər çətinlik içində yaşayır və bu vəziyyətdən bir çıxış yolu tapmaqda çətinlik çəkmiş ola bilərlər.

İnsanların mallarının bu şəkildə bir səbəb göstərilmədən qəsb edilməsi, köhnə dövrlərdəki despot dərəbəylik və ya monarxiya və ya dövrümüzdəki faşist və kommunist rejimlərdə tez-tez görülən bir tətbiqdir. Bəhs edilən totalitar rəhbərliklər, müdafiəsiz xalqların mallarına əl qoyaraq, onları aclıq və yoxsulluq içində buraxmışlar. Bu nümunə qəddar rəhbərlik anlayışının tarixin ən qədim dövrlərindən bəri gələn bir düşüncə olduğunun da bir dəlilidir.

**Oğlan uşağına gəldikdə, onun ata-anası mömin idilər. Biz uşağın böyüyəndə onları azğınlığa və küfrə sürükləməsindən qorxduq. (Kəhf surəsi, 80)**

Ayədə uşağın ailəsinin mömin kəslər olduğu xəbər verilir. Bu məlumat, o dövrdə də haqq dinin olduğuna işarə edilir.

Hz. Xızırın uşağın canını almasıyla əlaqədar ayələr araşdırılarkən vurğulanmalı olan bir başqa mövzu isə uşağın ölümünün Allahın bir təqdiri olduğudur. O uşağın ölümünü Allah qədərində yer və zaman olaraq yazmışdır. Allah **"Sizi palçıqdan yaradan, sonra bir əcəl müəyyən edən Odur. Adı qoyulmuş əcəl, Onun yanındadır** ." (Ənam surəsi, 2) ayəsiylə insanlara bu həqiqəti xatırladır. Quranda bildirildiyi kimi hər insanın canını mələklər alar. Allah, Ənfal surəsində bu həqiqəti bu şəkildə bildirir:

**Mələkləri, onların üzlərinə və arxalarına vura-vura: "Dadın atəşin əzabını!" Deyə o inkar edənlərin canlarını alarkən görməlisən. (Ənfal surəsi, 50)**

Ancaq mələklərin can alması da bir səbəbdir, həqiqətdə isə canı alan ancaq Allahdır. Quranda bu mövzu ilə əlaqədar hz. İbrahimin səmimi duası belə nümunə verilmişdir:

**"Məni yaradan və məni doğru yola yönəldən Odur!"**

**"Məni yedirən və içirən Odur;"**

**"Xəstələndiyim zaman mənə şəfa verən Odur;"**

**"Məni öldürəcək, sonra dirildəcək olan da Odur,"**

**"Din (cəza) günü günahlarımı bağışlayacağına ümid etdiyim də Odur!"**

**"Ey Rəbbim, mənə hökm (hikmət) bağışla və məni əməlisalehlərə qovuşdur". (Şuəra surəsi, 78-83)**

Allah bu uşağın canının alınmasını hz. Xızırın əliylə təqdir etmişdir. Ancaq hz. Xızır olmayıb, başqa biri də bu ölümə bir vəsilə ola bilərdi. Bir qəza nəticəsində, ürəyinin dayanması səbəbiylə ya da düşüb başını yaralayaraq bir anda həyatını itirə bilərdi. Allahın **"... Onların əcəli gəldiyi zaman nə bir saat geri qalar, nə də irəli keçə bilərlər"** (Nəhl surəsi, 61) ayəsiylə bildirdiyi kimi bir adamın əcəli gəldiyi zaman, bu tarixə kimsənin mane olması, ya da irəli çəkməsi mümkün deyil. Həmçinin bu hadisədə Allah, ölüm mələklərini görünməyən səbəb qılmış, görünən üzündə isə, hz. Xızır uşağın canını alırmış kimi göstərmişdir. Həqiqətdə isə hz. Xızır vəhylə hərəkət edən bir insandır və Allahın əmrinin xaricinə qətiyyən çıxa bilməz. Allah istəməyincə, öz iradəsi ilə bir şey etməsi mümkün deyil. Allah bu uşağın canını almaq üçün onu vəsilə etmişdir.

Oxşar vəziyyət hz. Musanın canını aldığı adam üçün də keçərlidir. Ayələrdə bu hadisə bu şəkildə bildirilir:

**O, şəhərə əhalisi xəbərsiz ikən daxil oldu və orada bir-biri ilə vuruşan iki kişi gördü. Biri onun tərəfdarlarından, o biri isə düşmənlərindən idi. Tərəfdarlarından olan kəs onu düşməninə qarşı köməyə çağırdı. Musa onu vurub öldürdü və: "Bu, şeytan əməlindəndir. Həqiqətən, o, haqq yoldan azdıran açıq-aydın bir düşməndir!" - dedi. Musa dedi: "Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!" O da onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir (Qəsas surəsi, 15-16)**

Hz. Musa kömək etmək üçün dalaşan edən iki adamın arasına girmiş, ancaq istəmədiyi bir hadisə reallaşmış və bir adamın canını almışdır. Ancaq burada da hz. Musanın yalnız bir vəsilə olduğunu unutmamaq lazımdır. Görünüşcə o adam hz. Musanın atdığı yumruq ilə həyatını itirmişdir. Amma hz. Musa yalnız zahiri səbəbdir. Allah bu adamın canını almaq üçün hz. Musanı vəsilə etmişdir. Görünməyən tərəfdəki vəsilələr isə yenə ölüm mələkləridir. Allah ayələrində onların canı almaqla məsul olduqlarını bildirir. Əsl canı alan isə Allahdır.

İnsan nə qədər müqavimət göstərərsə göstərsin, hara sığınarsa sığınsın, hara qaçarsa qaçsın, əslində fərqində olmadan hər an öz ölümünə doğru irəliləyər. Allah, "**Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. (Bunu) Allah kökslərinizdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün (etdi). Allah ürəklərdə olanları biləndir!**." (Ali İmran surəsi, 154) ayəsiylə heç bir insanın ölümdən qaça bilməyəcəyini xatırladır.

İnsanın qarşısında başqa bir seçim və ya çıxış yolu yoxdur. Əcəli gəldiyində nə istiqamətə dönərsə dönsün, hara qaçarsa qaçsın ölüm mələkləriylə mütləq qarşılaşacaq. Qədərdə müəyyən bir anda və yerdə ölüm onu mütləq tutacaq. Quranda, bu sirr belə xəbər verilir:

**De ki: "Əlbəttə sizin qaçdığınız ölüm, şübhəsiz sizinlə qarşılaşıb-görüşəcək. Sonra siz gizlini də, aşkarı da bilən (Allah)a qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir." (Cümə surəsi, 8)**

**Hər harada olsanız da ölüm sizi tapar. Hündür təhkim edilmiş qalalarda olsanız belə ... (Nisa surəsi, 78)**

Hz. Xızır isə irəlidə inkarçılardan olacağına dair qəti məlumata sahib olduğu bir uşağı, Allahın əmri ilə öldürür. O uşağın həm ailəsinə və ətrafına zülm etməsinin qarşısını almaq, həm də günahlarla boğulmasına mane olmaq istəyir. Bunun üçün əvvəldən tədbir görür.

## Biz istədik ki, onların Rəbbi onun əvəzində onlara ondan daha təmiz və daha mərhəmətli olan başqa bir övlad versin. (Kəhf surəsi, 81)

İnsanların böyük bir hissəsi ölüm, yaxınlarını itirmə kimi hadisələrin xeyir və hikmət istiqamətini görməkdə çətinlik çəkərlər. Halbuki, dünya üzərində reallaşan hər hadisədə olduğu kimi, ölümdə də çox böyük hikmətlər və xeyirlər gizlidir. Bu hikmətlərdən biri ayədə "Allahın daha gözəlini və daha təmizini vermək" istədiyi şəklində bildirilir. Allah, Quran əxlaqını yaşamamaqda və inkarda dirənən birlikləri bu şəkildə xəbərdar edir:

**Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə (bilsin ki), Allah (onun yerinə) elə onları sevdiyi, onların da Özünü sevdiyi möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cəhd edən (səy göstərən) və tənə edənin tənəsindən qorxmayan bir**

**camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (mərhəməti ilə) genişdir, biləndir. (Maidə surəsi, 54)**

**Rəbbin heç bir şeyə ehtiyacı olmayan, mərhəmət sahibidir. Əgər istəsə, sizi yox edər və diləsə, sizi bir başqa bir qövmün nəslindən (inşa edib) var etdiyi kimi yerinizə bir başqasını gətirər. (Ənam surəsi, 133)**

**Divara gəldikdə isə, o, şəhərdəki iki yetim oğlanın idi. Altında onlara məxsus bir xəzinə vardı. Onların atası əməlisaleh adam olmuşdur. Rəbbin onların həddi-buluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. Mən bunları öz ixtiyarımla etmirdim. Sənin səbir edə bilmədiyin şeylərin yozumu budur!" (Kəhf surəsi, 82)**

Hz. Xızırın açıqladığı son hikmət isə yetim uşaqlara aid olan divarı inşa etməsi ilə əlaqədardır.

Bu ayədə saleh möminlərə aid kimsəsiz və yetim uşaqların müdafiələrinə diqqət çəkilir. Allah yetimlər haqqında Bəqərə surəsində belə buyurur:

**... Və sənə yetimləri soruşarlar. De ki: "Onları islah etmək (faydalı qılmaq) daha xeyirlidir. Əgər onları aranıza qatarsınızsa, artıq onlar sizin qardaşlarınızdır. Allah fitnə-fəsad törədəni yaxşılıq edəndən (ayırar). Əgər Allah istəsəydi sizə çətinlik verərdi. Həqiqətən, Allah güclü və üstün olandır, hökm və hikmət sahibidir." (Bəqərə surəsi, 220)**

Ayədə də bildirildiyi kimi, iman edənlər yetimlərin haqqını qorumaqda, onların əxlaqını gözəlləşdirməkdə maksimum səy göstərirlər. Bu, onların gözəl əxlaqlarının, Allahın əmr və tövsiyələrinə əməl etmələrindəki dəqiqliklərin bir nəticəsidir. Müsəlmanlar, "**Xeyir olaraq infaq edəcəyiniz şey ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və yolda qalanlara aiddir. Xeyir olaraq hər nə etsəniz, Allah onu bilir**" (Bəqərə surəsi, 215) ayəsində bildirildiyi kimi yetimlərə infaq edirlər. "**Özləri, ona duyduqları sevgiyə baxmayaraq, yeməyi yoxsula, yetimə və əsirə yedirərlər**" (İnsan surəsi, 8) ayəsində isə özləri ehtiyac içində olsalar

belə, əvvəlcə onları qoruyub himayə etdikləri bildirilmişdir. Allah yetimlərə zülm edənləri isə Nisa surəsində bu şəkildə xəbərdar edir:

**Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər. (Nisa surəsi, 10)**

Hz. Xızır da İslam əxlaqının bir gərəyi olaraq yetim uşaqların gələcəyini düşünür və onlar üçün çox əhəmiyyətli bir sərmayə hazırlayır. Əgər hz. Xızır divarı təmir etməsəydi, divar yıxılıb yetim uşaqların atalarına aid xəzinəni ortaya çıxaracaq, uşaqların malları da zalım kəslər tərəfindən qəsb olunacaqdı. Məhz bu səbəblə, hz. Xızır xəzinə üçün, uşaqlar yetkinliyə çatana qədər qorunub saxlana bilinəcək möhkəm bir yer tikmiş, onların gələcəkləri üçün əhəmiyyətli bir tədbir görmüşdü.

Hz. Xızırın yoxsullara və yetimlərə göstərdiyi bu şəfqət və mərhəmət daha əvvəl də vurğuladığımız kimi Allahın Rəhim (sonsuz mərhəmət sahibi) sifətinin təcəllisidir. Hz. Xızırın bu divarı möhkəm inşa etməsi ilə uşaqların mallarını qorumaq üçün güclü bir tədbir görməyin əhəmiyyətinə işarə edilir. Hz. Xızır Allaha təvəkkül göstərmiş və bu səbəblə də uşaqlar üçün çox möhkəm, Allah qatında təyin olunmuş zamana qədər zərər görməyəcək, möhkəm bir divar inşa etmişdir.

Həmçinin bir divarın dağılması başda oradan keçən insanlar olmaqla ətrafındakı bitkilərə, yaxınlarında olan heyvanlara çox böyük zərər verib, ölüm və ya qəzalara səbəb ola bilər. Bu ayədə də uçulmuş divarların təkrar inşa edilərkən möhkəm bərpa edilməli olduğuna işarə edilmiş ola bilər.

Ayədə həmçinin hz. Xızırın **"Bunları mən, öz işim (xüsusi fikrim) olaraq etmədim"** dediyinə diqqət çəkilir. Bu, daha əvvəl də vurğuladığımız kimi, hz. Xızırın hər şeyi edənin Allah olduğunu, hər şeyin qədərdə olub bitdiyini bildiyini göstərən bir söhbətdir. Hz. Xızır heç bir qərarı öz istəyi ilə etmədiyini ən gözəl şəkildə ifadə edir.

## Səndən Zülqərneyn barəsində soruşurlar. De: “Sizə ondan ”öyüd-nəsihət və xatırlatma” olaraq (bəzi məlumatlar) verəcəyəm”. (Kəhf surəsi, 83)

Ayənin əvvəlində bəhs edilən bu "öyüd-nəsihət və xatırlatma" ifadəsi son dərəcə əhəmiyyətlidir. Çünki tarix boyunca hz. Zülqərneyn hekayəsi müxtəlif şərhçilər tərəfindən çox fərqli şəkillərdə açıqlanmışdır.

Ancaq Allah hz. Zülqərneyn hekayəsinin ilk ayəsində bu hekayənin danışılmasının hikmətlərindən bəzilərini bizlərə açıq şəkildə bildirir: Möminlərə bir xatırlatma, öyüd vermə və hikmət bildirmə ...

Kəhf surəsindəki digər hekayələrdə olduğu kimi, hz. Zülqərneyn hekayəsində da möminlərə İslam əxlaqının nümunələri verilir, ibrət alınacaq hadisələr çatdırılır. Ayələrdə izah edilənlər çox açıqdır və başa düşülməsi çox asandır. Ayələrin oxunduğu anda aydın mənası, bu qissələri təfəkkür etməyimiz və dərs çıxara bilməyimiz üçün üçün kifayətdir. Allah Hud surəsində belə buyurur:

**Əlif, Lam, Ra. (Bu,) ayələri möhkəm qılınmış, sonra hökm və hikmət sahibi və hər şeydən xəbərdar olan (Allah) tərəfindən bir-bir (bölüm-bölüm) izah edilmiş bir Kitabdır (Hud surəsi, 1)**

Bu vəziyyətdə iman edən bir insan, Quran ayələrini səmimiyyətlə, dərs və ibrət alma qəsdiylə oxumalıdır. Allah "**Quran ayələrinin açıq olduğunu** " (Həcc surəsi, 16) bir çox ayəsində bildirmişdir. Bu ayələrdən bəziləri belədir:

**Ramazan ayı ... İnsanlar üçün hidayət olan və doğru yolu və (haqq ilə batili bir-birindən) ayıran açıq dəlilləri (əhatə edən) Quran onda nazil olmuşdur... (Bəqərə surəsi, 185)**

**... Sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi. Allah, razılığına uyanları bununla qurtuluş yollarına çatdırar və onları Öz izni ilə zülmətlərdən nura çıxarar. Onları doğru yola yönəldər. (Maidə surəsi, 15-16)**

## Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik. O, yer üzündə gəzib dolaşmaq üçün səfərə çıxdı. (Kəhf surəsi, 84-85)

Kəhf surəsinin 84-cü ayəsində Allah möhkəm bir iqtidarın əhəmiyyətinə diqqət çəkir. Bir ölkədəki iqtidarın həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan güclü olması son dərəcə əhəmiyyətlidir. Əks halda, yəni hər an dağılacaq kimi çürük bir iqtidarın varlığında, ölkə çox ciddi problemlərlə qarşı-qarşıya gələ bilər. Əvvəlcə xarici düşmənlər bu ölkəni

daha gücsüz hala gətirməyə çalışarlar. Daxildəki müxalifət isə onsuz da zəifləmiş olan iqtidarı daha da gücdən salmaq üçün səy sərf etməyə başlayır. Bunların nəticəsi olaraq iqtisadi problemlər, qiyamlar, üsyanlar başlayır və ölkə bir anda böyük bir xaosun içinə süründürülür. Ancaq ayələrdə hz. Zülqərneynin ölkəsində bu problemlərin yaşanmadığı, iqtidarının çox möhkəm, ağıllı və güclü olduğu aydın olur.

Allah ayədə keçən, "**ona hər şeydən bir yol (səbəb) verdik**" ifadəsiylə hz. Zülqərneynin hər şeyə həll yolu və çarə tapmaq gücü verdiyinə diqqət çəkir. Hz. Zülqərneyn çox ağıllı, fərasətli və bəsirət sahibi bir mömindir. Allahın verdiyi bu üstün xüsusiyyətlər sayəsində mürəkkəb kimi görünən hər cür problemə dərhal həll yolu tapır, əksiklikləri aradan qaldırır. Allah hər şeydə onun yolunu açmış, onu üstün bir elmlə dəstəkləmişdir. Necə ki, hekayənin davamında da görüləcəyi kimi, onun bu xüsusiyyəti insanlar tərəfindən də bilinir, bu səbəblə özü həmişə fikri soruşulan, danışılan və özündən kömək istənilən bir adam olaraq tanınır.

**Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə batan gördü. Zülqərneyn onun yanında bir tayfaya rast gəldi. Biz buyurduq: "Ey Zülqərneyn! Sən ya onları cəzalandırmalı, ya da onlarla yaxşı rəftar etməlisən!" (Kəhf surəsi, 86)**

Ayədən hz. Zülqərneynin ilk əvvəl qərbə doğru getdiyi aydın olur. Günəşin batdığı yer olaraq təsvir edilən bu bölgə dünyanın ən qərb nöqtəsi ola bilər. Əgər Avropa qitəsi əsas götürülsə bu bölgə, Avropa qitəsinin ən uc nöqtəsini meydana gətirən İspaniya və Cəbəllütariq boğazı ətrafı ola bilər. Afrika qitəsi əsas götürülsə bu dəfə də bu qitənin ən qərbdəki nöqtələri olan Mavritaniya və Seneqal kimi bölgələrə işarə etdiyi düşünülə bilər. Ancaq xəritə ölçü götürüldüyündə ən qərb nöqtənin Afrika qitəsinə işarə etməsi mümkündür. (Ən doğrusunu Allah bilir).

Ayələrdə hz. Zülqərneynin yönəldiyi bu qərb bölgəsini təsvir edərkən istifadə edilən bir digər tərif isə "**qara palçıqlı gözə** " ifadəsidir. Bu ifadənin ərəbcə "**aynin hamie**" dir. Bu ifadədəki "**ayn**" sözü "**göz, bulaq, çeşmə, qaynaq**" mənalarına gəlir. "**Hamie"** sözü isə "**qara palçıq, palçıq, bulanıq, palçıqlı"** mənalarında işlənilir.

Hz. Zülqərneynin yönəldiyi qərbdəki bölgənin Afrika ola biləcəyinə Bədiüzzaman Səid Nursi də işarə edir. Bədiüzzaman bu şəkildə təsvir edir:

Zülqərneynin məğrib (qərb) tərəfinə səyahəti, şiddət-i hərarət zamanında və bataqlıq tərəfinə və Günəşin qürub avanına və vulkanlı bir dağın fışqırması vaxtına təsadüf etdiyini bəyan etməklə, Afrikanın tamam istilası kimi çox ibrətli məsələlərə işarə edər .. . Həm bulaq (ayn), təşbehdir. Uzaqdan böyük bir dəniz, kiçik bir hovuz kimi görünür. Hərarətdən çıxan

duman və buxarlar və bataqlıqlar arxasında görünən bir dənizi, palçıq içində bir bulağa təşbehi və ərəb dilində bulaq, həm Günəş, həm göz mənasında olan "ayn" sözü, esrar-ı belagatça çox mənalı və münasibdir ...

Qərbi əhatə dənizə palçıqlı bir bulaq təbiri, Zülqərneynin nisbətən uzaqlıq nöqtəsində o böyük dənizi bir bulaq kimi görmüş. Quranın nəzəri isə hər şeyə yaxın olduğu cəhətlə, Zülqərneynin galatı-ı his növündəki nəzərinə görə baxa bilməz, bəlkə Quran səmaya baxaraq gəldiyindən Kürə-i Ərzi gah bir meydan, gah bir saray, bəzən bir beşik, bəzən bir səhifə kimi gördüyündən; dumanlı, buxarlı böyük qərbi əhatə edən atlas dənizini bir bulaq təbir etməsi, əzəmət-i ülviyyətini göstərir. (5)

Günəşin dəniz kənarında batışını uzaqdan izləyən bir adam, günəşi dənizə girirmiş kimi görür. Ya da dağın arxasından günəş batarkən, uzaqdan baxıldığında sanki günəş dağa girirmiş kimi hiss edilər. Bu adamın olduğu yer və baxış bucağına bağlıdır.

Hz. Zülqərneyn ayədə təsvir edilən bölgəyə çatdığında orada bir birliklə qarşılaşar. O birliyə qarşı necə davranmalı olduğunu isə Allah ona bildirir. Əgər o birlik ona beyət edərsə və müsəlman kimi yaşarsa, onlara yaxşılıqla davranacaq. Ancaq əgər Allahın hökmlərinə qarşı çıxar, İslama tabe olmaz və fitnə çıxararlarsa, o zaman ona görə bir cavab alacaqlar.

Hz. Zülqərneynin verəcəyi qarşılıq hüquqi bir qarşılıqdır. Gözəlliklə və yaxşılıqla rəftar göstərənlərə gözəl cavab verilərkən, pisliyi, zülmü və üsyanı yol olaraq seçənlərə də ona görə bir cavab veriləcəkdir. Bu qarşılığın necə olacağı isə hakimin səlahiyyətindədir. Bu ifadədən hz. Zülqərneynin dövlət başçılığı vəzifəsi ilə yanaşı hakimlik səlahiyyətinə də sahib olduğu aydın olur. Hz. Zülqərneyn, o dövrdə mövcud olan cəza hüququna görə ya həbs cəzası, ya nəzarət, ya da başqa bir cəza tətbiq edir.

Həmçinin bu ayədəki ifadələrdən, hz. Zülqərneynin ölkəsində dövlət başçılığı sistemi olduğu da aydın olur. Lider olan hz. Zülqərneyn tək hakim gücdür, dövlət başçısıdır, məhkəmə haqqını əlində saxlayan bir hakim mövqeyi də var.

Əgər pisliklə davranan bu adam, ya da qruplar üsyan edir, müqavimətə keçir və hücumlar planlaşdırırsa, o zaman dövlət özünü bütün gücləriylə qoruyur. Ayədə bəhs edilən "əzab" sözü ilə də dövlətin özünü müdafiə etməsinə işarə edilmiş ola bilər. Bu cəzalandırma üsullarının üzərində dayanarkən, hz. Zülqərneynin hərbi və detektiv gücünə, hərbi qüvvələrinə də işarə edilir.

Ayədə bəhs edilən "gözə" sözü bəzi şərhçilər tərəfindən fərqli şəkillərdə təfsir edilir. Buna görə, hz. Zülqərneyn "səbəb" vasitəsilə kosmosda bir səfər etmiş və Günəşi bir "qara dəliy"in içinə girərkən görmüşdür. Qara dəliklər günəşlərin batdıqları, yəni içində yox olduqları, ölən ulduzlardır. Bəzi ölən ulduzlar büzülər, kiçik bir həcm içində çox sıx bir maddəni özündə saxlayar. Günəşdən 3 qat böyük olan bu ulduzlar, yalnız bir neçə kilometr həcmindədirlər. Belə olduqda da cazibə gücləri böyük bir şəkildə artır, işığı, səsi hətta

zamanı belə udur. Özünə yaxın olan ulduzları içinə çəkir və içinə çəkdiyi hər ulduzla cazibə qüvvələri bir qat daha artır. (6)

Qara dəliklər özlərinə yaxınlaşan cisimləri udmaları səbəbiylə "qara bataqlıq" şəklində düşünülür və işıq saçmamaları səbəbiylə də "qara dəlik" adını alırlar.

**O dedi: "Haqsızlıq edəni cəzalandıracağıq. Sonra o, Rəbbinə qaytarılacaqdır. O da ona ağır bir əzab verəcəkdir! (Kəhf surəsi, 87)**

Ayədə bəhs ifadələrdən hz. Zülqərneynin müsəlman bir idarəçi, dövlətinin isə müsəlman dövlət olduğu aydın olur. Hz. Zülqərneyn danışıqlarında dərhal Allahı və axirət gününü xatırladır yəni onlarla müsəlman kimi danışır.

Hz. Zülqərneynin vurğuladığı bir digər mövzu isə zülmün qarşılığının o zamankı hüquqa görə təyin edildiyidir. Ayədə bəhs edən əzablandırmadakı məqsəd -yuxarıda da ifadə etdiyimizə bənzər- cəza sanksiyalarıdır. Allah o dövrdə, inkar edən birliyin bu dünyadakı əzabını, hz. Zülqərneynin əliylə təqdir etmişdir. Ancaq bu əzab, etdikləri zülmə cavab olaraq dünya həyatında verilən bir cəzadır. Rəbbimizin "**Axirət əzabı isə, şübhəsiz çox daha böyükdür; bir bilsələr** " (Qələm surəsi, 33) ayəsində də bildirdiyi kimi axirətdəki cəza çox daha şiddətli, çox daha çətindir.

Allahın varlığını və axirəti inkar edən, Quranın hökmlərini yalan sayan hər insan, həm dünyada, həm də axirətdə mütləq layiq olduğu qarşılığı görəcək. Necə ki, tarix boyunca bir çox qövm dünya həyatında böyük əzablara məruz qalmışdır. Elçilərin Allaha imana dəvət etdikləri qövmlərdən bu dəvəti rədd edərək dünya həyatındakı əzabla qarşılaşmışdır. Allah bu qövmlərin həlaklarını xəbər verdiyi ayələrdə, axirət əzabının daha şiddətli olduğunu da xatırlatmış, insanlara əsl çəkinmələri lazım olan əzabın axirət əzabı olduğunu bildirmişdir. Ayələrdə Allah belə bildirir:

**Beləcə Biz də onlara dünya həyatında rüsvayçılıq əzabını daddırmaq üçün o uğursuz günlərdə üzərilərinə qulaqları batıran bir külək göndərdik. Axirət əzabı isə daha (böyük) bir rüsvayedicidir. Və onlara kömək olunmaz. (Fussilət surəsi, 16)**

**Budur Biz həddi aşanları və Rəbbinin ayələrinə iman gətirməyənləri belə cəzalandırırıq; Axirət əzabı isə, həqiqətən, daha şiddətli və daha sonsuzdur. (Taha surəsi, 127)**

Ayədə cəhənnəmdə inkarçıların qarşılaşacağı bu əzab "görünməmiş bir əzab" olaraq təsvir edilir. Bu sözlə, axirət əzabının insanların dünyada qarşılaşdığı, görüb, bildikləri hər cür əzabdan çox daha şiddətli olduğuna işarə edilir. O səbəblə, insanların dünyada qarşılaşdıqları əzablardan əvvəl axirət əzabını düşünmələri və bundan qorxmaları lazımdır. Bu şiddətli qorxu insanların etdikləri səhvlərdən ötrü tövbə etmələrinə və inkardan imtina edib, özlərini Allaha təslim etmələrinə vəsilə ola bilər.

**İman gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcəkdir. Biz ona əmrimizdən asan olanı buyuracağıq". (Kəhf surəsi, 88)**

Bu ayədən hz. Zülqərneynin yalnız bir dövlət adamı və hakim deyil, eyni zamanda təbliğ edən bir müsəlman, mürşid olduğu da aydın olur. Hakimiyyəti altındakı insanları öyrətdiyi, onlara Allahın razılığına uyğun tərzdə hökm etdiyi açıq şəkildə aydın olur.

Hz. Zülqərneyn, qarşılaşdığı birliyi dərhal Allaha imana, səmimiyyətə, Quranda bildirilən saleh əməlləri, ibadətləri yerinə yetirməyə dəvət edir. Bu kəsləri təşviq etmək üçün dünya və axirət həyatındakı qarşılığa diqqət çəkərək, beləcə onları hidayətə çağırır. Bu, bütün elçilərin göndərildikləri qövmlərə etdikləri bir dəvətdir. Peyğəmbərlər dayanmadan insanları Allahın yoluna çağırmışlar, müxtəlif metodlar istifadə edərək insanların vicdanlarını hərəkətə keçirmək üçün çalışmışlar.

Ayələrdə diqqət çəkilən bir başqa mövzu isə, insanlardan nə reaksiya gəlirsə gəlsin qərarlı davranmaq, Allahın "yaxşılığı əmr edib pislikdən çəkindirmə" əmrini mütləq surətdə yerinə yetirməkdir. Bu, peyğəmbərlər kimi saleh möminlərin də üzərinə düşən əhəmiyyətli bir məsuliyyətdir. Bir ayədə belə buyurulur:

**Sizdən; xeyirə çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

Kəhf surəsindəki bu ayədə diqqət çəkilən bir başqa əhəmiyyətli mövzu isə, müsəlmanlara asanlıq yolunun göstərilməsinin və çətinlik çıxarılmamasının əhəmiyyətidir. Yaxşı insanlara gördükləri işlərdə, aldıqları qərarlarda və gündəlik həyatları içində asanlıq, rahatlıq və hüzur təmin edilməlidir. Necə ki, ayədə **"Allah sizə asanlıq diləyər, çətinlik diləməz"** (Bəqərə surəsi, 185) şəklində Rəbbimiz bildirir və iman edənlərə əhəmiyyətli bir xatırlatma edir. Allah bir başqa ayəsində "**Biz Quranı zikr (öyüd-nəsihət qəbul etmək) üçün**

**asanlaşdırdıq. Amma heç bir öyüd alıb düşünən varmı?"** (Qəmər surəsi, 17) şəklində buyurur. Bu səbəbdən möminlər, hər zaman asanlıq yolunu seçməyin Quran əxlaqının bir gərəyi olduğunu bilməlidirlər. Həmçinin Allahın "**Və səni asan olan üçün müvəffəqiyyətli edəcəyik**" (Əla surəsi, 8) şəklindəki müjdəsini ağıllarından çıxarılmamalıdır. Allah Həcc surəsində bu şəkildə bildirir:

**Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O sizin Himayədarınızdır. O nə gözəl Himayədar, nə gözəl Yardımçıdır! (Həcc surəsi, 78)**

**Sonra o, yoluna davam etdi. Nəhayət, günəşin doğduğu yerə çatdıqda onu elə bir qövm üzərində doğan gördü ki, onlar üçün günəşə qarşı heç bir örtük yaratmamışdıq. Bax belə! Biz onun başına gələnlərin hamısından xəbərdarıq. (Kəhf surəsi, 89-91)**

Hz. Zülqərneyn ikinci dəfə yola çıxdığında bu dəfə şərq tərəfinə doğru gedər. Ayədə keçən bu ifadə ilə, yəqin ki, yenə xəritəyə görə ən şərqdəki Koreya, Çin və ya Şimali Çin (Mancuriya) kimi bölgələrə işarə edilmiş ola bilər.

Ayənin davamında hz. Zülqərneynin "Günəşi onlar üçün sipər qılmadığımız bir qövm" ilə qarşılaşdığından bəhs edilir. Ayədə bəhs edilən sipər sözünün ərəbcəsi "sitren" dir və bu söz "örtmək, gizlətmək" mənasını verən ərəbcə "setere" felindən əmələ gəlir. Buradan aydın olduğu kimi sipər sözü bu ayədə, "geyim ya da binadan təşkil olunmuş örtü" mənasında istifadə edilir.

Bu səbəbdən bəhs edilən birlik, içində sığına biləcəkləri evləri olmayan, düz bir ərazidə yaşayan, günəşdən qoruna biləcəkləri sığınacaqları, çətirləri və ya hər hansı başqa vəsaitləri olmayan, çöldə yaşayan köçəri bir birlik ola bilər. Gecələri çalışıb, gündüzləri də yer altında bir sığınacaqda yaşaya bilərlər. Eyni zamanda paltarları olmayan, primitiv şərtlərdə, mədəni olmayan bir mühitdə yaşayan bir birlik olmaları da ehtimal olunur. Necə ki, Ömər Nəsuhi Bilmən də ayədə bəhs edilən bu ifadəni eyni şəkildə təfsir edir:

"Zülqərneynin bu səyahətində (günəşin doğduğu cəhətə qovuşdu) günəşin ilk şəfəq saçdığı bir mamureyə (abad yerə) gəldi.  O günəşi (bir qövm üzərində doğan tapdı ki, onlar üçün günəşə qarşı bir sipər etmiş deyildik) bu qövm üçün günəşin şüalarını aradan

qaldıracaq bir geyim, bir bina və bir təpə kimi bir şey yox idi. Bunlar günəş doğulanda, ya yer altındakı zirzəmilərə və ya dənizə girərlərdi. Günəş batınca çıxar işləriylə məşğul olardılar” (7)

91-ci ayədə isə hz. Zülqərneynin özülü əhatə edən bir məlumata sahib olduğundan bəhs edilir. Özülü əhatə edən məlumat ifadəsinin ərəb dilindəki qarşılığı "hubr" dur. Və bu söz "bütün incəlikləri və həqiqəti bilmə" mənasında istifadə edilir.

Bu elm daha əvvəlki hissələrdə də vurğuladığımız kimi Allahın dilədiyi qullarına Öz Qatından verdiyi xüsusi bir elmdir. Kəhf surəsinin 68-ci ayəsində də diqqət çəkildiyi kimi, hz. Xızır da bu xüsusi elmə sahib mübarək bir insandır.

**Sonra o, yenə yoluna davam etdi. Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ön tərəfində demək olar ki, söz anlamayan bir tayfaya rast gəldi. (Kəhf surəsi, 92-93)**

Hz. Zülqərneyn üçüncü dəfə yola düşdüyündə bu dəfə geri dönər və ən şərq ilə ən qərb arasında bir bölgəyə çatar. Bura, Himalay dağlarında bir bölgə ola bilər. Necə ki, Bədiüzzaman Səid Nursi də eyni bölgələrə işarə edir və hz. Zülqərneynin **"... Hind və Çindəki akvam-ı mazlumeye təcavüzlərini dayandırmaq üçün o Himalay silsilələrinə yaxın iki dağ ortasında uzun bir səd inşa etdiyi və o akvam-ı vahşiyenin kəsrətli (çox) hücumlarına çox zaman mane olduğunu** ..." (8) xatırladır. Ustadın da ifadə etdiyi kimi bu iki sədd, iki dağ silsiləsi ola bilər.

Ayədə hz. Zülqərneynin yeni getdiyi bölgədə qarşılaşdığı birliyin demək olar ki, heç bir sözü qavramadıqları da ifadə edilir. **"Heç bir söz"** deyil, "**demək olar ki, heç bir söz**" deyilməsi, bu birliyin fərqli və qeyri-adi bir dil danışdığına işarə edilə bilər.

Ancaq hz. Zülqərneyn bu qövmlə danışa bilir. Bu vəziyyətdə hz. Zülqərneyn ya xüsusi məlumatıyla bu fərqli dili anlayıb danışır ya da yanında olan kəslər bu dili anlamış ola bilərlər. Bu ayə, hz. Zülqərneynin yanında bu mövzularda məlumatı olan xüsusi bir qrupu olduğuna işarə edə bilər.

Ayələrdən həmçinin hz. Zülqərneynin getdiyi hər yerdə səfalət, yoxsulluq və zəiflik olduğu aydın olur. Qərb tərəfindəki topluluq da, şərqdəki topluluq da ehtiyac içindədir. Şərqdəki topluluq günəşdən qorunacaq bir sığınacaqları olmayacaq qədər böyük bir səfalət içindədir. İki səddin arasındakı xalq isə cəhalət içindədir, mədəni və texnoloji baxımdan inkişaf etməmişdir. Həmçinin özlərini xarici təhlükələrdən qorumaqdan aciz bir topluluqdur. Bu səbəblə də ölkə böyük bir anarxiya təhlükəsiylə qarşı-qarşıyadır. Hz. Zülqərneyndən kömək istəmələrinin ən əhəmiyyətli səbəbi də məhz bu yoxsulluq, cəhalət və qarışıqlıq ola

bilər. Bunların hamısı o dövrdə yer üzündə mövcud vəziyyəti anlamağımız üçün əhəmiyyətli işarələrdir.

## Onlar dedilər: "Ey Zülqərneyn! Yəcuc və Məcuc tayfaları yer üzündə fitnə-fəsad törədirlər. Bəlkə biz sənə xərac verək, sən də bizimlə onlar arasında bir sədd düzəldəsən?" (Kəhf surəsi, 94)

Ərəb dilinə başqa bir dildən girdikləri təxmin edilən Yəcüc və Məcüc sözləri ilə yer üzündə fitnə-fəsad törədən bir birliyə diqqət çəkilir. Necə ki, İslam alimləri də şərhlərində Yəcüc və Məcücün o bölgədə zorakılıq edən, fitnə-fəsad çıxaran, insanlara zülm edən bir və ya bir neçə tayfa olduqlarını ifadə edirlər.

Yəcüc və Məcücün fitnələri səbəbiylə çətin vəziyyətdə olan bu qövm, hz. Zülqərneynin onlara kömək etməsini istəyir, bu köməyin qarşılığında da ona vergi verməyi təklif edirlər. Buradan hz. Zülqərneynin tək başına bir adam olmadığı, bir dövləti idarə etdiyi aydın olur. Eynilə hz. Süleyman kimi hz. Zülqərneyn də dövlət gücünə və hərbi gücə malikdir.

Ayədə işarə edilən bir digər mövzu da hz. Zülqərneynin yanında, əvvəlki ayədə işarə edilən dil mütəxəssisləri kimi, tikinti və yenidənqurma mövzularından da anlayan bir qrupun olduğudur. Hz. Zülqərneynin bu mövzularla maraqlandığı, memarlıq və yenidənqurma texnologiyasını yaxşı bildiyi də edilən kömək tələbindən aydın olur. Hətta bu mövzulardakı məlumatı ilə tanındığı, məşhur olduğuna da ayələrdə işarə edilir. Onun bu məşhurluğu səbəbiylə, digər dövlətlər ondan bu istiqamətdə bir kömək istəyirlər. Bütün bu xüsusiyyətləri, hz. Zülqərneynin dövlətinin gücünü və böyüklüyünü anlamaq üçün də bir dəlil xüsusiyyətindədir.

Hz. Zülqərneyn həmçinin "yer üzündə fitnə-fəsad törətməyi və fitnənin qarşısını alan bir kəs" olaraq da tanınır. Bu səbəblə də, çətin vəziyyətdə olan, bu istiqamətdə çətinlik çəkən, daxili qarışıqlıqlar yaşayan və ya xaricdən təzyiq görən dövlətlər ondan kömək istəyirlər. Bu, hz. Zülqərneynin dünyaya nizam verən, qonşu ölkələrin kömək istədiyi, hərbi gücünə və yer üzündə fitnə-fəsad törətməyin qarşısını alan istiqamətinə güvəndiyi, çox güclü bir dövlətin başında olduğunun bir dəlili ola bilər. Bir millətin başqa bir dövlətdən kömək tələb etməsi, üstəlik bu yardımın qarşılığında vergi verməyə razı olması bu millətin düşdüyü çətin vəziyyətə həll yolu tapa bilmədiyinin göstəricisidir. Kömək istədikləri dövlətin də, özləri üçün çətin olan mövzulara həll yolu tapa bilən, güclü və möhkəmlənmiş bir hakimiyyətə sahib olduğunun açıq-aşkar bir əlamətidir.

Hz. Zülqərneynin həm qərb tərəfindən, həm də şərq tərəfindən belə böyük hörmət görməsi və təsirli olması onun dünyaya hakim bir dövlətin başında olduğunun göstəricisi ola

bilər. Bu səbəbdən ayələrdən onun, yer üzünə sülh, ədalət və təhlükəsizlik gətirməklə məsul olduğunu bilən bir lider olduğunu anlayırıq. Özünü yalnız öz ölkəsindən deyil, dünyanın hər bölgəsindən məsul hiss edir. Allah bu ayəsiylə, yer üzünə ədalət, sülh və təhlükəsizlik gətirmənin hər müsəlmanın üzərinə bir məsuliyyət olduğuna da işarə edir. Hər ölkə öz imkanları istiqamətində dünya problemləri ilə maraqlanmalı və ehtiyac içində olan topluluqlara maddi və mənəviköməklik göstərməlidir.

Hz. Zülqərneyn hekayəsiylə Axırzamanda İslam əxlaqının da eynilə hz. Zülqərneynin olduğu kimi- bütün dünyaya hakim olacağına işarə edilir. Rəbbimiz Nur surəsində bu gözəl müjdəni iman edənlərə bu şəkildə bildirir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər - məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

## O dedi: "Rəbbimin mənə əta etdiyi mülk daha yaxşıdır. Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim. (Kəhf surəsi, 95)

Bu ayədə təkrar hz. Zülqərneynin iqtidarının sağlamlığına diqqət çəkilir. Onun hakimiyyəti ən kiçik bir zərbədə yıxılacaq qədər çürük və zəif bir iqtidar deyil. Son dərəcə güclü, xalqına və ehtiyac içində olan digər millətlərə güvən verən, rəhbərlik şəkli və tətbiqləriylə insanlar üzərində narahatlıq meydana gətirməyən bir dövlətdir. Allahın izni ilə heç bir çətinlik və zərbə ilə yıxılmayacaq bir sağlamlığa sahib olduğu görünür. Bu ayə ilə Allah, daxili və xarici müxalifətin, təzyiqlərin və zorakılıqların əsla təsir etməyəcəyi, qarşıdurma, çaxnaşma və qiyamlarla sarsılmayacaq qədər dövlətə hakim bir iqtidarın əhəmiyyətinə diqqət çəkir.

Hz. Zülqərneyn etdiyi kömək qarşılığında hədiyyə almır. Quranda peyğəmbərlərin bu əxlaqıyla əlaqədar başqa nümunələr də var. Məsələn, hz. Süleymanın özünə göndərilən hədiyyələri rədd etməsi Quranda belə bildirilmişdir:

**Mən onlara bir hədiyyə göndərəcəyəm və baxacağam görüm elçilər nə ilə qayıdacaqlar. Elçilər Süleymanın yanına gəldikdə o dedi: "Siz mənə mal-dövlətləmi yardım**

**edirsiniz? Allahın mənə bəxş etdiyi sizin verdiyinizdən daha yaxşıdır. Siz isə ancaq öz bəxşişlərinizlə fərəhlənirsiniz. (Nəml surəsi, 35-36)**

Hz. Süleymanın da, hz. Zülqərneynin də özlərinə təklif edilən maddi qarşılığı qəbul etməməsinin bir çox hikməti ola bilər. Bu hikmətlərdən biri alacağı bir yardımın qarşı tərəfdə meydana gətirəcək mənfi təsirlərin qarşısını almaq ola bilər. Çünki insanın maddi köməklik etdiyi bir insana qarşı hörmətində, itaətində azalma ola bilər. Bu, insan psixologiyasında olan ruh halıdır. Ayədə belə bir vəziyyətə yer verməmək üçün, edilən bir yardımın pulsuz və ehtiram olaraq edilməsinin əhəmiyyətinə işarə edilir. Heç şübhəsiz ki, belə bir köməklik həm sevgini, həm də bağlılığı daha çox artıracaq. Üstəlik, hz. Zülqərneyn də eynilə hz. Süleyman kimi, iqtisadiyyatı və xəzinəsi çox güclü bir dövlətin başındadır və bu zəngin dövlətin, etdiyi köməyə görə bir qarşılıq gözləməyə ehtiyacı yoxdur.

Ancaq hz. Zülqərneyn, maddi qarşılıq almadığı bu qövmün edəcəyi köməyə insan gücüylə dəstək olmalarını istəyir. Beləcə öz dövlətinin insan gücünü istifadə etmir, kömək etdiyi qövmün yerli xalqını vəzifələndirir, onlara müxtəlif məsuliyyətlər verir. Bu şəkildə, onlara sənəti və elmi öyrədir, mədəni və texnoloji baxımdan irəliləmələrini təmin edir. Ayrıca, işsiz və boş dayanan insan gücünü hərəkətə keçirir. Beləcə həm öz dövlətinin xəzinəsindən gərəksiz xərcləmir, həm də öz müdafiələrində vəzifələndirmək surətiylə onları ölkələrinə fayda təmin edəcək hala gətirir. Ədalətə, hörmətə və haqqa əsaslanan belə bir əlaqə şübhəsiz ki, qarşılıqlı etibarı və xalqın dəstəyini asanlıqla əldə edə bilər.

Belə bir tətbiqin bir çox müsbət istiqaməti vardır. Bunlardan birincisi, xalqın təhsili və yetişmiş insan gücünün artmasıdır. Həmçinin xalq tənbəllikdən və ətalətdən xilas olacaq, öz səyləri ilə müvəffəqiyyət əldə etmənin hüzurunu yaşayacaq. Bu eyni zamanda, millətin özünə inamını qazandıracaq bir tətbiqdir. Öz dövlətinin möhkəmliyi üçün çalışan bir millətin gördüyü işdə çətinlik çıxarması, üsyana və qiyamlara meyil göstərməsi çox çətindir. Bu səbəbdən, bu kömək əsnasında da xalq asanlıqla idarə olunacaq. Həmçinin insanlar öz qövmlərindən insanlarla daha rahat və daha məhsuldar şəkildə çalışır, öz millətlərinə xidmət etməkdən daha çox zövq alırlar. Allah rizası üçün görülən işlərdə təbii ki, bunun əhəmiyyəti yoxdur. Amma hər insanın bu mövzuda dəqiqlik göstərməsi, yalnız Allah rizasını güdməsi gözlənilə bilməz. Bu vəsiləylə dindar olanlar kimi, dindar olmayan insanların da hüquqları qorunmuş olur. Burada hz. Zülqərneynin, yaşadığı dövrdə dünyanın hər tərəfini fəth etmiş bir hökmdar olaraq nə qədər ağıllı bir siyasət izlədiyini görmək mümkündür.

Ayədə hz. Zülqərneynin "bir əngəl hazırladığından" bəhs edilir. Burada keçməni əngəlləyən bir quruluşun inşa edilməsiylə, yıxılmaz və aşmaz memarlığa, yüksək texnologiyaya işarə edilir. Xüsusilə də bina, körpü başda olmaq üzrə hər cür abadlıq işlərinin möhkəm olması son dərəcə əhəmiyyətlidir. Bu kimi quruluşlar zəlzələ, sel, yağış

kimi təbii fəlakətlərlə, ya da hər hansı bir hərbi hücumla yıxılmayacaq qədər möhkəm inşa edilməlidir.

**Mənə dəmir parçaları gətirin!" Nəhayət, dağın iki yamacı arasını dəmir parçaları ilə doldurduqda: "Körükləyin!" – dedi. Dəmir közərən kimi: "Gətirin mənə, onun üstünə ərimiş mis töküm!" – dedi. (Kəhf surəsi, 96)**

Ayədə hz. Zülqərneynin iki dağ arasında sədd inşa edərkən dəmir-beton texnologiyasından faydalandığına işarə edilə bilər. Bu texnologiya hal-hazırda demək olar ki, bütün binaların və böyük bəndlərin inşaatlarının istehsalında istifadə edilir.

Həmçinin ayədə hz. Zülqərneynin iki dağ arasındakı bu möhkəm maneəni inşa edərkən dəmir və qətranı (bəzi təfsirçilərə görə ərimiş misi) istifadə etdiyi xəbər verilir. İnşaat sektorunda istifadə edilən ən möhkəm material dəmirdir. Binaların ya da körpü, bənd kimi memarlıq əsərlərinin möhkəmliyinin artırılması üçün mütləq dəmir istifadə edilməlidir. Çünki dəmir olmadan tikilən inşaatlar ən kiçik bir xəsarətdə, sarsıntıda, ya da təxribatda dərhal çökər.

Hz. Zülqərneyn, səddi inşa edərkən dəmir hissələri və suvaq istifadə edərək böyük bir sədd inşa etmiş ola bilər. Dəmirləri uc-uca birləşdirmiş və üzərlərinə tökülən suvaq ilə möhkəm dəmir-beton quruluş meydana gətirmişdir. (Ən doğrusunu Allah bilir).

Ayədə "əridilmiş mis" olaraq tərcümə edilən ifadənin bir mənası da "qətran"dır. Qətran, dəmiri rütubət və dəniz suyundan qorumaq üçün istifadə edilən, şam ağacından və mədən kömüründən əldə edilən bir örtük maddəsidir. Hz. Zülqərneyn qətranı, inşa etdiyi dəmirdən olan o tikilinin üzərinə axıtmış və bunun sayəsində dəmirin oksidləşib, paslanmasını əngəlləmiş ola bilər. Necə ki, bu gün müasir dəmir-beton texnologiyasıyla inşa edilən tikililərdə də qətran bənzəri izolyasiya materialları tez-tez istifadə olunur.

Hz. Zülqərneyn dəmir-beton quruluşu düzəltmək üçün üzərinə qətran axıdılmış olan dəmiri, qum, əhəng, çınqıl daşı və sudan yaradılan bir suvaq materialı ilə birləşdirmiş ola bilər. Beləcə betonun çox daha güclü olmasını təmin etmiş ola bilər. Normal şərtlər altında qum və əhəngdən düzəldilən bir suvaq asanlıqla deşilə bilər. Ancaq bu suvaq dəmirlə möhkəmləndirildikdə, deşilməsi mümkün olmaz. Bu quruluş, deşmək istəyənlər baxımından son dərəcə çəkindirici olar. Bu dəmir-beton quruluşun üzərinə tətbiq olunan bir təzyiq nəticəsində dağılması, zərər görməsi, üzərində keçilməsi mümkün olan bir dəlik açılması, o zamankı şərtlərdə dağıdılması Allahın diləməsi xaricində qeyri-mümkündür.

**Yəcuc və Məcuc tayfaları nə səddin üstünə çıxa bildilər, nə də onu dəlib keçə bildilər. Zülqərneyn dedi: "Bu, Rəbbimdən olan bir mərhəmətdir. Rəbbimin vədi gəldikdə isə onu yerlə yeksan edəcəkdir. Rəbbimin vədi həqiqətdir". (Kəhf surəsi, 97-98)**

Kəhf surəsinin 97-ci ayəsində Zülqərneyn tərəfindən inşa edilən səddin keçilmədiyi bildirilir. Bu ifadə səddin yüksək olduğuna bir işarədir. Həmçinin o dövrün insanlarının bu səddi dəlib keçməyi bacarmadıqları isə səddin möhkəmliliyinə diqqət çəkir. Bu möhkəmlilik də yenə haqqında bəhs etdiyimiz səddin inşasında, indiki vaxtda bütün müasir quruluşlarda istifadə edilən dəmir-beton texnologiyasına bənzər sistemlə inşa edildiyinin dəlillərindən ola bilər.

Həmçinin 98-ci ayədə bildirildiyi kimi, hz. Zülqərneynin səddin inşasını bitirdikdən sonra ilk xatırlatdığı şey Allahın, Rəhman və Rəhim sifətləridir. O, bu səddin Allahın mərhəmətinin bir dəlili olduğunu və Allah diləmədikcə belə bir səddi inşa etməyi heç kimin bacarmayacağını çox yaxşı bilir. Bu səbəblə də səddi düzəldənin Rəbbimiz olduğunu dərhal xatırladır, beləcə insanların bu müvəffəqiyyəti özlərindən sanma qəflətinə düşmələrinə mane olmaq istəyir.

Kəhf surəsinin 98-ci ayəsində hz. Zülqərneynin inşa etdiyi bu güclü səddin qiyamətə qədər əbədi qalacağı da xəbər verilir. Ayədə bəhs edilən vəd sözü, bir sonrakı ayədən də aydın olduğu kimi qiyaməti ifadə edir. Bu isə, səddin qiyamətə qədər qorunacağı mənasını verir.

Ayədə inşasından bəhs edilən bu səddin yeri bəlkə zaman keçdikcə tapılar, bəlkə tapılmaya bilər. Bunun məlumatı Rəbbimizin qatındadır. Əhəmiyyətli olan budur: Ayədə xəbər verildiyi kimi bu səddin qiyamətə qədər yıxılması mümkün deyil. Allah ayəsində bu səddin ancaq qiyamətdə yıxılacağını açıq şəkildə xəbər vermişdir. Necə ki, Allah qiyamət günü hər şeyin yıxılacağını, dağların hərəkətə gətiriləcəyini, yer üzərində heç bir şeyin qalmayacağını digər bir çox ayəsində də bildirmişdir. Bu ayələrdən bir neçəsi belədir:

**O gün Biz dağları hərəkətə gətirəcəyik. O vaxt yerin dümdüz olduğunu görəcəksən.... (Kəhf surəsi, 47)**

**Yer dümdüz ediləcəyi, içindəkiləri kənara atıb boşalacağı və Rəbbini dinləyib boyun əyməyə hazır olacağı zaman; (İnşiqaq surəsi, 3-5)**

**Səndən dağlar haqqında soruşurlar. De: “Rəbbim onları dağıdıb havaya sovuracaq, oranı boş düzəngaha çevirəcəkdir. Sən orada nə bir eniş, nə də bir yoxuş görməyəcəksən”. (Taha surəsi, 105-107)**

**O gün Yəcuc və Məcuc tayfalarını axışıb bir-birinə qarışmış halda buraxarıq. Sur üfürülən kimi məxluqatın hamısını bir yerə toplayarıq. O gün Biz Cəhənnəmi kafirlərə aşkar göstərərik. (Kəhf surəsi, 99-100)**

Bütün kainatın da bir ölümü olduğu Quranda bildirilmişdir. Ölümlü olan yalnız insan deyil. Bütün heyvanlar, bitkilər, planetlər, qısacası yaradılmış olan canlı-cansız bütün maddi varlıqlar bir gün mütləq yox olacaqlar. Quranda bu gün, "İnsanların, aləmlərin Rəbbi üçün qalxacağı ..." (Mutaffifin surəsi, 6) gün şəklində təsvir edilir.

Qiyamət dəhşət verici bir gündür. O gün əvvəlcə iman gətirməmiş olanlar, Allahın əzəmətini, qüdrətini ilk dəfə, həm də çox böyük bir şiddətlə hiss edəcəklər. Məhz bu səbəblə qiyamət, inkarçılar üçün başlı-başına böyük bir əzab, dəhşət, peşmanlıq, acı və qarışıqlıq günüdür. Qiyaməti görən insan, heç bir şəkildə təsvir edilə bilməyəcək, dünyadakı bütün qorxulardan yüzlərlə qat şiddətli olan bir qorxuya qapılacaq.

Qiyamətin başlanğıcı Sura üfürülməsi ilə başlayar. Bu, dünyanın və bütün kainatın kütləvi məhvinin və sonun başlanğıcının işarəsidir. Artıq geriyə dönüş yoxdur. Dünya həyatının hər kəs üçün tamamilə bitib həqiqi həyatın, yəni axirətin başladığının səsidir bu. Bu səs, inkar edənlərin ürəklərində kəsilməz və sonsuza qədər daşıyacaqları qorxu, dəhşət, acizlik və çaşqınlığı başladan ilk səsdir. Müddəssir surəsində qiyamət gününün inkar edənlər üçün necə bir an olduğu belə ifadə edilir:

**Sur üfürülərkən - Çətin bir gün olacaq. Həmin gün kafirlərə asan olmayacaqdır. (Müddəssir surəsi, 8-10)**

Kəhf surəsinin bu ayələrində də qiyamət anında bu qövmlərin dalğalar halında bir-birlərinə keçəcəyinə diqqət çəkilir. İnsanlar, ölüm qorxusunun verdiyi sərxoşluq içində dalğalanar kimi bir ora, bir bura gedəcəklər. İdarələrini tamamilə itirəcək, qorxu içində nə etdiklərini, hara getdiklərini çaşacaqlar.

İnsan dünyada qiyamətdən nə qədər qəflətdə və ona qarşı nə qədər hazırlıqsız olarsa, o gün qapılacağı dəhşət də o cür böyük olar. Bu qorxu və dəhşət hissi, özünə ölüm anı gəlməsindən etibarən sonsuza qədər arxasını buraxmayacaq. Bu qorxunun, uşaqların saçlarını belə bir anda ağarda bilən bir qorxu olduğu ayələrdə belə xəbər verilir:

**Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız? O gün göy parçalanacaq. Allahın vədi mütləq yerinə yetəcəkdir. (Müzzəmmil surəsi, 17-18)**

Allahı, o günə qədər etdiklərindən xəbərsiz olduğunu zənn edənlər o anda özlərinin əslində qiyamət gününə qədər vaxt verilmiş aciz qullar olduqlarını anlayarlar. Çünki Allah, o zamana qədər ayədə bildirildiyi üzrə; **"... Onları yalnız gözlərin dəhşətlə bərələcəyi bir günə təxirə salar**." (İbrahim surəsi, 42) Digər ayələrdə də, inkarçıların qorxu və çaşqınlığı belə təsvir edilir:

**Qəlbləri Qorxuya salan! Qəlbləri Qorxuya salan nədir? Sən haradan biləsən ki, qəlbləri Qorxuya salan nədir? O gün insanlar ətrafa səpələnmiş pərvanələr tək olacaqlar. Dağlar isə didilmiş yun görkəmi alacaqdır (Qariə surəsi, 1-5)**

Həcc surəsindəki ayələrdə isə, insanların sanki şüurlarını itirdikləri, şüursuzcasına qaçdıqları bu şəkildə çatdırılır:

**Ey insanlar! Rəbbinizdən qorxun! Həqiqətən, o Saatın sarsıntısı müdhiş bir şey olacaqdır. Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyini unudacaq, hər bir hamilə qadın bətnindəkini salacaqdır. İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı hədsiz şiddətlidir. (Həcc surəsi, 1-2)**

İnsanların o günkü çarəsizliyini izah edən ayələrdən bir neçəsi da belədir:

**Ay tutulacağı və günəşlə ayın qovuşacağı zaman - o gün insan deyəcəkdir: "Hara qaçaq?" Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq. O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır. (Qiyamət surəsi, 8-12)**

## O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkmişdilər, özləri də eşidə bilmirdilər. (Kəhf surəsi, 101)

Kəhf surəsinin bu ayəsində Allah inkar edənlərin zikr etməkdə qəflət içində olduqlarını bildirir. Rəbbimiz bir başqa ayəsində də "Xeyr, onlar öz Rəbbini zikr etməkdən üz çevirənlərdir" (Ənbiya surəsi, 42) şəklində buyurur. Onlar Allahın ayələrini inkar edir, kainatın hər bir təfərrüatındakı yaradılış dəlillərini görməzlikdən gəlir və Allahın insanlara bir hidayət rəhbəri olaraq endirdiyi Quranı dinləməkdən şiddətlə qaçırlar. Halbuki Allah zikrin əhəmiyyətini bir çox ayədə vurğulayır və əksinin qəflət halı olacağını bildirir:

**"Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma." (Əraf surəsi, 205)**

İnsan, Quran əxlaqını yaşamaqla, hər etdiyi işdə Allahın razılığını axtarmaqla və Allahın əmr və tövsiyələrinə dəqiqliklə riayət etməklə məsuldur. Zikrin əhəmiyyəti Ənkəbut surəsində də bu şəkildə bildirilir:

**Kitabdan sənə vəhy olunanları oxu və namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı zikr etmək isə şübhəsiz ən böyük (ibadət) dir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

Möminlər üçün isə Allahın "Ey iman gətirənlər, nə var-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə, artıq onlar ziyana uğrayanlardır." (Münafiqun surəsi, 9) əmri gərəyi zikr hər şeydən əhəmiyyətlidir. Allah "Rəbbinin adını zikr et və hər şeydə özünü tamamilə Ona həsr et" (Müzzəmmil surəsi, 8) şəklində buyurmuşdur. Müsəlmanların Allahı zikr etmə mövzusundakı qətiyyətləri bir ayədə də bu şəkildə bildirilir:

**(Elə) Adamlar ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz"; onlar, qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən alt-üst olacağı) bir gündən qorxurlar. (Nur surəsi, 37)**

Kəhf surəsinin 101-ci ayəsində diqqət çəkilən bir başqa mövzu isə inkar edənlərin Quranı dinləməyə dözə bilməmələridir. Onlar özləri kimi, digər insanların da Qurandan uzaq

olmalarını istəyərlər. Çünki Quranı dinləyən bir adam vicdanının səsinə uyaraq, yaxşıların tərəfinə keçə bilər; haqqı tətbiq edərək yaşamağa və yaşatmağa başlaya bilər. Məhz bu səbəblə də inkar edənlər, özlərinə edilən təbliği dinləməmək üçün hər cür üsullardan istifadə edərlər. Allah "İnkar edənlər dedilər ki: **"Bu Quranı dinləməyin və oxunarkən hay-küy qoparın. Bəlkə, qalib gələsiniz.**" (Fussilət surəsi, 26) ayəsi ilə bu kəslərin istifadə etdikləri metodu da bildirmişdir.

İnkar edənlər Quranı dinləməmək üçün yuxarıdakı ayədə ifadə edildiyi kimi, yüksək səslə üstün gəlməyə cəhd göstərər, mövzunu dəyişdirməyə çalışar və ya təcavüzkar bir üslubla ayələrin oxunmasını əngəlləəyə cəhd edərlər. Bu üsullar işə yaramazsa, bu dəfə iman edənləri susdurmaq üçün şiddətə, təhdidə və hər cür təzyiq üsullarına müraciət edə bilərlər. Bunları etmələrinin tək səbəbi isə duyduqları həqiqətlərdən təsirlənəcəklərini, vicdanlarının hərəkətə keçəcəyindən və bəzi düşüncələrinin nə qədər səhv olduğunu fərq edəcəklərindən qorxmalarıdır. Bu qorxularını onların üz ifadələrindən, rəftarlarından, Quran ayələri oxunarkən və yaradılış həqiqəti izah edilərkən bir anda çaxnaşmaya düşmələrindən dərhal anlamaq mümkündür. Tək qurtuluşları Quran əxlaqına tabe olmaq olmasına baxmayaraq inkar edənlərin haqqı dinləməkdən qaçacaqlarını Allah Yasin surəsində belə bildirir:

**Onlara: "Önünüzdə olan və arxanızca gələndən (dünyada və axirətdə olan əzabdan) qorxun ki, bəlkə sizə rəhm oluna!" – deyildikdə üz çevirirlər. Onlara öz Rəbbinin ayələrindən elə bir ayə gəlmir ki, ondan üz döndərməsinlər. (Yasin surəsi, 45-46)**

Halbuki Quranı dinləməmək üçün qulaqlarını tıxayanlar bilməlidirlər ki, haqq-hesab günü çox böyük bir peşmanlıq yaşayacaqlar. O gün tək istədikləri şey isə ölümün hər şeyi bitirməsi olacaq. Bu vəziyyət Quranda belə xəbər verilir:

**Kitabı sol əlinə verilən isə; o da, deyər ki: "Kaş əməl dəftərim mənə verilməyəydi. Hesabımı heç bilməsəydim. Kaş o (ölüm hər şeyi) kəsib bitirsəydi. Malım mənə heç bir fayda təmin edə bilmədi. Güc və qüdrətim yox olub getdi." (Haqqə surəsi, 25-29)**

**Olmaya, kafirlər Məni qoyub qullarımı özlərinə dost tutacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq. (Kəhf surəsi, 102)**

Ayədə bəzi insanların Allahı unudub, Ondan başqa dost və vəlilər etdikləri vurğulanır. Haqqında bəhs etdiyimiz insanlar bir çətinliklə qarşılaşdıqlarında, bir çətinlikləri olduqda, köməyə ehtiyac duyduqları zaman "vəli" seçdikləri kəslərin özlərinə kömək edə biləcəkləri, çətinliklərini aradan qaldıra biləcəkləri kimi səhv düşüncələri olar. Halbuki insanlardan mədət ummaq, kömək gözləmək çox böyük bir səhvdir. Allah diləmədikcə heç bir insanın bir digərinə yardım etməsi mümkün deyil. Çünki Allahın xaricindəki varlıqlar da yalnız Onun yaratdıqlarıdır. Onun istəyi ilə var olmuşlar. Onun istəyi ilə varlıqlarını davam etdirərlər. Çətinlikləri aradan qaldırıb asanlaşdıran, sıxıntıları ortadan qaldıran, şəfanı və ruzini verən, güldürən də, ağladan da Allahdır. Qısacası, Allahdan başqa hər şey və hər kəs, sonsuz aciz, sonsuz kasıb, sonsuz möhtacı olan varlıqlardır. Bunların özlərinə aid bir gücləri, qabiliyyətləri yoxdur; elə ki, özlərinə belə yardım edə bilməzlər. O halda, ortada Allahdan başqa güvəniləcək, kömək ümid ediləcək, bir şeylər istənəcək, gözləniləcək kimsə də yoxdur.

Bu səbəblə, Allahdan deyil də başqalarından kömək istəmək, onları vəli seçmək, Allahı unutmaq, Allaha güvənməyib, səbəblərə, vasitəçilərə, insanlara güvənmək, Allahın yaratdıqlarını Allahdan müstəqil bir güc, iradə və təsir sahibi olaraq görmək deməkdir ki, bu da açıq-aşkar şirkdir. Allahı buraxıb qullarından kömək gözləyənlərin düşdükləri azğınlıq Quranda belə ifadə edilir:

**Bir çarə tapmaları üçün müşriklər Allahdan başqa məbudlar qəbul etdilər. Amma məbudlar onlara heç bir kömək edə bilməzlər. Hərçənd ki, onlar bunlar üçün hazır durmuş əsgərlərdir. (Yasin surəsi, 74-75)**

Bir əzab yurdu olan cəhənnəmdə, Allahın "**Qəhhar" (qəhr edici), "Cabbar**" **(istədiyini zorla etdirən), "Muntakim" (intiqam alan**) kimi adları sonsuza qədər təcəlli edəcək. Kəhf surəsinin bu ayəsində isə bu sonsuz əzabın inkar edənlər üçün bir dayanacaq olduğu bildirilir.

İnkar edənlər, Allahın hüzurunda hesaba çəkildikdən sonra kitablarını sol tərəflərindən alarlar. Bu an, sonsuza qədər içində qalacaqları cəhənnəmə sürüklənəcəkləri andır. İnkar edənlər üçün heç bir qaçış imkanı yoxdur. Cəhənnəm əhlinin hər biri, özü üçün

vəzifələndirilmiş bir şahid, bir də sürücü mələklə gəlir. Mövzuyla əlaqədar bəzi ayələr belədir:

**Sur üfürüləcəkdir. Bu, vəd olunmuş təhdid günüdür. Hər kəs onu qova-qova məhşərə gətirənlə və bir də əməllərinə şahidlik edənlə birlikdə gələcəkdir. Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!" Yoldaşı (şahid mələk) deyəcəkdir: "Bu yanımdakı hazırdır!" Allah əmr edib deyəcək: "Atın Cəhənnəmə hər bir inadcıl kafiri, xeyirə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allaha tay tutanı. Atın onu şiddətli əzabın içinə!" (Qaf surəsi, 20-26)**

**Budur inkar edənlər bu qorxunc yerə doğru üzüstə sürüklənərək gətiriləcəklər. Quranda keçən ifadəylə "dəstə-dəstə" cəhənnəmə doğru sövq edilərlər. Cəhənnəmin dəhşətli uğultusunu uzaqdan duyarlar. (Mülk surəsi, 7-8)**

Ayələrdə bildirildiyinə görə, inkar edənlər, dirilişlə birlikdə başlarına gələcəkləri hiss etməyə başlayırlar. Boyunları alçaldıldıqları və utandıqları üçün bükülmüşdür. Başları əyilmiş, dostsuz, köməksiz qalmış, qürurları qırılmış, çökmüş vəziyyətdədirlər. Utandıqlarından ötrü başlarını qaldırmadan gözlərinin ucuyla baxarlar. Bir ayədə Rəbbimiz belə bildirir:

**Cəhənnəm qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu gizlin-gizlin baxdıqlarını görəcəksən. Möminlər deyəcəklər: "Şübhəsiz ki, ziyana uğrayanlar Qiyamət günü özlərini və ailələrini itirənlərdir". Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar. (Şura surəsi, 45)**

Cəhənnəmin qapısında isə inkar edənlər belə qarşılanacaqlar:

**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açıq olacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?" Onlar: "Əlbəttə, gəlmişdi!" – deyəcəklər. Lakin əzab Sözü kafirlər barəsində gerçəkləşdi. Onlara: "İçində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin!" – deyiləcək. Təkəbbürlülərin yeri necə də pisdir! (Zumər surəsi, 71-72)**

İnkar edənlər cəhənnəmə girdikdə cəhənnəmin qapıları üzərlərinə bağlanılar. Qarşı-qarşıya qaldıqları əzab, Quranda "**böyük bir əzab**" (Ali İmran surəsi, 176), "**şiddətli bir əzab** " (Ali İmran surəsi, 4) və "**ağrılı-acılı bir əzab** " (Ali İmran surəsi, 21) olaraq təsvir edilmişdir. İnsanın dünya həyatında bildiyi meyarlar, cəhənnəm əzabını tam olaraq dərk etməyə yetərli deyil. Allahın əzabının bir bənzərinin olmadığı ayələrdə belə xəbər verilir:

**O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz. (Fəcr surəsi, 25-26)**

Cəhənnəm əhli, cəhənnəmdə "**alovlanaraq yanan**" (Məaric surəsi, 15), "**alovları yüksəldikcə yüksələn**" (Leyl surəsi, 14), "**dəlicə yanan**" (Furqan surəsi, 11) bu atəşin içinə atılırlar. Ayələrdə belə buyrulur:

**Tərəziləri yüngül gələnlər. Artıq onun da anası (son dayanacağı) "Haviye"dir (uçurum). Onun nə olduğunu sən haradan bilirsən nədir? O, çox qızmar bir oddur. (Qariə surəsi, 8-11)**

Atəş, cəhənnəmdəki əzablardan sadəcə biridir. Cəhənnəmdə insanı həm fiziki, həm də psixoloji cəhətdən əzab verəcək çox müxtəlif üsullar vardır. Quranda keçən ifadəylə, əzab cəhənnəmdə hər istiqamətdən gəlir. Əzabdan özlərini qorumağa fürsətləri yoxdur, əzab hər tərəfdən onları əhatə edir. Onlar üstlərindən, altlarından gələn əzabı dəff etməyə malik deyillər və bu sonsuza qədər davam edər.

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik". (Kəhf surəsi, 103-105)**

Bu ayələrdə dünya həyatı boyunca çalışıb əlləşmiş, bəlkə maddi baxımdan müvəffəqiyyətli olmuş, müəyyən bir kariyeraya sahib olmuş, sənət əsərləri, elmi kəşflər ortaya qoymuş, ancaq Allahın varlığını və ayələrini inkar etdikləri üçün axirətdə səyləri boşa getmiş olan insanlardan bəhs edilir.

Bir insan Allaha inanmaz, Quran ayələrini inkar edər və edilən xəbərdarlıqlardan üz döndərsə, bu adam –böyük əsərlər meydana gətirsə və ya çox əhəmiyyətli ixtiralar etsə də– axirəti baxımından böyük bir itkiyə məruz qalacaq. Ayələrdə bu şəxslərin vəziyyəti bu şəkildə ifadə edilir:

**... İmanı inkar edərsə, əlbəttə onun etdiyi boşa çıxmışdır. O, axirətdə ziyana uğrayanlardan olar. (Maidə surəsi, 5)**

**Ayələrimizi və axirətə qovuşmağı doğru hesab etməyənlər, onların əməlləri boşa çıxmışdır. Onlar etdiklərindən başqasıylamı cəzalandırılacaqdılar? (Əraf surəsi, 147)**

**...Onlar sizdən qüvvədə daha üstün, mal-dövlət və övlad baxımından daha çox idilər. Onlar öz paylarından zövq aldılar. Sizdən əvvəlkilər öz paylarından zövq aldıqları kimi, siz də öz payınızdan zövq aldınız. Onlar batil fikirlərə daldıqları kimi, siz də daldınız. Onların əməlləri dünyada da, axirətdə də heçə getmişdir. Məhz onlar ziyana uğrayanlardır. (Tövbə surəsi, 69)**

Ayələrdə inkar edənlərin bütün səyləri boşa gedərkən, iman edənlərin hər yaxşılıqlarının ən gözəliylə qarşılıq tapacağı da müjdələnir. Onların heç bir əməllərinin boşa çıxarılmayacağı bir ayədə belə xəbər verilir:

**Rəbbi onlara belə cavab verdi: "Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır". (Ali İmran surəsi, 195)**

## Kafir olduqlarına, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarına görə onların cəzası Cəhənnəmdir. (Kəhf surəsi, 106)

Kəhf surəsinin 106-cı ayəsində də inkar edənlərin Allahı, peyğəmbərini və ayələrini məsxərəyə qoyduqları üçün cəhənnəm əzabıyla cəzalandıracaqlarından bəhs edilir. Lağ, inkar edənlərin Quranı dinləməmək üçün ən tez müraciət etdikləri üsuldur. Allah inkar edənlərin bir-birlərinə sanki vəsiyyət etdikləri bu əxlaq pozğunluğunu bir ayəsində belə bildirir:

**Onlara Rəbbinin ayələrindən elə bir ayə gəlməz ki, ondan üz çevirməsinlər. Onlara haqq gəldikdə onu yalan saydılar; lakin lağ etdiklərinin xəbərləri onlara gələcəkdir. (Ənam surəsi, 4-5)**

Bir başqa ayədə isə bu şəkildə ifadə edilir:

**Dəlillərimizi onlara bəyan edən kimi onlar buna güldülər. (Zuxruf surəsi, 47)**

Bu kəslərin lağ etmələrinin arxasında duran ən əhəmiyyətli səbəb isə izah edilənləri dinləmək istəməmələridir. Çünki daha əvvəl də ifadə etdiyimiz kimi bu həqiqətlərə qulaq asdıqlarında vicdanlarının hərəkətə keçəcəyindən, axirətin varlığının, ölümün və dünya həyatındakı məsuliyyətlərinin ağıllarına gələcəyindən qorxurlar. Bu səbəblə də lağ edərlər. Allahın elçiləri vasitəsiylə endirdiyi dinlərlə lağ etmək qəsdiylə öz ağıllarına görə karikaturalar çəkər, yumorlu yazılar yazar, bununla əylənər və Quranda bildirilən həqiqətləri unutmağa çalışarlar.

Məsxərə, bir fikri açıqlaması, qarşısındakı fikrə qarşı gətirə biləcək bir dəlili olmayan kəslərin, bu zəifliklərini və komplekslərini gizlətmək üçün istifadə etdikləri cahilcə bir üsuldur. Məsxərə edərək öz küfrünü haqlı göstərməyə çalışan bu kəslər, Allahın **"(Əsl) Allah da onlara istehza edər və azğınlıqlarını o qədər artırar ki, sərgərdan gəzərlər"** (Bəqərə surəsi, 15) ayəsiylə də bildirdiyi kimi, ancaq qısa bir müddət bu məsxərələrini davam etdirə biləcəklər. Ölüm gəldiyi zaman **"... istehza etdikləri şey də onları bürüyəcəkdir"** (Zumər surəsi, 48) ayəsinə uyğun bir mühitlə qarşılaşacaqlar. Allah başqa ayələrində də Quran ayələri ilə istehza edənlərin cəhənnəm əzabı qarşısındakı vəziyyətlərini bu şəkildə təsvir edir:

**Sən onlara təəccüb edirsən, onlar isə səni ələ salırlar. Onlara xatırlatdıqda düşünüb ibrət almırlar. Bir möcüzə gördükdə isə ona istehza edir və deyirlər: "Bu ancaq gözlə görülən bir sehrdir. Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi? Ya da atalarımızmı dirildiləcəklər?" De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda dirildiləcəksiniz". Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar. Günahkarlar deyəcəklər: "Vay halımıza! Bu ki, Haqq-hesab günüdür!" Onlara deyiləcək: "Bu, yalan saydığınız Fərqləndirmə günüdür! (Saffat surəsi, 12-21)**

## İman gətirib xeyirxah əməllər işləyənlərin məskəni isə Firdovs bağları olacaqdır. Onlar orada əbədi qalacaq, oranı başqa bir yerə dəyişmək istəməyəcəklər. (Kəhf surəsi, 107-108)

Daha əvvəl də vurğuladığımız kimi qiyamət günündə saleh möminlər, bütün həyatları boyunca etdikləri əməllərin yazılmış olduğu hesab dəftərlərini "sağ tərəflərindən" alacaqlar. Bu tərif, Quranda "asan" hesaba çəkiləcək və cənnətlə mükafatlandırılacaq insanlar üçün istifadə edilmişdir. Bu mövzuyla əlaqədar bəzi ayələr belədir:

**Artıq kimin kitabı sağ əlinə verilsə. O, asan bir hesab (sorğu) ilə sorğuya çəkiləcək. Və öz yaxınlarına sevinc içində dönmüş olacaq. (İnşiqaq surəsi, 7-9)**

Hesaba çəkilmələri bitdiyində artıq möminlər, xilas olmanın sevinci içindədirlər. Ayədə möminlər üçün belə hökm edilir:

**"Oraya sağ-salamat və təhlükəsizliklə daxil olun." (Hicr surəsi, 46).**

Özünə "cənnətə gir" deyilən mömin bir adam isə, belə söyləyər:

**.. Kaş qövmüm də bir bilsəydi, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindənəm. (Yasin surəsi, 26-27)**

Bir başqa ayədə də Allah, cənnət əhlini belə müjdələyir:

**... Bu, doğru danışanlara, doğru ifadəyələrinin fayda verəcəyi gündür. Onlar üçün, içində əbədi qalacaqları, altından çaylar axan cənnətlər vardır ... (Maidə surəsi, 119)**

Cənnətdə möminləri sonsuz nemətlər gözləyir. Ayələrdə cənnət nemətlərindən bu şəkildə bəhs edilir:

**Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır. Onlar deyəcəklər: “Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!” (Fatir surəsi, 33-35)**

Cənnətdəki nemətlərin göz qamaşdırıcılığını sözlərlə təsvir etmək mümkün deyil. Ayələrdə də bildirildiyi kimi cənnət, insanın beş duyğusuna mümkün qədər ən böyük zövq və ləzzətlərin daddırıldığı bir məkandır.

Ancaq cənnətin bütün bunlardan çox daha üstün olan ən böyük neməti, Allahın razılığıdır. Möminin Allahın razılığını qazandığından ötrü hiss etdiyi sevinc və hüzurdur. Bundan əlavə, Allahın verdiyi hər şey üçün Ondan razı olmağın, Ona daimi şükür içində olmağın verdiyi əsl xoşbəxtlikdir. Quranda, cənnət əhlinin bu xüsusiyyətinə bu şəkildə diqqət çəkilir:

**"... Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur." (Maidə surəsi, 119)**

**De: “Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin suyu qurtarardı”. (Kəhf surəsi, 109)**

Bu ayədə Allahın sonsuz elmi bir örnəklə insanlara təsvir edilir. Allah göylərin, yerin, bu ikisi arasında olan bütün canlıların, kainatda işləyən bütün qanunların, elmlərin, hər an meydana gələn bütün hadisələrin məlumatına malikdir. Çünki hamısının Yaradıcısı Odur.

Allahın “bilməsi” sərhədsizdir; O eyni anda dünya üzərində doğan və ölən insanların şəxsiyyətlərini, yer üzündəki hər bir ağacdan düşən yarpaqların sayını, kainatdakı milyardlarla qalaktika içindəki milyardlarla ulduzun hər birinin xüsusiyyətlərini və burada səhifələrlə saysaq da əsla tamamlaya bilməyəcəyimiz hər şeyi bilir. Allah, yer üzündə, eyni anda kosmosda meydana gələn hər hadisəni, dünya üzərindəki milyardlarla insanın, heyvanın və bitkinin hüceyrələrində kodlu olan şifrələri də bilir. Kainatın hər nöqtəsinə tam olaraq hakim olan Allah insanın içinə və xaricinə da hakimdir. Necə ki, Allahın bu sonsuz məlumatı bir çox ayə ilə də bildirilmişdir. Ayələrdən bəziləri belədir:

**Məgər görmürsənmi ki, göylərdə və yerdə olanlar və qanad açıb uçan quşlar Allahın şəninə təriflər deyir. Hər biri öz duasını və həmd-sənasını bilir. Allah onların nə etdiklərini biləndir. (Nur surəsi, 41)**

**Baxın, onlar ürəklərini qısırlar (küfrü ört-basdır edirlər) ki, Allahdan gizlənsinlər. Doğrusu, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir. (Hud surəsi, 5)**

**O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

**O, həm göylərdə, həm də yerdə ibadət olunan Tək Allahdır. O, gizlində saxladığınızı da bilir, aşkarda etdiyinizi də. O, sizin nə qazanacağınızı da bilir.. (Ənam surəsi, 3)**

**De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!” (Kəhf surəsi, 110)**

Gəlmiş keçmiş bütün ümmətlərə onları Allahın doğru yoluna çağıran elçilər göndərilmişdir. Elçilər insanlara Allahın varlığını və birliyini izah edən, onlara Allahın dinini təbliğ edən, Allahın onlardan istədiklərini, digər bir ifadə ilə etməli olduqlarını və çəkinmələri lazım olan şeyləri bildirən, onları cəhənnəm əzabına qarşı xəbərdar edən və cənnətlə müjdələyən mübarək insanlardır.

Elçilərin həyatları və mübarizələri, düşünən və öyüd almasını bilən möminlər üçün çox hikmətli dərslərlə doludur. Möminlər, rəsullar arasında heç bir ayrı-seçkilik etmədən onların Quranda çatdırılan gözəl rəftar və davranışlarını, üstün əxlaqlarını özlərinə nümunə götürməli, onların öyüd və tövsiyələrini götürüb, xəbərdarlıqlarına böyük əhəmiyyət verməlidirlər.

Allahın elçilərinin Quranda bildirilən təbliğləri bir-birinə bənzəyir. Hər elçi, insanları Allaha iman etməyə, haqq kitablarına uymağa, qorxub-çəkinməyə və Allahın əmrlərini dəqiqliklə yerinə yetirməyə dəvət etmişdir. Bu səbəblə də iman edənlərin rəsullardan heç birini ayırmadan, hamısına endirilənə iman etmələri, onların Quranda bildirilən təbliğlərinə böyük dəqiqliklə əməl etmələri lazımdır. Ayədə belə əmr edilir:

**Deyin ki: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Onlardan heç birini digərindən ayırmırıq və biz Ona təslim oluruq!". (Bəqərə surəsi, 136)**

Bütün rəsullar insanları haqq dinə və ən doğru yola çağırmışlar. Bu çağırış onların ümmətləri üçün keçərli olduğu kimi, bizim üçün də keçərlidir. Hamısının dəvət etdiyi təməl imani və əxlaqi həqiqətlər, sərgilədikləri üstün xarakter xüsusiyyətləri, hər dövr üçün, bu səbəbdən bizlər üçün də riayət edilməli və nümunə alınmalı olan mövzulardır. Allah Quranda onların dəvət etdikləri həqiqətləri və sahib olduqları üstün əxlaqi xüsusiyyətləri bizlərə bir çox baxımdan, köklü və ətraflı bir şəkildə bildirmişdir. Və Peyğəmbərlərinin şəxsində bütün möminlərə doğru yola tabe olmağı əmr etmişdir:

**Bunlar, Kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir. Əgər kafirlər ayələri inkar etsələr, Biz onları inkar etməyən bir qövmə həvalə edərik. Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl. De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu Kitab aləmlər üçün yalnız bir xatırlatmadır". (Ənam surəsi, 89-90)**

Elə isə möminlərə düşən Quranda elçilərin hekayələrini diqqətlə oxuyub, onların göstərdikləri doğru yola, etdikləri öyüdlərə və xəbərdarlıqlara dəqiqliklə əməl etməyə çalışmaqdır.

## Kəhf surəsindən Axırzamana işarələr

Kitab boyunca Kəhf surəsində Axırzamana istiqamətli bir çox işarə olduğunu ifadə etdik. Necə ki, bəzi ayələrin əbcəd dəyərləri də dövrümüzə çox yaxın zamanlara xitab edir. Bu ayələrdən bəziləri bu şəkildədir:

**..Onların qəlbinə qüvvət verdik.... (Kəhf surəsi, 14)**

HİCRİ: 1400 MİLADİ: 1979

**O dedi: “Rəbbimin mənə əta etdiyi mülk daha yaxşıdır. ... (Kəhf surəsi, 95)**

HİCRİ: 1409, miladi: 1988 (şəddəsiz)

**Həqiqətən Biz ona yer üzündə möhkəm bir iqtidar verdik ... (Kəhf surəsi, 84)**

HİCRİ: 1440, miladi: 2019 (şəddəli)

Kəhf surəsində hicri 14-cü əsrin əvvəlinə, yəni miladi olaraq XX əsrin sonu və XXI əsrin əvvəlinə baxan bir işarə isə Kəhf surəsinin sıra nömrəsi ilə ayə sayının bir-birinə vurduqda əldə edilən 1980 rəqəmidir. Bu rəqəm hicri 14-cü əsrin əvvəllərinə uyğun gəlir.

18-ci surə Kəhf surəsi 110 ayə 18 x 110 = 1980

Bədiüzzaman Səid Nursi də bir çox sözündə Axırzamanın başlanğıcı olaraq eyni tarixlərə işarə etmişdir. Məsələn, bir sözü bu şəkildədir:

Məhz bu həqiqəti bilməyən insafsız insanlar deyirlər ki: "Axirətin təfsilatını dərs alan ayıq qəlbli, kəskin nəzərli olan səhabələrin fikirləri nə üçün min il həqiqətdən uzaq olaraq fikirlərindən çıxmış kimi, istikbal-i dünyəvidə min dörd yüz il sonra gələcək bir həqiqəti əsrlərində yaxın zənn etmişdilər? (9)

Ustad burada, səhabələrin yaşadığı dövrdən "1400 il sonra"sından bəhs edərək, Axırzamanın 1980-ci illərə uyğun gəldiyini işarə etmişdir. Burada nə 1373, nə 1378, nə də

1398 deyilməmiş, tam 1400 deyilmişdir. Yəni hz. Mehdinin hicri 1400-cü illərdə vəzifəyə başlayacağını açıq və dəqiq olaraq ifadə etmişdir.

# NƏTİCƏ

Kitab boyunca Kəhf surəsində müsəlmanlara bildirilən müxtəlif hikmətlər, xatırlatma və nəsihətlər üzərində dayandıq. Rəbbimizin, **"... Allahın sizə verdiyi neməti və sizə öyüd-nəsihət olaraq endirdiyi Kitabı və hikməti xatırlayın ..."** (Bəqərə surəsi, 231) ayəsiylə bildirdiyi hökmü gərəyi Kəhf surəsindəki ayələrin bəzi hikmətlərini şərhə etməyə çalışdıq.

Ayələrdə bildirilən bu hikmətləri anlamağa və hər an yaşamağa çalışmaq, eyni zamanda insanlara da izah etmək, bütün müsəlmanlar üçün bir məsuliyyətdir. Allah ayəsində bu şəkildə buyurur:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Əlinizdə tutduğunuz bu kitabda, öyüd-nəsihət və hikmət gözüylə oxuyan hər insan üçün, ixlas, itaət, qədərə təslimiyyət, dünya həyatının keçiciliyi, Allahın zamandan və məkandan münəzzəh olması, xüsusi elmlə dəstəklədiyi qulları, Allahın ayələrinə qarşı təkəbbürlənənlərin məruz qalacağı son və iman edənləri gözləyən müjdəli gələcək kimi bir çox mövzuyla əlaqədar çox əhəmiyyətli təfəkkürlər var.

Kəhf surəsində eyni zamanda iman edənlər üçün bir müjdə var. Bu müjdə, Peyğəmbərimizin də hədislərində bildirdiyi, mübarək bir dövr olan Axırzamanın yaxınlaşmasıdır. Kəhf surəsi bu baxımdan baxıldığında, İslamın Axırzamanda keçirəcəyi başlanğıc, inkişaf və hz. İsanın gəlişi ilə birlikdə nəticələnəcək olan hakimiyyət dövrlərinə işarə edir.

Quranın bir çox ayəsindən aydın olduğu üzrə, Allahın istədiyi hikmətə və dərinliyə çatan möminlərə zəfər və hakimiyyət müjdələnir. Bu, ən son mərhələdir və Nur surəsində bizə bildirilən bir müjdənin, Allahın istəyi ilə reallaşdığı bir dövrdür:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər - məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

# QEYDLƏR


1 Sünen-i Ebu Davud, 5/121

2 Sünen-i İbni Mace tərcüməsi və şərhi, Haydar Hatipoğlu, Kahraman nəşrləri, c. 10, s. 332

3 Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, İmam Şa'rani, Bedir Nəşriyyat, s.494

4 Muhammed B. Resul Al-Hüseyni, Kıyamet Alametleri, Mütercim: Naim Erdoğan, 7. baskı, Pamuk Nəşriyyat, s. 155-156

5 Bediüzzaman Said Nursi, Muhakemat, s. 67-68

6 Karadelik, Uzay Ansiklopedisi, s. 136; Carl Sagan, Kosmos, s. 199

7 Kuran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Ömer Nasuhi Bilmen, Bilmen Nəşriyyat, c. 4, s. 1989

8 Bediüzzaman Said Nursi, 16. Lema, s. 101

9 Bediüzzaman Said Nursi, Sözler, s. 343

10 Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2

11 Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), s.196

12 "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Noyabr 1982, s. 1328-1330.

13 Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7

14 Jeffrey Bada, Earth, Fevral 1998, s. 40

15 Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Oktyabr 1994, s. 78

16 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189

17 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184.

18 B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

19 Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179

20 Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133

21 Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197

22 Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, ss. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, s. 389

23 J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Dekabr 1992

24 Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272

25 Time, Noyabr 1996

26 S. J. Gould, Natural History, c. 85, 1976, s. 30

27 Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19

28 Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, s. 28.

29 Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s.43

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil

etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən

kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar

kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün

gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə

əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu

səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə

qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Peyğəmbərlərin Quranda çatdırılan həyatları və qövmlərinə etdikləri məruzələr iman edənlər üçün bir nümunədir. Bununla yanaşı, Quranda gələcəyə dair işarələr və üzərində düşünülməli olan bəzi sirlərdən də bəhs edilir. Bu sirlərdən bəziləri isə Kəhf surəsindədir.

Kəhf surəsi, Peyğəmbərimiz (s.ə.v)-in və bir çox İslam aliminin diqqət çəkdiyi bir surədir. Bu surədə çatdırılan Kəhf və Rəqim əhlində, hz. Musa və elm sahibi biri ilə əlaqədar hadisələrdə və hz. Zülqərneyn hekayəsində bir çox sirlər və Axırzamana işarələr var. Peyğəmbərimiz (s.ə.v) də, Kəhf surəsinin Axırzamanla əlaqəli olduğunu bildirmişdir. Bir hədisdə **"... kim onun (Dəccalın) cəhənnəminin bəlasına uğrasa Allahdan kömək diləsin və Kəhf surəsinin ilk ayələrini oxusun ki, ataş İbrahimə olduğu kimi, bu ataş də o kimsəyə soyuq və salamatlıq olsun.** " şəklində bildirilmişdir.

Kəhf surəsində, Axırzamanda çıxacaq olan dəccaldan və onun yer üzünə yaymaq istədiyi dinsizlik axınlarından qorunmaq və insanlığa bəla gətirəcək olan bu fitnəyə qarşı mübarizə apara bilmək üçün lazımlı işarələr, həmçinin müsəlmanların almalı olduğu dərslər var. Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda bu surəni oxumağı tövsiyə etməsi, bu vəziyyətə açıq bir işarədir.

Bu kitabın yazılmasındakı məqsəd isə, ayələrində dövrümüzə aid əhəmiyyətli işarələr olan Kəhf surəsi üzərində düşünmək, dərin bir təfəkkürlə bu sirlərə yiyələnmək üçün səy sərf etmək və Peyğəmbərimiz (s.ə.v)-in tövsiyəsinə əməl etməkdir. Diqqətlə oxuyanlar görəcəklər ki, bu surədə qiyamətə yaxın bir dövr olan Axırzamana, Axırzamanda yayılacaq olan inkarçı sistemlərin tətbiqlərinə və Allahın bu batil sistemləri, haqqı göndərərək darmadağın etməsinə istiqamətli çox əhəmiyyətli işarələr var.

Bəhs etdiyimiz etdiyimiz bu dövr Allahın izni ilə çox yaxındır. Bu səbəblə, bütün müsəlmanların Kəhf surəsi üzərində diqqətlə düşünmələri, hər bir ayəni digər Quran ayələri əsasında araşdırmaları və yaddaşda saxlamaları son dərəcə əhəmiyyətlidir.